| 1 | 4 | 3 | 4 | 0 | 0 | Vergi qanunvericiliyinin pozulmasına görə daxilolmalar |
| 1 | 4 | 3 | 4 | 1 | 0 | Fiziki şəxslərin gəlir vergisi üzrə maliyyə sanksiyalarından daxilolmalar |
| 1 | 4 | 3 | 4 | 1 | 1 | Muzdlu işlə əlaqədar gəlir vergisi üzrə maliyyə sanksiyalarından daxilolmalar |
| 1 | 4 | 3 | 4 | 1 | 2 | Muzdlu işə aid olmayan fəaliyyətdən gəlir vergisi üzrə maliyyə sanksiyalarından daxilolmalar |
| 1 | 4 | 3 | 4 | 2 | 0 | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi üzrə maliyyə sanksiyalarından daxilolmalar |
| 1 | 4 | 3 | 4 | 3 | 0 | Torpaq vergisi üzrə maliyyə sanksiyalarından daxilolmalar |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| 1 | 4 | 3 | 4 | 4 | 0 | Əmlak vergisi üzrə maliyyə sanksiyalarından daxilolmalar |
| 1 | 4 | 3 | 4 | 5 | 0 | Əlavə dəyər vergisi üzrə maliyyə sanksiyalarından daxilolmalar |
| 1 | 4 | 3 | 4 | 6 | 0 | Aksizlər üzrə maliyyə sanksiyalarından daxilolmalar |
| 1 | 4 | 3 | 4 | 7 | 0 | Sadələşdirilmiş vergi üzrə maliyyə sanksiyalarından daxilolmalar |
| 1 | 4 | 3 | 4 | 8 | 0 | Mədən vergisi üzrə maliyyə sanksiyalarından daxilolmalar |
| 1 | 4 | 3 | 4 | 9 | 0 | Digər vergi hüquqpozmalarına görə maliyyə sanksiyalarından daxilolmalar |
| 1 | 4 | 3 | 4 | 9 | 1 | "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması üzrə maliyyə sanksiyalarından daxilolmalar |
| 1 | 4 | 3 | 4 | 9 | 2 | Əhali ilə pul hesablaşmalarının pozulmasına görə daxilolmalar |
| 1 | 4 | 3 | 4 | 9 | 3 | Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin işə cəlb edilməsinə görə daxilolmalar |
| 1 | 4 | 3 | 4 | 9 | 4 | Kredit təşkilatlarına və maliyyə institutlarına tətbiq edilən maliyyə sanksiyalarından daxilolmalar |
| 1 | 4 | 3 | 4 | 9 | 5 | Digər vergi hüquqpozmalarına görə maliyyə sanksiyalarından daxilolmalar |
| 1 | 4 | 3 | 5 | 0 | 0 | Vergi qanunvericiliyinin pozulmasına görə inzibati cərimə |
| 1 | 4 | 3 | 6 | 0 | 0 | Əmək qanunvericiliyinin pozulmasına görə tətbiq edilən cərimələrdən daxilolmalar |
| 1 | 4 | 3 | 7 | 0 | 0 | Məşğulluq haqqında qanunvericiliyin pozulmasına görə tətbiq edilən cərimələrdən daxilolmalar |
| 1 | 4 | 3 | 8 | 0 | 0 | İşsizlikdən sığorta haqqında qanunvericiliyin pozulmasına görə tətbiq edilən cərimələrdən daxilolmalar |
| 1 | 4 | 4 | 0 | 0 | 0 | Könüllü köçürmələr (qrantlardan başqa) |
| 1 | 4 | 4 | 1 | 0 | 0 | Cari |
| 1 | 4 | 4 | 2 | 0 | 0 | Əsaslı |
| 1 | 4 | 5 | 0 | 0 | 0 | Kateqoriyalar üzrə ayrılması mümkün olmayan sair gəlirlər |
| 1 | 4 | 6 | 0 | 0 | 0 | Büdcələr arasında transfertlər |
| 1 | 4 | 6 | 1 | 0 | 0 | Dövlət büdcəsindən alınan dotasiyalar |
| 1 | 4 | 6 | 2 | 0 | 0 | Yerli gəlir və xərcləri tənzimləmək üçün büdcələrarası ayrılan vəsaitlər |
| 1 | 4 | 6 | 3 | 0 | 0 | Qarşılıqlı hesablaşmalar əsasında transfertlər |
| 1 | 4 | 6 | 4 | 0 | 0 | Büdcədən alınan ssudalar |

**Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatına əlavə**

Büdcə gəlirlərinin təsnifatı büdcə sisteminə daxil olan büdcə gəlirlərinin qruplaşmasıdır. Büdcə gəlirləri 4 kateqoriyadan ibarətdir: vergilərdən daxilolmalar (1.1), sosial ayırmalar (1.2), qrantlar (1.3) və digər gəlirlər (1.4). Bu kateqoriyalardan asılı olaraq büdcə gəlirlərinin təsnifatı dörd səviyyədən: bölmə, yarımbölmə, maddə və yarımmaddədən ibarətdir.

**1.1. Vergilərdən daxilolmalar**

Vergilərdən daxilolmalar dövlətin və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində büdcəyə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişlərdir. Azərbaycan Respublikasının vergiləri qanunla müəyyən edilir. Vergilər - dövlət vergilərinə, Muxtar Respublika vergilərinə və yerli vergilərə (bələdiyyə vergilərinə) bölünür. Dövlət vergiləri dedikdə, Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilən respublika ərazisində ödənilməli olan vergilər nəzərdə tutulur. Muxtar Respublika vergiləri dedikdə, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasının qanunları ilə müəyyən edilən və Muxtar Respublikanın ərazisində ödənilən vergilər nəzərdə tutulur. Yerli vergilər (bələdiyyə vergiləri) dedikdə isə Azərbaycan Respublikasının Vergi Məcəlləsi, “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının Qanunu ilə və digər qanunlarla müəyyən olunan, bələdiyyələrin qərarlarına əsasən tətbiq edilən və bələdiyyələrin ərazisində ödənilən vergilər nəzərdə tutulur. Vergilər vergi bazasına görə fərqlənir. Bu halda vergi bazası kimi məcmu gəlirlər, əməkhaqqı, mal dövriyyəsinin həcmi, mülkiyyət, idxal olunan mallar və sair çıxış edə bilər. Bu nöqteyi-nəzərdən vergilər - gəlirlərdən (mənfəətdən) vergilərə, mülkiyyətdən vergilərə, mal və xidmətlərə görə vergilərə, xarici iqtisadi fəaliyyətlə bağlı vergilərə və sair vergilərə bölünür.

**1.1.1. Gəlirlərdən (mənfəətdən) vergilər**

Gəlirlərdən (mənfəətdən) vergilər fiziki və hüquqi şəxslərin gəlirlərindən (mənfəətindən) vergilərə bölünür.

**1.1.1.1. Fiziki şəxslər** vergi ili üçün Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi bütün gəlirlərindən və həmin dövr üçün Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyənləşdirilən gəlirlərdən çıxılan məbləğ arasındakı fərqdən **gəlir vergisi** ödəyirlər. **Fiziki şəxslərin gəlirləri** muzdlu işlə əlaqədar olan gəlirlərə, muzdlu işlə əlaqədar olmayan gəlirlərə və sair gəlirlərə bölündüyü üçün fiziki şəxslərdən gəlir vergisi də bu qruplar üzrə bölünmüşdür. Hasilatın Pay Bölgüsü Sazişləri üzrə podratçı və xarici subpodratçı təşkilatlarda fiziki şəxslərin gəlir vergisi də bu qruplar üzrə müvafiq olaraq öz əksini tapmışdır. **Muzdlu iş ilə əlaqədar**

**gəlirlərdən gəlir vergisi** dedikdə, əməkhaqqından və bu işlə bağlı hər hansı ödəmədən, faydadan əldə edilən gəlirlərdən gəlir vergisi nəzərdə tutulur.

**Muzdlu işə aid olmayan fəaliyyətdən gəlir vergisi** dedikdə isə sahibkarlıq (o cümlədən, aktivlərin və əsas vəsaitlərin təqdim edilməsi və s.) və qeyri-sahibkarlıq (faiz gəlirlərindən, dividendlərdən, əmlakın icarəyə verilməsindən, royaltidən və s.) fəaliyyəti üzrə gəlirlərdən vergi başa düşülür.

**Fiziki şəxslərin digər gəlirlərindən gəlir vergisi** dedikdə, vergilərdən azad edilən gəlirlərdən başqa digər gəlirlərdən gəlir vergisi nəzərdə tutulur.

**1.1.1.2. Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi** rezident müəssisələrin mənfəət vergisinə, qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəlik və filiallarının gəlirlərinin gəlir vergisinə, Hasilatın Pay Bölgüsü Sazişləri üzrə podratçıların və xarici subpodratçıların mənfəət (gəlir) vergisinə, rezidentlərin və qeyri-rezidentlərin ödəmə mənbəyindən əldə edilən gəlirlərinin gəlir vergisinə və bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisinə bölünür.

**Rezident müəssisələrin mənfəət vergisi** dedikdə, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq təsis edilən və sahibkarlıq fəaliyyətini həyata keçirən və ya Azərbaycan Respublikasında idarə edilən hüquqi şəxslərin mənfəət vergisi nəzərdə tutulur.

**Qeyri-rezident müəssisələrin Azərbaycan Respublikasında daimi nümayəndəliyi ilə bağlı olan gəlirlərdən vergi** dedikdə, xarici dövlətlərin qanunvericiliyinə uyğun olaraq yaradılmış hüquqi şəxslərin respublikamızda özünün daimi nümayəndəliyi vasitəsilə əldə etdiyi mənfəətdən vergi başa düşülür.

**Hasilatın Pay Bölgüsü Sazişləri üzrə podratçı tərəflərin və xarici subpodratçıların mənfəət vergisi** dedikdə, Hasilatın Pay Bölgüsü Sazişləri üzrə bağlanmış müqavilələrə əsasən podratçı tərəflərin və subpodratçıların mənfəət vergisi nəzərdə tutulur.

**Ödəmə mənbəyində gəlirləri vergiyə cəlb olunan gəlirlərdən gəlir vergisi** dedikdə, rezidentlərin və qeyri-rezidentlərin ödəmə mənbəyində vergiyə cəlb olunan dividentlərindən, faizlərindən, icarə haqlarından, royaltidən və digər gəlirlərindən gəlir vergisi başa düşülür.

**Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi** dedikdə, bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların ödədikləri mənfəət vergisi nəzərdə tutulur.

**1.1.2. Əməkhaqqı fonduna və işçi qüvvəsinə vergilər** dedikdə, əməkhaqqı fondundan faiz nisbəti ilə və ya hər işçiyə görə konkret müəyyənləşdirilmiş məbləğ formasında işəgötürənlərdən və ya sərbəst qaydada məşğul olanlardan tutulan vergilərdir. Bu zaman vergilər formasında tutulan vəsaitlər müəyyən edilmiş məqsədli proqramların yerinə yetirilməsinə yönəldilmir.

**1.1.3. Mülkiyyətdən vergilərə** mülkiyyətlə bağlı vergilər daxildir. Qeyd olunan vergiləri mülkiyyətin sahibləri və istifadəçiləri ödəyirlər. Təsnifatda mülkiyyətdən vergilər daşınmaz əmlaka görə dövri vergilərə, əmlakın xalis dəyərindən ödənilən cari vergilərə, vərəsəlik və bağışlanma qaydasında mülkiyyətə keçmiş əmlakdan vergilərə, maliyyə əməliyyatlarına və kapitalla aparılan əməliyyatlara görə vergilərə və mülkiyyətə görə digər cari vergilərə bölünür.

**1.1.3.1. Torpaq vergisinin** ödəyiciləri rezident və qeyri-rezident müəssisələr, habelə rezident və qeyri-rezident fiziki şəxslər hesab olunurlar.

Rezident və qeyri-rezident müəssisələrin torpaq vergisi torpaq vergisinin obyektindən asılı olaraq sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət, məişət xidməti və digər xüsusi təyinatlı torpaqlara görə torpaq vergisinə, kənd təsərrüfatı təyinatlı torpaqlara görə torpaq vergisinə və digər təyinatlı torpaqlara görə torpaq vergisinə ayrılmışdır.

**Rezident və qeyri-rezident fiziki şəxslərin torpaq vergisi** isə yaşayış fondlarının, həyətyanı sahələrin, bağ sahələrinin torpaq sahələrinə görə torpaq vergisinə, kənd təsərrüfatı üçün istifadə edilən torpaqlara görə torpaq vergisinə və digər təyinatlı torpaqlara görə torpaq vergisinə bölünür.

Torpaq vergisi torpaqların təyinatından asılı olaraq təsnifatda müvafiq maddələrə aid edilməlidir.

**1.1.3.2. Əmlak vergisinin** ödəyiciləri rezident və qeyri-rezident müəssisələr, habelə rezident və qeyri-rezident fiziki şəxslər hesab olunurlar.

**Rezident və qeyri-rezident müəssisələrin əmlak vergisi** bu verginin obyektindən asılı olaraq müəssisənin balansında olan əsas vəsaitlərdən əmlak vergisinə və sair əmlakdan əmlak vergisinə bölünür. Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident müəssisələrinin əmlak vergisi də bu qrupa aid edilmişdir.

**Rezident və qeyri-rezident fiziki şəxslərdən əmlak vergisi** fiziki şəxslərin mülkiyyətində olan su və hava nəqliyyatı vasitələrindən əmlak vergisinə, əsas vəsaitlərdən əmlak vergisinə və sair əmlakdan əmlak vergisinə bölünmüşdür.

**1.1.3.3. Əmlakın xalis dəyərindən ödənilən cari vergilər** dedikdə, əmlakın dəyərindən həmin əmlak üzrə öhdəliklər çıxılmaqla, yaranan xalis dəyərdən ödənilən vergilər başa düşülür.

**1.1.3.4. Vərəsəlik və ya bağışlama qaydasında mülkiyyətə keçmiş əmlakdan vergilər** mülkiyyətçinin ölümü ilə bağlı mülkiyyətin vərəsəlik, bağışlanma qaydasında verilməsindən və başqasının mülkiyyətinə keçmiş əmlakdan alınan vergilərdir.

**1.1.3.5. Maliyyə əməliyyatlarına və kapital ilə aparılan əməliyyatlara görə vergilərə** qiymətli kağızların buraxılmasına, onların alqı və satqısına görə vergilər, çeklərə və digər ödəniş formalarına görə vergilər, eləcə də daşınmaz əmlakın satışını həyata keçirən hüquqi əməliyyatlara görə vergilər aid edilir.

**1.1.3.6. Mülkiyyətə görə digər cari vergilərə** şəxsi mülkiyyətdə olan bəzi kateqoriyalı əmlaklara görə tətbiq olunan vergilər aiddir.

**1.1.4. Mal və xidmətlərə görə vergilər**

Mal və xidmətlərə görə vergilər kateqoriyasına malların, işlərin və xidmətlərin istehsalı, hasilatı, satışı, verilməsi və onlardan istifadə ilə bağlı vergilər aid edilmişdir.

Bu kateqoriyaya mal və xidmətlərə görə ümumi vergilər, aksiz, fiskal inhisarçıların mənfəəti, malların istifadəsinə, yaxud istifadə hüququ verilməsinə və hər hansı bir fəaliyyətlə məşğul olmaq üçün vergilər, mal və xidmətlərdən alınan digər vergilər daxildir.

**1.1.4.1. Əlavə dəyər vergisi** də təsnifatda iki maddəyə bölünmüşdür: Azərbaycan Respublikasında mal, iş və xidmətlərə görə əlavə dəyər vergisi, respublika ərazisinə

gətirilən mallara görə əlavə dəyər vergisi.

**1.1.4.2. Satışdan vergilər** malların, işlərin və xidmətlərin istehsal mərhələsindən tutmuş pərakəndə satış mərhələsinədək yalnız bir mərhələdə tutulan vergilərdir.

**1.1.4.3. Sadələşdirilmiş vergilərə** vergi üzrə daxilolmalara əlavə dəyər vergisi ödəyicisi kimi qeydiyyatdan keçməyən hüquqi və fiziki şəxslərin bu sistem üzrə ödədikləri vergilər aiddir.

**1.1.4.4. Dövriyyədən vergilərə və mal və xidmətlərə görə digər ümumi vergilərə** əvvəlki kateqoriyalar üzrə sadalanmayan dövriyyədən, mal və xidmətlərdən alınan digər vergilər daxildir.

**1.1.4.5. Aksiz** təsnifatda iki maddəyə bölünmüşdür: Azərbaycan Respublikasında istehsal olunan mallara görə aksiz və respublikamıza idxal olunan mallara görə aksiz. Bu maddələrin özləri də aksizli malların növlərinə uyğun olaraq yarımmaddələrə bölünmüşdür.

**1.1.4.6. Spesifik xidmətlərə görə ödənişlərə** nəqliyyatda gedişə, sığorta mükafatlarına, bank xidmətlərinə, dövlət və bələdiyyə torpaqlarında, binalarında və digər obyektlərində açıq məkanda reklamın yayımı, kurort, mehmanxana, avtomobil dayanacaqları üçün ödənişlər və sair spesifik xidmətlərə görə vergilər aid edilir. Eyni zamanda, bu kateqoriyaya oyun avtomatlarına görə və kazinolara girişə görə vergilər də şamil edilir.

**1.1.4.7. Yol vergisi** Azərbaycan Respublikasının ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtonəqliyyat vasitələrinin sahibləri olan qeyri-rezident şəxslər, habelə Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı və ya idxalı ilə məşğul olan şəxslər tərəfindən ödənilən vergilərdir.

**1.1.4.8. Malların istifadəsinə, yaxud istifadə hüququ verilməsi və hər hansı bir fəaliyyətlə məşğul olmaq üçün vergilər** dedikdə, dövlətin bəzi fəaliyyət növlərinə və bəzi növ malların istehsalına icazənin verilməsi ilə bağlı tətbiq etdiyi vergilər başa düşülür.

**1.1.5. Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər** Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və gömrük qanunvericiliyinə uyğun olaraq qruplaşdırılmışdır.

**1.1.5.1. İdxal rüsumları** ölkəyə idxal olunan mallara görə gömrük orqanları tərəfindən tutulur. Bu kateqoriyaya hesablama metodundan asılı olmayaraq, bütün idxal rüsumları daxil edilir.

**1.1.5.2. İxrac rüsumları** ölkədən malların ixracı zamanı gömrük orqanları tərəfindən tutulan rüsumlardır.

**1.1.5.3. İdxal və ixrac inhisarçılarının mənfəəti** dedikdə, dövlət hakimiyyəti orqanlarının idxal, ixrac əməliyyatlarının tənzimlənməsi məqsədi ilə xüsusi səlahiyyət verdikləri müəssisələrdən alınan mənfəət başa düşülür.

**1.1.5.4. Xarici valyutalar üzrə məzənnə mənfəəti** dövlətin xüsusi inhisarçı səlahiyyəti verdiyi orqan tərəfindən xarici valyutaların alqı-satqısı zamanı yaranan kurs fərqindən alınır.

**1.1.5.5. Xarici valyutada aparılmış əməliyyatlardan vergilərə** xarici valyutaların alqı-satqısı zamanı yaranan kurs fərqindən alınan vergilər (xüsusi inhisarçı səlahiyyəti verilmiş orqan istisna olmaqla), xarici valyutanın alınması məqsədi ilə xaricə köçürülən

vəsaitlərdən alınan daxilolmalar şamil edilir.

**1.1.5.6. Xarici iqtisadi fəaliyyətlə bağlı sair vergilərə** yuxarıda qeyd olunan kateqoriyalara aid edilməyən vergilər daxildir. Eyni zamanda, bu kateqoriyaya gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları və qiyməti tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt qiyməti ilə respublikadaxili müəssisə topdansatış qiyməti arasındakı fərqdən büdcəyə ödənişlər də aid edilmişdir. Gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları idxal və ixrac əməliyyatları zamanı gömrük qanunvericiliyinə uyğun olaraq tutulan ödənişlərdir.

Bundan başqa bu kateqoriyaya xaricdə sığorta və investisiya əməliyyatlarına, xarici valyutanın alınması məqsədi daşımayan xaricə köçürülən vəsaitlərdən alınan vergilər də şamil edilir.

**1.1.6. Sair vergilər** kateqoriyasına təsnifatda göstərilməyən digər vergilər üzrə daxilolmalar aid edilir.

**1.1.6.1. Kommersiya qurumları tərəfindən ödənilən digər vergilərə** kommersiya qurumları tərəfindən yuxarıda qeyd olunan kateqoriyalara aid edilməyən vergilər şamil edilir.

**1.1.6.2. Qeyri-kommersiya qurumları tərəfindən ödənilən digər vergilərə** qeyri-kommersiya qurumları tərəfindən yuxarıda qeyd olunan kateqoriyalara aid edilməyən vergilər şamil edilir.

**1.2. Sosial ayırmalar**

Sosial ayırmalar dövlətin həyata keçirdiyi sosial proqramlardan asılı olaraq sosial təminata, işsizlikdən sığortaya və sosial ehtiyaclara ayırmalara bölünür. Sosial sığorta və işsizlikdən sığorta haqlarının ödənişi məcburi xarakter daşıyır və xüsusi fondların yaradılmasını nəzərdə tutur.

**1.2.1. Sosial təminata ayırmalar** məcburi dövlət sosial sığorta ayırmalarından ibarətdir və bu vəsaitlər Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna ödənilir. Sosial sığorta ayırmaları da öz növbəsində işəgötürənlərin əməyin ödənişi fonduna hesablanan sosial sığorta ayırmalarına, işçilərin əməkhaqlarından hesablanan sosial sığorta ayırmalarına, fərdi sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olanların gəlirlərindən hesablanan sosial sığorta ayırmalarına və sair gəlirlərdən hesablanan sosial sığorta ayırmalarına bölünür. Qeyd olunan daxilolmalar “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**1.2.1.1. İşəgötürənlərin əməyin ödənişi fonduna hesablanan sosial ayırmaları** müəssisə və təşkilatların əmək ödənişi fonduna qanunda nəzərdə tutulmuş nisbətdə hesablanan ayırmadır.

**1.2.1.2. Muzdla işləyənlərin əməkhaqlarından hesablanan sosial ayırmalar** işçilərin əməkhaqlarından qanunda nəzərdə tutulmuş nisbətdə hesablanan ayırmadır.

**1.2.1.3. Muzdlu işçisi olmayan fərdi sahibkarlıq subyektləri tərəfindən ödənilən sosial ayırmalar** muzdlu işçisi olmayan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş dərəcələrlə ödənilən sosial ayırmalardır.

**1.2.1.4. Mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən şəxslər tərəfindən ödənilən sosial ayırmalar** mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən şəxslərin əmək qabiliyyətli ailə üzvlərinin hər biri

üçün “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş dərəcələrlə ödənilən sosial ayırmalardır.

**1.2.1.5. Ailə kəndli təsərrüfatı tərəfindən ödənilən sosial ayırmalar** ailə kəndli təsərrüfatının hər bir üzvü üçün “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş dərəcələrlə ödənilən sosial ayırmalardır.

**1.2.1.6. Mülki hüquqi xarakterli müqavilələrlə işləyənlər üçün ödənilən sosial ayırmalar** mülki hüquqi xarakterli müqavilələrlə işləyənlər üçün (sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər istisna olmaqla) ödəmə mənbəyindən tutulmaqla, “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş dərəcələrlə ödənilən sosial ayırmalardır.

**1.2.1.7 Vəkillər kollegiyasının üzvləri, xüsusi notariuslar, sərbəst auditorlar, sərbəst mühasiblər üçün ödənilən sosial ayırmalar** vəkillər kollegiyasının üzvləri, xüsusi notariuslar, sərbəst auditorlar, sərbəst mühasiblər üçün “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş dərəcələrlə ödənilən sosial ayırmalardır.

**1.2.1.8. Sair gəlirlərdən sosial ayırmalar** dedikdə, ”Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ilə ev təsərrüfatında muzdlu işçilərin, müəlliflik qonorarı ödəyən hüquqi və fiziki şəxslərin, xarici ölkələrdə haqqı ödənilən əmək fəaliyyəti ilə və ya fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan və həmin ölkələrdə məcburi dövlət sosial sığorta haqqı ödəməyən Azərbaycan Respublikasının vətəndaşlarının vəkillər kollegiyası üzvlərinin, xüsusi notariusların, sərbəst auditorların, sərbəst mühasiblərin, icarə əsasında nəqliyyat vasitələrində işləyən şəxslərin gəlirlərindən və digər gəlirlərdən “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş dərəcələrlə ödənilən sosial sığorta ayırmaları başa düşülür.

**1.2.2. Sosial ehtiyaclara digər ayırmalar** sosial təminata ayırmalar formasında aparılır. Bu proqramlar təqaüddən başqa müavinətlərin verilməsini də nəzərdə tutur.

**1.2.2.1. Sosial xidmətlərin göstərilməsindən daxilolmalar** dedikdə, sosial xidmətlərin göstərilməsindən daxilolmalar nəzərdə tutulur.

**1.2.2.2. Sair sosial transfertlər** sosial proqramların maliyyələşdirilməsinə yönəldilən müxtəliftəyinatlı transfertlər nəzərdə tutulur.

**1.2.3. İşsizlikdən sığortaya ayırmalar** dedikdə, “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada sığortaolunan və sığortaedən tərəfindən sığortaçıya ödənilən pul məbləği, həmçinin bu Qanunla müəyyən edilmiş digər gəlirlərdən daxilolmalar nəzərdə tutulur.

**1.2.3.1. İşəgötürənlərin əməyin ödənişi fondundan hesablanan işsizlikdən sığorta haqqı** sığortaedən tərəfindən hesablanmış əməyin ödənişi fondunun 0,5 faizi miqdarında ödənilən işsizlikdən sığorta haqqını nəzərdə tutur.

**1.2.3.2. İşləyənlərin əməkhaqlarından hesablanan işsizlikdən sığorta haqqı** işləyənlərin hesablanmış əməkhaqlarının 0,5 faizi miqdarında ödənilən işsizlikdən sığorta haqqını nəzərdə tutur.

**1.2.3.3. “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş digər gəlirlər** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş inzibati xətalara görə tətbiq olunan inzibati cərimələrdən daxilolmalar istisna olmaqla, bu Qanunla müəyyən edilmiş digər mənbələr üzrə daxilolmaları nəzərdə tutur.

**1.3. Qrantlar**

“Qrant haqqında” Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 5-ci hissəsində nəzərdə tutulmuş şəxslər Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnu əldə etdikdən sonra donor kimi çıxış edə bilərlər. Donorlardan asılı olmayaraq

qrantlar cari və əsaslı qrantlara bölünür. Cari qrantlar aktivlərin alınması ilə şərtlənməyən cari xərclərin örtülməsi ilə bağlı ödənişlərdir. Əsaslı qrantlar isə aktivlərin alınması, verilməsi ilə şərtlənən ödənişlərdir.

**1.3.1. Xarici hökumətlərdən daxil olan qrantlara** xarici hökumətlərdən dövlət üçün əhəmiyyət kəsb edən proqramların həyata keçirilməsi və ya büdcənin möhkəmləndirilməsi məqsədi ilə alınmış ödənişlər daxildir.

**1.3.2. Beynəlxalq təşkilatlardan daxil olan qrantlara** xeyriyyəçilik, humanitar inkişaf və başqa ictimaiyönlü beynəlxalq təşkilatlar tərəfindən dövlət üçün əhəmiyyət kəsb edən təhsil, elm, səhiyyə, incəsənət, idman və digər sahələrdə proqramların həyata keçirilməsi məqsədilə alınmış ödənişlər daxildir.

**1.3.3. Dövlətin idarəetmə sektorunun digər həlqələrindən daxil olan qrantlara** maliyyə-kredit institutları, ictimai fondlar, assosiasiyalar, federasiyalar, komitələr və sair təşkilatlar tərəfindən dövlət üçün əhəmiyyət kəsb edən müxtəliftipli layihə və proqramların həyata keçirilməsi məqsədi ilə alınmış ödənişlər daxildir.

**1.4. Digər gəlirlər**

Digər gəlirlər mülkiyyətdən gəlirlərə, mal və xidmətlərin satışından daxilolmalara, cərimə və sanksiyalar üzrə daxilolmalara və könüllü köçürmələrə bölünür.

**1.4.1. Mülkiyyətdən gəlirlər** dövlətin mülkiyyəti ilə bağlı olan vergi olmayan gəlirlərdir. Bu gəlirlər faizlərdən, dividentlərdən, dövlət mülkiyyətində olan müəssisələrin mənfəətindən ayırmalardan, pul-şey lotereyaları üzrə daxilolmalardan və icarə haqqından ibarətdir.

**1.4.1.1. Faizlərdən** gəlirlər dövlət tərəfindən verilmiş depozitlərlə, qiymətli kağızlarla (səhmlərlə), büdcə ssudaları ilə və dövlət zəmanəti ilə verilmiş kreditlərlə bağlıdır. Faizlərin ödəyiciləri dövlət maliyyə və qeyri-maliyyə təşkilatları, özəl sektora aid təşkilatlar, xarici hökumətlər və digər mənbələr ola bilər.

**1.4.1.2. Dividentlərdən** gəlirlər dedikdə, dövlətin səhmdar kimi çıxış etdiyi təşkilatlardan divident formasında əldə etdiyi gəlirlər başa düşülür. Dividentlər dövlət maliyyə və qeyri-maliyyə təşkilatları, özəl sektora aid təşkilatlar, xarici hökumətlər və digər mənbələr tərəfindən ödənilə bilər.

**1.4.1.3. Dövlət mülkiyyətində olan müəssisələrin mənfəətindən ayırmalara** dövlətin mülkiyyətində olan müəssisələrin qanunvericiliklə müəyyən edilmiş qaydada nəzərdə tutulmuş mənfəətindən ayırmalar aid edilir.

**1.4.1.4. Mərkəzi Bankın mənfəətindən ayırmalara** qanunvericiliklə müəyyən edilmiş qaydada Mərkəzi Bankın nəzərdə tutulmuş mənfəətindən ayırmalar aid edilir.

**1.4.1.5. Dövlət Neft Fondundan daxilolmalara** qanunvericiliklə müəyyən edilmiş qaydada Dövlət Neft Fondundan büdcəyə edilən ayırmalar aid edilir.

**1.4.1.6. Sığorta təşkilatlarından ayırmalara** sığorta təşkilatlarından sığorta polislərinə görə alınmış ehtiyat vəsaitlərindən ayırmalar aid edilir.

**1.4.1.7. İcarəhaqqı** üzrə daxilolmalara dövlətə və bələdiyyəyə məxsus olan mülkiyyətin icarəyə verilməsindən daxilolmalar aid edilir. Bu halda icarə obyekti kimi daşınmaz əmlak, torpaq və yerin təkində olan mineral ehtiyatlar nəzərdə tutulur.

**1.4.2. Mal və xidmətlərin satışından daxilolmalara** dövlətə məxsus olan maddi və qeyri-maddi aktivlərin satışı və ya özəlləşdirilməsindən daxilolmalar, büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar və dövlət rüsumu aid edilir.

**1.4.2.1. Dövlət əmlakının satışından daxilolmalara** dövlətə məxsus olan bina və tikililərin, avadanlıqların, nəqliyyat vasitələrinin, digər əsaslı vəsaitlərin, dövlətə məxsus olan müəssisə və təşkilatların, maddi ehtiyatların, torpağın və qeyri-maddi aktivlərin satışından daxilolmalar aiddir.

Dövlət orqanları tərəfindən müsadirə edilmiş, sahibsiz qalmış və vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçmiş əmlakın və dəfinələrin satışından daxilolmalar müvafiq qanunvericiliklə tənzimlənir.

**1.4.2.2. Dövlət rüsumuna** dövlət orqanları və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər tərəfindən hakimiyyət səlahiyyətlərinin icrası zamanı göstərilən və hüquqi nəticələrin yaranmasına səbəb olan xidmətlərə və hüquqi hərəkətlərə görə (sənədlərin tərtibi, qeydiyyatı, razılıqların verilməsi və s.) ödənişlər aiddir. Dövlət rüsumu rüsum tutulan əməliyyatların növlərinə görə təsnifatlaşdırılmışdır.

**1.4.2.3. Qeyri-kommersiya təşkilatlarının kommersiya fəaliyyətindən gəlirlər** dedikdə, Dövlət Neft Fondunun və məqsədli büdcə fondlarının gəlirləri başa düşülür.

**1.4.2.4. Mal və xidmətlərin satışından digər daxilolmalara** mal və xidmətlərin satışından büdcəyə daxil edilən bütün digər daxilolmalar aid edilir.

**1.4.2.5. Büdcə təşkilatlarının ödənişli xidmətlərindən, maliyyə sanksiyalarının, inzibati cərimələrin, vergilərin və dövlət rüsumlarının qanunvericiliklə büdcədənkənar gəlirlərə aid edilən hissəsindən daxilolmalara** büdcədən maliyyələşən təşkilatların göstərdikləri müxtəlif ödənişli xidmətlərə görə və maliyyə sanksiyalarının, inzibati cərimələrin, vergilərin və dövlət rüsumlarının qanunvericiliklə həmin təşkilatların büdcədənkənar gəlirlərinə aid edilən hissəsindən daxilolmalar aid edilir.

**1.3.3. Cərimə və sanksiyalar üzrə daxilolmalara** cinayət hüquqpozma və inzibati xətalara, maliyyə, sığorta, vergi, əmək, məşğulluq, işsizlik və torpaq qanunvericiliyinə uyğun olaraq tutulan cərimə və sanksiyalar aid edilir. Yol hərəkəti qaydalarının pozulmasına görə cərimələr, sanksiyalar və sair daxilolmalar bu qrupa daxildir.

**1.4.4. Könüllü köçürmələrə (qrantlardan başqa)** beynəlxalq təşkilatlar və dövlət idarəetmə orqanları istisna olmaqla, digər hüquqi və fiziki şəxslər, müxtəlif qeyri-dövlət fondları və digər mənbələr tərəfindən bağışlanılmış və könüllü köçürülmüş vəsaitlər aid edilir. Onlar cari və əsaslı köçürmələrə bölünür. Misal üçün, cari köçürmələrə dövlətə ərzaq və tibbi preparatların verilməsi aid edilə bilər. Əsaslı köçürmələrə isə xəstəxanaların, məktəblərin, muzeylərin, teatrların, mədəniyyət mərkəzlərinin tikilməsi məqsədi ilə köçürülən vəsaitlər, eyni zamanda maddi və qeyri-maddi aktivlərin bağışlanılması aid edilə bilər. Əgər daxil olmuş köçürmənin əsaslı və cari köçürməyə aid edilməsi aydın deyildirsə, onda belə köçürmələr cari köçürmələr kimi öz əksini tapmalıdır.

**1.4.5. Kateqoriyalar üzrə ayrılması mümkün olmayan gəlirlərə** yuxarıda qeyd olunan kateqoriyalara aid edilməsi mümkün olmayan gəlirlər daxildir.

**1.4.6. Büdcələr arasında transfertlərə** dövlət büdcəsindən yerli gəlir və xərcləri tənzimləmək üçün əvəzsiz verilən maliyyə vəsaitləri, dövlət büdcəsindən yerli büdcələrə, hüquqi şəxslərə qaytarılmaq şərtilə müəyyən müddətə verilmiş vəsaitlərlə bağlı gəlirlər daxildir.

## Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatı

| Adları | Bölmə | Köməkçi bölmə | Paraqraf |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **Ümumi dövlət xidmətləri** | **1** | **0** | **0** |
| **Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti** | **1** | **1** | **0** |
| Qanunvericilik orqanlarının fəaliyyəti | 1 | 1 | 1 |
| Ali və yuxarı icra hakimiyyəti orqanlarının fəaliyyəti | 1 | 1 | 2 |
| Mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyəti | 1 | 1 | 3 |
| Yerli icra hakimiyyəti orqanlarının fəaliyyəti | 1 | 1 | 4 |
| Yerli özünüidarəetmə (bələdiyyə) orqanlarının fəaliyyəti | 1 | 1 | 5 |
| Digər mərkəzi təşkilatların fəaliyyəti | 1 | 1 | 9 |
| **Beynəlxalq münasibətlər** | **1** | **2** | **0** |
| Beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq | 1 | 2 | 1 |
| Beynəlxalq və regional maliyyə institutları ilə əməkdaşlıq | 1 | 2 | 2 |
| Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları | 1 | 2 | 3 |
| Azərbaycan Respublikasının xaricdəki mədəniyyət mərkəzləri | 1 | 2 | 4 |
| Digər beynəlxalq fəaliyyət | 1 | 2 | 9 |
| **Xarici yardımlar** | **1** | **3** | **0** |
| Xarici ölkələrə yardımlar | 1 | 3 | 1 |
| Xarici ölkələrə kreditlər | 1 | 3 | 2 |
| Beynəlxalq təşkilatlara yardımlar | 1 | 3 | 3 |
| **Elm** | **1** | **4** | **0** |
| Fundamental elm | 1 | 4 | 1 |
| Ümumi dövlət xidmətləri üzrə tətbiqi tədqiqatlar | 1 | 4 | 8 |
| **Seçkilərin keçirilməsi və statistika tədbirləri** | **1** | **5** | **0** |
| Azərbaycan Respublikası Prezidentinin seçkilərinin keçirilməsi | 1 | 5 | 1 |
| Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsi | 1 | 5 | 2 |
| Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərin keçirilməsi | 1 | 5 | 3 |
| Azərbaycan Respublikasının bələdiyyə orqanlarına seçkilərin keçirilməsi | 1 | 5 | 4 |
| Ümumxalq səsverməsinin (referendumunun) keçirilməsi | 1 | 5 | 5 |
| Digər seçki tədbirləri | 1 | 5 | 6 |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| Stasistika tədbirləri | 1 | 5 | 7 |
| **Büdcələrarası transfertlər** | **1** | **6** | **0** |
| Naxçıvan Muxtar Respublikasının büdcəsi | 1 | 6 | 1 |
| Yerli (bələdiyyə) büdcələr | 1 | 6 | 2 |
| Büdcələrarası digər transfertlər | 1 | 6 | 3 |
| **Dövlət borcu** | **1** | **7** | **0** |
| Daxili borc | 1 | 7 | 1 |
| Xarici borc | 1 | 7 | 2 |
| **Müdafiə və milli təhlükəsizlik** | **2** | **0** | **0** |
| **Müdafiə qüvvələri** | **2** | **1** | **0** |
| Ordu və donanma | 2 | 1 | 1 |
| Xarici dövlətlərə hərbi yardım | 2 | 1 | 2 |
| Mülki müdafiə | 2 | 1 | 3 |
| Müdafiə sahəsində tədbirlər | 2 | 1 | 9 |
| **Milli təhlükəsizlik** | **2** | **2** | **0** |
| **Sərhəd xidməti** | **2** | **3** | **0** |
| **Müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar** | **2** | **8** | **0** |
| **Müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyət** | **2** | **9** | **0** |
| **Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq** | **3** | **0** | **0** |
| **Məhkəmə hakimiyyəti** | **3** | **1** | **0** |
| **Hüquq-mühafizə** | **3** | **2** | **0** |
| **Prokurorluq** | **3** | **3** | **0** |
| **Məhkəmə qərarlarının icrası** | **3** | **4** | **0** |
| **Hüquqi yardım** | **3** | **5** | **0** |
| **Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq sahələrində tətbiqi tədqiqatlar** | **3** | **8** | **0** |
| **Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyət** | **3** | **9** | **0** |
| **Təhsil** | **4** | **0** | **0** |
| **Məktəbəqədər təhsil** | **4** | **1** | **0** |
| **Ümumi təhsil** | **4** | **2** | **0** |
| İbtidai təhsil | 4 | 2 | 1 |
| Ümumorta təhsil | 4 | 2 | 2 |
| Tam orta təhsil | 4 | 2 | 3 |
| İnternat və xüsusi məktəblər | 4 | 2 | 4 |
| **Peşə təhsili** | **4** | **3** | **0** |
| **Orta ixtisas təhsili** | **4** | **4** | **0** |
| **Ali təhsil** | **4** | **5** | **0** |
| **Əlavə təhsil** | **4** | **6** | **0** |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| **Təhsil sahəsində tətbiqi tədqiqatlar** | **4** | **8** | **0** |
| **Təhsil sahəsində digər müəssisə və tədbirlər** | **4** | **9** | **0** |
| Məktəbdənkənar təhsil müəssisələri | 4 | 9 | 1 |
| Ərazi maliyyə hesablaşma mərkəzləri və mərkəzləşdirilmiş mühasibatlıqlar | 4 | 9 | 2 |
| Təhsil sahəsinə aid edilən digər müəssisə və tədbirlər | 4 | 9 | 3 |
| **Səhiyyə** | **5** | **0** | **0** |
| **Poliklinika və ambulatoriya** | **5** | **1** | **0** |
| Ümumi təyinatlı tibbi xidmət | 5 | 1 | 1 |
| Xüsusiləşdirilmiş tibbi xidmət | 5 | 1 | 2 |
| Stomatoloji xidmət | 5 | 1 | 3 |
| Təcili və təxirəsalınmaz tibbi yardım | 5 | 1 | 4 |
| **Xəstəxana** | **5** | **2** | **0** |
| Ümumi təyinatlı xəstəxana | 5 | 2 | 1 |
| Xüsusiləşdirilmiş xəstəxana | 5 | 2 | 2 |
| Tibb mərkəzi | 5 | 2 | 3 |
| Bərpa-müalicə sanatoriyası | 5 | 2 | 4 |
| Sanitar-epidemioloji xidmətlər | 5 | 2 | 5 |
| **Diaqnostika, profilaktika və qan xidməti ilə bağlı fəaliyyət** | **5** | **3** | **0** |
| Diaqnostika və profilaktika tədbirləri | 5 | 3 | 1 |
| Qanköçürmə | 5 | 3 | 2 |
| **Səhiyyə sahəsində tətbiqi tədqiqatlar** | **5** | **8** | **0** |
| **Səhiyyə sahəsində digər xidmətlər** | **5** | **9** | **0** |
| **Sosial müdafiə və sosial təminat** | **6** | **0** | **0** |
| **Sosial müdafiə** | **6** | **1** | **0** |
| Xəstəliklər | 6 | 1 | 1 |
| Əmək qabiliyyətinin itirilməsi | 6 | 1 | 2 |
| Yaşa görə | 6 | 1 | 3 |
| Qəyyumluq | 6 | 1 | 4 |
| Ailə və uşaqların sosial müdafiəsi | 6 | 1 | 5 |
| **Sosial təminat** | **6** | **2** | **0** |
| İşsizlik | 6 | 2 | 1 |
| Ev təsərrüfatları | 6 | 2 | 2 |
| Uşaq evləri | 6 | 2 | 3 |
| Əlillərlə və sağlamlıq imkanları məhdud uşaqlarla bağlı sosial təminat tədbirləri | 6 | 2 | 4 |
| Əmək və əhalinin sosial müdafiəsi tədbirləri | 6 | 2 | 5 |
| **Sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar** | **6** | **3** | **0** |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| **Sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər** | **6** | **4** | **0** |
| **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət** | **7** | **0** | **0** |
| **Mədəniyyət və incəsənət sahəsində fəaliyyət** | **7** | **1** | **0** |
| Kitabxana | 7 | 1 | 1 |
| Muzey və sərgi | 7 | 1 | 2 |
| Mədəniyyət sarayları, mərkəzləri, evləri və klubları | 7 | 1 | 3 |
| Teatr və musiqi kollektivi | 7 | 1 | 4 |
| **Televiziya, radio və nəşriyyat** | **7** | **2** | **0** |
| Televiziya və radio | 7 | 2 | 1 |
| Nəşriyyat | 7 | 2 | 2 |
| **Bədən tərbiyəsi və gənclər siyasəti** | **7** | **3** | **0** |
| Bədən tərbiyəsi və idmanın təşkili | 7 | 3 | 1 |
| Gənclər siyasəti | 7 | 3 | 2 |
| **Yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər** | **7** | **4** | **0** |
| Yaradıcı ittifaq və cəmiyyət | 7 | 4 | 1 |
| Dini tədbirlər | 7 | 4 | 2 |
| **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahələrində elmi fəaliyyət (fundamental, tətbiqi və eksperimental) və bu sahələrə aid olan digər tədbirlər** | **7** | **8** | **0** |
| **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər müəssisə və tədbirlər** | **7** | **9** | **0** |
| **Mənzil və kommunal təsərrüfatı** | **8** | **0** | **0** |
| **Mənzil** | **8** | **1** | **0** |
| Mənzil təsərrüfatı | 8 | 1 | 1 |
| Lift təsərrüfatı | 8 | 1 | 2 |
| **Kommunal təsərrüfatı** | **8** | **2** | **0** |
| Kommunal xidmətləri | 8 | 2 | 1 |
| İstilik | 8 | 2 | 2 |
| İşıqlandırılma | 8 | 2 | 3 |
| Yaşıllaşdırma | 8 | 2 | 4 |
| **Su təsərrüfatı** | **8** | **3** | **0** |
| **Mənzil və kommunal təsərrüfatı sahələrində tətbiqi tədqiqatlar** | **8** | **8** | **0** |
| **Mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər** | **8** | **9** | **0** |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| **Kənd təsərrüfatı** | **9** | **0** | **0** |
| **Kənd təsərrüfatı tədbirləri** | **9** | **1** | **0** |
| **Baytarlıq** | **9** | **2** | **0** |
| **Meliorasiya** | **9** | **3** | **0** |
| **Kənd təsərrüfatı üzrə təcrübə və tətbiqi tədqiqatlar** | **9** | **8** | **0** |
| **Kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər** | **9** | **9** | **0** |
| **Ətraf mühitin mühafizəsi** | **10** | **0** | **0** |
| **Ətraf mühitin və təbiətin mühafizəsi** | **10** | **1** | **0** |
| **Bioloji zənginliyin qorunması** | **10** | **2** | **0** |
| **Torpaq və yerquruluşu** | **10** | **3** | **0** |
| **Hidrometeorologiya tədbirləri** | **10** | **4** | **0** |
| **Meşə təsərrüfatı** | **10** | **5** | **0** |
| **Balıqçılıq və ovçuluq** | **10** | **6** | **0** |
| Balıqartırma və balıq mühafizəsi | **10** | 6 | 1 |
| Ovçuluq və heyvanların qorunması | **10** | 6 | 2 |
| **Ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi** | **10** | **7** | **0** |
| Ərazilərin təmizlənməsi | **10** | 7 | 1 |
| Çirkab suların yığılması və təmizlənməsi | **10** | 7 | 2 |
| **Ətraf mühitin mühafizəsi üzrə tətbiqi tədqiqatlar** | **10** | **8** | **0** |
| **Ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər** | **10** | **9** | **0** |
| **İqtisadi fəaliyyət** | **11** | **0** | **0** |
| **Nəqliyyat və rabitə** | **11** | **1** | **0** |
| Avtomobil yolları və avtomobil nəqliyyatı | 11 | 1 | 1 |
| Su nəqliyyatı | 11 | 1 | 2 |
| Dəmir yolu nəqliyyatı | 11 | 1 | 3 |
| Hava nəqliyyatı | 11 | 1 | 4 |
| Boru kəməri və digər nəqliyyat növləri | 11 | 1 | 5 |
| Rabitə, informasiya və yüksək texnologiyalar | 11 | 1 | 6 |
| **İqtisadi və kommersiya fəaliyyəti** | **11** | **2** | **0** |
| İqtisadi fəaliyyət | 11 | 2 | 1 |
| Ticarət sahəsində fəaliyyət | 11 | 2 | 2 |
| İaşə sahəsində fəaliyyət | 11 | 2 | 3 |
| Turizm | 11 | 2 | 4 |
| **Sənaye** | **11** | **3** | **0** |
| **Tikinti və şəhərsalma** | **11** | **4** | **0** |
| Tikinti | 11 | 4 | 1 |
| Şəhərsalma və xəritəçəkmə | 11 | 4 | 2 |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| Dövlət əsaslı vəsait qoyuluşu | 11 | 4 | 3 |
| **Geodeziya və faydalı qazıntılar** | **11** | **5** | **0** |
| Geodeziya | 11 | **5** | **1** |
| Faydalı qazıntılar | 11 | **5** | **2** |
| **Yanacaq və enerji kompleksi** | **11** | **6** | **0** |
| Neft və təbii qaz | 11 | 6 | 1 |
| Digər yanacaq növləri | 11 | 6 | 2 |
| Elektrik enerjisi | 11 | 6 | 3 |
| Digər enerji mənbələri | 11 | 6 | 4 |
| **İqtisadi fəaliyyət sahələri üzrə tətbiqi tədqiqatlar** | **11** | **8** | **0** |
| **İqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər** | **11** | **9** | **0** |
| **Dövlət əmlakının özəlləşdirməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması** | **11** | 9 | 1 |
| Sahibkarlığın inkişafı ilə bağlı tədbirlər | 11 | 9 | 2 |
| Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələri | 11 | 9 | 3 |
| Beynəlxalq kredit reytinqinin müəyyən olunması | 11 | 9 | 4 |
| Digər iqtisadi xidmətlər | 11 | 9 | 9 |
| **Əsas bölmələrə aid edilməyən xidmətlər** | **12** | **0** | **0** |
| **Ehtiyat fondları** | **12** | **1** | **0** |
| **Məqsədli büdcə fondları** | **12** | **2** | **0** |
| **Valyuta konvertasiyası** | **12** | **3** | **0** |
| **Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət** | **12** | **9** | **0** |

**Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına əlavə**

Büdcə xərclərinin funksional təsnifatı büdcə sisteminə daxil olan büdcələrin funksiyalar üzrə xərclərinin qruplaşmasından ibarətdir. Funksional təsnifat bölmə, köməkçi bölmə və paraqraf səviyyəsində nəzərdə tutulmaqla, birinci rəqəmi bölməni, ikinci rəqəmi köməkçi bölməni, üçüncü rəqəmi isə paraqrafı göstərir.

## Funksional təsnifatın bölmə, köməkçi bölmə və paraqrafları

**1.0.0. "Ümumi dövlət xidmətləri"** bölməsi "1.1.0. Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti", "1.2.0. Beynəlxalq münasibətlər", "1.3.0. Xarici kredit və yardımlar", "1.4.0. Elm", "1.5.0. Seçkilərin keçirilməsi və statistika tədbirləri", "1.6.0. Büdcələrarası transfertlər" və "1.7.0. Dövlət borcu" köməkçi bölmələrindən ibarətdir.

**1.1.0.** "**Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti"** köməkçi bölməsi "1.1.1. Qanunvericilik orqanlarının fəaliyyəti", "1.1.2. Ali və yuxarı icra hakimiyyəti orqanlarının fəaliyyəti", "1.1.3. Mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyəti", "1.1.4 Yerli icra hakimiyyəti orqanlarının fəaliyyəti", "1.1.5 Yerli özünüidarəetmə (bələdiyyə) orqanlarının fəaliyyəti" və "1.1.9 Digər mərkəzi təşkilatların fəaliyyəti" paraqraflarından ibarətdir.

**1.1.1. "Qanunvericilik orqanlarının fəaliyyəti"** paraqrafına Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin saxlanılması xərcləri daxildir.

**1.1.2.** "**Ali və yuxarı icra hakimiyyəti orqanlarının fəaliyyəti"** paraqrafına ali (Azərbaycan Respublikası Prezidentinin Administrasiyası) və yuxarı (Azərbaycan Respublikası Nazirlər Kabineti) icra hakimiyyəti orqanlarının və onların strukturuna daxil olan tabeli qurumların saxlanılması xərcləri daxildir.

**1.1.3. "Mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyəti"** paraqrafına mərkəzi icra hakimiyyəti orqanlarının, onların yanında yaradılan dövlət xidmətlərinin və dövlət agentliklərinin saxlanılması və həmin orqanlar tərəfindən göstərilən xidmətlər üzrə xərclər daxildir. Həmçinin, mərkəzi icra hakimiyyəti orqanları tərəfindən öz sahələrindəki vəziyyət haqqında məlumatların yığılması, onların yoxlanılması, idarə olunması və ya onlara yardım edilməsi ilə bağlı xərclər daxildir.

**1.1.4. "Yerli icra hakimiyyəti orqanlarının fəaliyyəti"** paraqrafına yerli icra hakimiyyəti orqanlarının və onların müstəqil idarə və şöbələrinin, icra hakimiyyəti başçısının yanında yaradılan orqanlarının saxlanılması xərcləri daxildir.

**1.1.5. "Yerli özünüidarəetmə (bələdiyyə) orqanlarının fəaliyyəti"** paraqrafına yerli özünüidarəetmə (bələdiyyə) orqanlarının və onların müstəqil idarə və şöbələrinin saxlanılması xərcləri daxildir.

**1.1.9.** "**Digər mərkəzi təşkilatların fəaliyyəti"** paraqrafına digər mərkəzi təşkilatların saxlanılması və həmin təşkilatlar tərəfindən göstərilən xidmətlər üzrə xərclər daxildir. Həmçinin, digər təşkilatlar tərəfindən öz sahələrindəki vəziyyət haqqında məlumatların yığılması, onların yoxlanılması, idarə edilməsi və ya onlara yardım edilməsi

ilə bağlı xərclər daxildir. Bu təşkilatlara İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman), Hesablama Palatası, Mərkəzi Seçki Komissiyası, Məhkəmə-Hüquq Şurası, Milli Televiziya və Radio Şurası və bu qəbildən olan digər mərkəzi təşkilatlar aiddir.

**1.2.0. "Beynəlxalq münasibətlər"** köməkçi bölməsinə beynəlxalq maliyyə-kredit təşkilatlarının səhm kapitalında iştirak, beynəlxalq ictimai-siyasi təşkilatlara üzvlük haqqı və Azərbaycan Respublikasının qoşulduğu müqavilə, konvensiya və sazişlər üzrə maliyyə öhdəlikləri, xarici münasibət və siyasət sahələrində fəaliyyətin təşkili və onun operativ idarə olunmasını həyata keçirən xaricdəki diplomatik nümayəndəliklərin saxlanılması, xaricdə yerləşən və fəaliyyət göstərən informasiya və mədəniyyət nümayəndəliklərinin, kitabxanaların saxlanılması xərcləri, Azərbaycan Respublikasının investisiya cəlbediciliyinin artırılması məqsədi ilə kredit reytinqinin müəyyən olunması və digər beynəlxalq fəaliyyətlə bağlı xərclər daxildir. Bu köməkçi bölmə "1.2.1. Beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq", "1.2.2. Beynəlxalq və regional maliyyə institutları ilə əməkdaşlıq", "1.2.3. Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları", "1.2.4. Azərbaycan Respublikasının xaricdəki mədəniyyət mərkəzləri" və "1.2.9. Digər beynəlxalq fəaliyyət" paraqraflarından ibarətdir.

**1.2.1. "Beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq"** paraqrafına Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq və regional təşkilatlara, o cümlədən beynəlxalq konvensiyalara götürülmüş öhdəliklər üzrə müntəzəm olaraq ödənilən üzvlük haqqı və ianə xərcləri daxildir.

**1.2.2. "Beynəlxalq və regional maliyyə institutları ilə əməkdaşlıq"** paraqrafına Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq və regional maliyyə institutlarının səhm kapitalında iştirak üzrə xərclər daxildir.

**1.2.3. "Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları"** paraqrafına Azərbaycan Respublikasının xarici münasibət və siyasət sahələrində fəaliyyətin təşkili və onun operativ idarə olunmasını həyata keçirən xaricdəki diplomatik nümayəndəliklərin saxlanılması ilə bağlı xərclər daxildir.

**1.2.4. "Azərbaycan Respublikasının xaricdəki mədəniyyət mərkəzləri"** paraqrafına Azərbaycan Respublikasının xaricdə yerləşən və fəaliyyət göstərən informasiya və mədəniyyət nümayəndəliklərinin və kitabxanaların işinin təşkili və saxlanılması ilə bağlı xərclər daxildir.

**1.2.9. "Digər beynəlxalq fəaliyyət"** paraqrafına dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən ölkə daxilində və xaricdə beynəlxalq səviyyəli tədbirlərin (forum, konfrans, seminar, simpozium, sərgi, yarmarka və s.) təşkili, xaricdə Azərbaycan Respublikasının tanıdılması fəaliyyəti ilə bağlı xərclər və bu təsnifatın 1.2.1-1.2.4-cü paraqraflara aid edilməyən və mahiyyət etibarilə beynəlxalq əməkdaşlıq hesab edilən digər beynəlxalq fəaliyyətlə bağlı xərclər daxildir.

**1.3.0. "Xarici ölkələrə yardımlar"** köməkçi bölməsinə xarici ölkələrlə, beynəlxalq təşkilatlarla iqtisadi və texniki yardımla bağlı xərclər daxildir. Bu köməkçi bölmə "1.3.1. Xarici ölkələrə yardımlar", "1.3.2. Xarici ölkələrə kreditlər" və "1.3.3. Beynəlxalq təşkilatlara yardımlar" paraqraflarından ibarətdir.

**1.3.1. "Xarici ölkələrə yardımlar"** paraqrafına xarici ölkələr üçün texniki yardım proqramlarının həyata keçirilməsi ilə bağlı xərclər, həmçinin xarici ölkələrə götürülmüş öhdəliklər üzrə və ya könüllü qaydada əvəzsiz verilən maliyyə və natura formasında olan yardımlar daxildir.

**1.3.2. “Xarici ölkələrə kreditlər”** paraqrafına xarici ölkələrə verilmiş kreditlərlə bağlı xərclər daxildir.

**1.3.3. “Beynəlxalq təşkilatlara yardımlar”** paraqrafına beynəlxalq təşkilatlar vasitəsilə həyata keçirilən yardımlar, o cümlədən beynəlxalq, regional və digər çoxtərəfli təşkilatlara və bu təşkilatlar tərəfindən yaradılmış inkişaf fondlarına, həmçinin beynəlxalq konvensiyaların fəaliyyətinə götürülmüş öhdəliklər üzrə və ya könüllü şəkildə əvəzsiz verilən birdəfəlik maliyyə və natura formasında olan yardımlar daxildir.

**1.4.0. “Elm”** köməkçi bölməsinə fundamental elmi tədqiqatlarla və ümumi dövlət xidmətləri ilə məşğul olan təşkilat və dövlət orqanlarında elmi tədqiqat müəssisələri və təşkilatları tərəfindən həyata keçirilən işlərin maliyyələşdirilməsi və həmin müəssisələrin saxlanılması xərcləri daxildir. Bu köməkçi bölmə “1.4.1. Fundamental elm” və “1.4.8. Ümumi dövlət xidmətləri üzrə tətbiqi tədqiqatlar” paraqraflarından ibarətdir.

**1.4.1.** “**Fundamental elm”** paraqrafına fundamental elmi tədqiqatlarla məşğul olan elmi müəssisə və təşkilatlara rəhbərlik, onların idarə olunması və saxlanılması, qeyri-dövlət elmi müəssisə və təşkilatlar tərəfindən həyata keçirilən fundamental tədqiqatlara yardımla bağlı xərclər daxildir.

**1.4.8.** “**Ümumi dövlət xidmətləri üzrə tətbiqi tədqiqatlar”** paraqrafına konkret fundamental elm funksiyasına aid edilməyən elmi müəssisə və təşkilatların saxlanılması, idarə edilməsi, konkret praktiki məqsədlərə nail olmaq üçün yeni biliklərin əldə edilməsi ilə bağlı xərclər, elmi tədqiqatlar və praktiki təcrübə nəticəsində əldə olunmuş biliklərin istifadəsi ilə bağlı yeni materialların alınması, qurğuların yaradılması, yeni proseslərin, sistemlərin və xidmətlərin tətbiqi və təkmilləşdirilməsi ilə bağlı xərclər, qeyri-dövlət elmi tədqiqat müəssisə və təşkilatları tərəfindən həyata keçirilən ümumi təyinatlı dövlət xidmətləri ilə əlaqədar tətbiqi və təcrübi tədqiqatlara yardımların verilməsi, arxiv idarələrinin saxlanılması xərcləri daxildir.

**1.5.0. “Seçkilərin keçirilməsi və statistika tədbirləri”** köməkçi bölməsinə ölkədə seçkilərin və referendumların keçirilməsi, dairə seçki komissiyalarının saxlanılması, seçici siyahılarının tərtibi və dəqiqləşdirilməsi, statistika tədbirlərinin keçirilməsi xərcləri daxildir. Bu köməkçi bölmə “1.5.1. Azərbaycan Respublikası Prezidentinin seçkilərinin keçirilməsi”, “1.5.2. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsi”, “1.5.3. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərin keçirilməsi”, “1.5.4. Azərbaycan Respublikasının bələdiyyə orqanlarına seçkilərin keçirilməsi”, “1.5.5. Ümumxalq səsverməsinin (referendumunun) keçirilməsi”, “1.5.6. Digər seçki tədbirləri” və “1.5.7. Statistika tədbirləri” paraqraflarından ibarətdir.

**1.5.1. “Azərbaycan Respublikası Prezidentinin seçkilərinin keçirilməsi”** paraqrafına ölkədə Azərbaycan Respublikası Prezidentinin seçkilərinin təşkili və keçirilməsi ilə bağlı xərclər daxildir.

**1.5.2. “Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsi”** paraqrafına ölkədə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin təşkili və keçirilməsi ilə bağlı xərclər daxildir.

**1.5.3. “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərin keçirilməsi”** paraqrafına Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərinin təşkili və keçirilməsi ilə bağlı xərclər daxildir.

**1.5.4. “Azərbaycan Respublikasının bələdiyyə orqanlarına seçkilərin keçirilməsi”** paraqrafına ölkədə Azərbaycan Respublikasının bələdiyyə orqanlarına seçkilərin təşkili və keçirilməsi ilə bağlı xərclər daxildir.

**1.5.5. "Ümumxalq səsverməsinin (referendumunun) keçirilməsi"** paraqrafına ölkədə ümumxalq səsverməsinin (referendumunun) təşkili və keçirilməsi ilə bağlı xərclər daxildir.

**1.5.6. "Digər seçki tədbirləri"** paraqrafına seçici siyahılarının dəqiqləşdirilməsi işinin aparılması və dairə seçki komissiyalarının fəaliyyətinin təşkili və saxlanılması ilə bağlı xərclər daxildir.

**1.5.7. "Statistika tədbirləri"** paraqrafına Milli hesablar sisteminin təkmilləşdirilməsi, iqtisadi-statistik təsnifat sisteminin inkişaf etdirilməsi, müşahidələrin və statistik göstəricilərin metodologiyalarının və vahid informasiya sisteminin inkişafı, Azərbaycan Respublikasında siyahıyaalınma tədbirlərinin hazırlanması və keçirilməsi ilə bağlı xərclər daxildir.

**1.6.0 "Büdcələrarası transfertlər"** köməkçi bölməsinə büdcələr arasında (Naxçıvan Muxtar Respublikasının büdcəsi, yerli (bələdiyyə) büdcələri, büdcələrarası) ümumi xarakter daşıyan və konkret funksiyaya aid edilməyən transfertlərlə bağlı xərclər daxildir. Bu köməkçi bölmə "1.6.1. Naxçıvan Muxtar Respublikasının büdcəsi", "1.6.2. Yerli (bələdiyyə) büdcələr" və "1.6.3. Büdcələrarası digər transfertlər" paraqraflarından ibarətdir.

**1.6.1. "Naxçıvan Muxtar Respublikasının büdcəsi"** paraqrafına Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlir və xərclərini tənzimləmək üçün dövlət büdcəsindən ayrılan vəsait daxildir.

**1.6.2. "Yerli (bələdiyyə) büdcələr"** paraqrafına yerli (bələdiyyə) büdcələrə dövlət büdcəsindən ayrılan maliyyə yardımı ilə bağlı xərclər daxildir.

**1.6.3. "Büdcələrarası digər transfertlər"** paraqrafına dövlət büdcəsinin yerli xərclərinin gəlir və xərclərini tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərindən ayrılan vəsait, həmçinin ümumi xarakter daşıyan və konkret funksiyaya aid edilməyən transfertlərlə bağlı xərclər daxildir.

**1.7.0. "Dövlət borcu"** köməkçi bölməsinə xarici ölkələrdən və beynəlxalq maliyyə-kredit təşkilatlarından alınmış borcların, həmçinin dövlət istiqrazlarının yerləşdirilməsi və digər daxili borclarla bağlı xərclər daxildir. Bu köməkçi bölmə "1.7.1. Daxili borc" və "1.7.2. Xarici borc" paraqraflarından ibarətdir.

**1.7.1. "Daxili borc"** paraqrafına dövlət istiqrazlarının yerləşdirilməsi və daxili borclarla bağlı xərclər daxildir.

**1.7.2. "Xarici borc"** paraqrafına xarici ölkələrdən və beynəlxalq maliyyə-kredit təşkilatlarından xarici valyutada alınmış borclarla bağlı xərclər daxildir.

**2.0.0. "Müdafiə və milli təhlükəsizlik"** bölməsi "2.1.0. Müdafiə qüvvələri", "2.2.0. Milli təhlükəsizlik", "2.3.0. Sərhəd xidməti", "2.8.0. Müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar" və "2.9.0. Müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyət" köməkçi bölmələrindən ibarətdir.

**2.1.0.** "**Müdafiə qüvvələri"** köməkçi bölməsinə silahlı qüvvələr, müdafiə sahəsində məsələlərə və xidmətlərə rəhbərlik, quru, dəniz, hava hücumlarından müdafiə qüvvələrinin idarə edilməsi, mühəndis və nəqliyyat qoşunlarının, rabitə qoşunlarının, hərbi kadr xidmətinin və digər qeyri-nizami xidmətlərin, ehtiyatda olanların və müdafiə məqsədli köməkçi qüvvələrin idarə edilməsi və ya onlara kömək göstərilməsi, xaricdə olan hərbi attaşelərin və səhra hospitallarının saxlanılması ilə bağlı xərclər, həmçinin xarici dövlətlərə hərbi yardımların göstərilməsi ilə bağlı xidmətlər daxildir. Bu köməkçi bölmə "2.1.1. Ordu

və donanma", "2.1.2. Xarici dövlətlərə hərbi yardım", "2.1.3. Mülki müdafiə" və "2.1.9. Müdafiə sahəsində tədbirlər" paraqraflarından ibarətdir.

**2.1.1.** "**Ordu və donanma"** paraqrafına silahlı qüvvələr, müdafiə sahəsində məsələlər və xidmətlərə rəhbərlik, quru, dəniz, hava hücumlarından müdafiə qüvvələrinin idarə edilməsi, mühəndis və nəqliyyat qoşunlarının, rabitə qoşunlarının, hərbi kadr xidmətinin və digər qeyri-nizami xidmətlərin, ehtiyatda olanların və müdafiə məqsədli köməkçi qüvvələrin idarə edilməsi və ya onlara kömək göstərilməsi ilə bağlı xərclər daxildir.

**2.1.2.** "**Xarici dövlətlərə hərbi yardım"** paraqrafına hərbi yardım məsələlərinə rəhbərlik və xarici dövlətlərin hökumətləri yanında akkreditə olunmuş və ya beynəlxalq hərbi təşkilatlara və ya ittifaqlara verilmiş, hərbi yardım göstərilməsi üzrə xidmətlərin idarə edilməsi, kreditlər (onlara görə tutulan faizlərdən asılı olmayaraq) şəklində hərbi yardım və ya qaytarılmaq şərti ilə avadanlıqların borc verilməsi, hərbi kontingentlərin verilməsi də daxil olmaqla, sülhün qorunması üzrə beynəlxalq qüvvələrin saxlanmasında iştirakla bağlı xərclər daxildir.

**2.1.3.** "**Mülki müdafiə"** paraqrafına mülki müdafiə məsələləri və bununla bağlı xidmətlərə rəhbərlik, müxtəlif şəraitdə hərəkət planlarının işlənilib hazırlanması, mülki idarələrin və əhalinin cəlb edilməsi ilə təlimlərin keçirilməsi, mülki müdafiə qüvvələrinin idarə edilməsi və ya onlara kömək göstərilməsi ilə bağlı xərclər daxildir.

**2.1.9.** "**Müdafiə sahəsində tədbirlər"** paraqrafına müdafiə sahəsində ümumi siyasətin və proqramların hazırlanması, onlara rəhbərliyin edilməsi, əlaqələndirilməsi və onların həyata keçirilməsinə nəzarət, müdafiə məsələləri üzrə ümumi xarakterli məlumatların hazırlanması, yığılması, yayılması ilə bağlı xidmətlər üzrə xərclər daxildir.

**2.2.0. "Milli təhlükəsizlik"** köməkçi bölməsinə milli təhlükəsizlik qüvvələrinə rəhbərlik və onun idarə olunması, kadr siyasəti və saxlanılması ilə bağlı xərclər daxildir.

**2.3.0 "Sərhəd xidməti"** köməkçi bölməsinə sərhəd xidmətinə rəhbərlik və onun idarə olunması, kadr siyasəti və saxlanılması ilə bağlı xərclər daxildir.

**2.8.0. "Müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar"** köməkçi bölməsinə müdafiə, milli təhlükəsizlik, sərhəd xidməti və mülki müdafiə ilə əlaqədar tətbiqi tədqiqatları və təcrübi işləri həyata keçirən təşkilatlara rəhbərlik və onların idarə edilməsi, müdafiə, milli təhlükəsizlik, sərhəd xidməti və mülki müdafiə ilə əlaqədar tətbiqi tədqiqatların və təcrübi işlərin həyata keçirilməsi ilə bağlı xərclər daxildir.

**2.9.0. "Müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyət"** köməkçi bölməsinə 2.1.0-2.3.0-cı köməkçi bölmələrində nəzərdə tutulmayan və mahiyyət etibarilə müdafiə və milli təhlükəsizlik sahəsi hesab edilən digər müəssisə və tədbirlərin xərcləri daxildir. Habelə, bu köməkçi bölməyə Azərbaycan Respublikası ərazilərinin partlamamış minalardan və hərbi sursatlardan təmizlənməsi ilə bağlı xərclər daxildir.

**3.0.0. "Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq"** bölməsi "3.1.0. Məhkəmə hakimiyyəti", "3.2.0. Hüquq-mühafizə", "3.3.0. Prokurorluq", "3.4.0. Məhkəmə qərarlarının icrası", "3.5.0. Hüquqi yardım", "3.8.0. Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq sahəsində tətbiqi tədqiqatlar" və "3.9.0. Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyət" köməkçi bölmələrindən ibarətdir.

**3.1.0. "Məhkəmə hakimiyyəti"** köməkçi bölməsinə məhkəmə orqanlarının saxlanılması, kömək göstərilməsi, vaxtından əvvəl şərti olaraq azadlığa buraxılma və şərti mühakimə sistemlərinin idarə edilməsi, mülki və cinayət məhkəmələrinə və məhkəmə

sisteminə rəhbərlik və idarə edilməsi, tribunalın saxlanılması və məhkəmə hakimiyyəti orqanlarında sair tədbirlər üzrə xərclər daxildir.

**3.2.0.** “**Hüquq-mühafizə”** köməkçi bölməsinə hüquq-mühafizə orqanlarının saxlanılması, xarici vətəndaşların qeydiyyatı, mühacirlərə işçi və yol sənədlərinin verilməsi, məhbuslarla əlaqədar sənədləşdirmə və statistik məlumatların aparılması və yığılması, yol hərəkətinin təşkili, idarə edilməsi, nizamlanması və ona nəzarət, qaçaqmalçılıq fəaliyyətinin qarşısının alınması, dənizdə və çaylarda balıq ovuna nəzarət də daxil edilməklə, aidiyyəti orqanların fəaliyyətinin təşkili, nizami və köməkçi polis qüvvələrinin və digər xüsusi polis qüvvələrinin idarə edilməsi, mühafizə ilə bağlı tədbirlər, kriminalistika laboratoriyalarının, aidiyyəti orqanlar üçün kadr hazırlığı proqramlarının idarə edilməsi və onlara yardımların göstərilməsi, yanğınla mübarizə və onun qarşısının alınması üzrə fəaliyyət və bu xidmətə rəhbərlik, nizami və köməkçi yanğınsöndürmə bölmələrinin (dəstələrinin), yanğınla mübarizə və yanğının qarşısının alınması üzrə digər xidmətlərin idarə edilməsi, dağlarda xilasetmə xidməti, çimərliklərə nəzarət xidməti, fəlakət baş vermiş ərazilərdən əhalinin köçürülməsi və bu kimi mülki əhalinin qorunması xidmətləri, mülki müdafiə məsələləri və bununla bağlı xidmətlərə rəhbərlik, müxtəlif şəraitdə hərəkət planlarının işlənilib hazırlanması ilə bağlı xərclər daxildir.

**3.3.0. “Prokurorluq”** köməkçi bölməsinə prokurorluq sisteminin işinin təşkili, idarə edilməsi, saxlanılması tədbirləri üzrə xərclər daxildir.

**3.4.0. “Məhkəmə qərarlarının icrası”** köməkçi bölməsinə məhkəmə hakimiyyəti orqanları tərəfindən verilmiş qərarları ilə cərimələrin ödənilməsi, dövlət orqanlarının və ya onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri (hərəkətsizliyi), həmçinin qanuna və ya digər hüquqi akta uyğun gəlməyən aktın qəbul edilməsi, özəlləşdirmənin ləğvi, mülkiyyət hüquqlarının pozulması, habelə dövlət ehtiyacları üçün daşınmaz əmlakın geri alınması nəticəsində fiziki və hüquqi şəxslərə dəymiş zərərin əvəzinin dövlət büdcəsindən ödənilməsini nəzərdə tutan məhkəmə qərarlarının icrasının təmin edilməsi ilə bağlı xərclər və bu qəbildən olan digər xərclər daxildir.

**3.5.0. “Hüquqi yardım”** köməkçi bölməsinə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada inzibati və cinayət işləri üzrə şübhəli və ya təqsirləndirilən şəxslərə və məhkəmədə vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərə, cinayət prosesində iştirak edən digər şəxslərə, habelə icraatında inzibati xəta haqqında iş olan hakimin yanına, səlahiyyətli orqana (vəzifəli şəxsin yanına) gəlməklə əlaqədar olaraq zərərçəkənlərin, şahidlərin, ekspertlərin, mütəxəssislərin, tərcüməçilərin və hal şahidlərinin çəkdikləri xərclərin ödənilməsi ilə bağlı və bu qəbildən olan digər xərclər daxildir.

**3.8.0. “Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq sahələrində tətbiqi tədqiqatlar”** köməkçi bölməsinə məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq sahələrində tətbiqi tədqiqatlar və təcrübi işləri həyata keçirən müəssisələrə rəhbərlik və onların idarə edilməsi, tətbiqi tədqiqatların və təcrübi işlərin həyata keçirilməsi ilə bağlı xərclər daxildir.

**3.9.0. “Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyət”** köməkçi bölməsinə 3.1.0-3.5.0-cı köməkçi bölmələrində nəzərdə tutulmayan və mahiyyət etibarilə məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq sahələri hesab edilən digər müəssisə və tədbirlərin xərcləri daxildir.

**4.0.0. “Təhsil”** bölməsinə dövlət tərəfindən təhsilə, fərdi və kollektiv əsaslarla təhsil alanlara göstərilən xidmətlərə çəkilən xərcləri özündə birləşdirir. Təhsil sahəsində dövlət

siyasətinin müəyyənləşdirilməsi və müvafiq proqramların işlənilib hazırlanması, təhsil müəssisələrinin fəaliyyətlərinin tənzimlənməsi, təhsil sahəsində fəaliyyətlə və göstərilən xidmətlərlə əlaqədar təcrübə tədqiqatlarla bağlı görülən işlər bu bölmənin xərclərinə daxildir. Bu bölmə "4.1.0. Məktəbəqədər təhsil", "4.2.0. Ümumi təhsil", "4.3.0. Peşə təhsili", "4.4.0. Orta ixtisas təhsili", "4.5.0. Ali təhsil", "4.6.0. Əlavə təhsil", "4.8.0. Təhsil sahəsində tətbiqi tədqiqatlar" və "4.9.0. Təhsil sahəsində digər müəssisə və tədbirlər" köməkçi bölmələrindən ibarətdir.

**4.1.0. "Məktəbəqədər təhsil"** məktəbəqədər təhsilin dövlət standartlarına uyğun olaraq məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsini, əqli, fiziki, mənəvi inkişafını və ümumi təhsilə hazırlığını həyata keçirən təhsil müəssisələrinin saxlanılması ilə bağlı xərclər daxildir.

**4.2.0. "Ümumi təhsil"** köməkçi bölməsinə ümumi təhsil müəssisələrinin (ibtidai, ümumi orta və tam orta ümumtəhsil məktəbləri, ümumtəhsil internat məktəbləri, xüsusi məktəblər, istedadlı şagirdlər üçün məktəblər, gimnaziyalar, liseylər və bu qəbildən olan digər müəssisələr) saxlanılması və onlara kömək göstərilməsi ilə bağlı xərclər daxildir. Bu köməkçi bölmə "4.2.1. İbtidai təhsil", "4.2.2. Ümumi orta təhsil", "4.2.3. Tam orta təhsil" və "4.2.4. İnternat və xüsusi məktəblər" paraqraflarından ibarətdir.

**4.2.1. "İbtidai təhsil"** paraqrafına ibtidai təhsil müəssisələrinin saxlanılması ilə bağlı xərclər daxildir.

**4.2.2. "Ümumi orta təhsil"** paraqrafına ümumi orta təhsil müəssisələrinin saxlanılması ilə bağlı xərclər daxildir.

**4.2.3. "Tam orta təhsil"** paraqrafına tam orta təhsil müəssisələrinin saxlanılması ilə bağlı xərclər daxildir.

**4.2.4. "İnternat və xüsusi məktəblər"** paraqrafına bütün tiplərdən olan internat məktəblərinin, ailə tipli kiçik qrup evlərinin, uşaq və ailəyə dəstək mərkəzlərinin, xüsusi istedadlı və xüsusi tərbiyə edilmə şəraitinə ehtiyacı olan uşaqlar üçün nəzərdə tutulmuş xüsusi məktəblərin və bu qəbildən olan digər təhsil müəssisələrinin saxlanılması ilə bağlı xərclər daxildir.

**4.3.0. "Peşə təhsili"** köməkçi bölməsinə əmək bazarının tələbatına uyğun olaraq, ümumi orta təhsil və tam orta təhsil bazasında müxtəlif peşələr üzrə ixtisaslı işçi kadrların hazırlanmasını təmin edən təhsil müəssisələrinin saxlanılması və onlara yardım göstərilməsi ilə bağlı xərclər daxildir.

**4.4.0. "Orta ixtisas təhsili"** köməkçi bölməsinə ümumi orta təhsil və tam orta təhsil bazasında ayrı-ayrı fəaliyyət sahələri üçün müxtəlif ixtisaslar üzrə orta ixtisas təhsilli mütəxəssis hazırlığını təmin edən təhsil müəssisələrinin saxlanılması və onlara yardım göstərilməsi ilə bağlı xərclər daxildir.

**4.5.0. "Ali təhsil"** köməkçi bölməsinə yüksəkixtisaslı mütəxəssislərin elmi və elmi-pedaqoji kadrların hazırlığını həyata keçirən ali təhsil müəssisələrinin (universitetlər, akademiyalar, institutlar və bu qəbildən olan digər ali təhsil müəssisələri) saxlanılması və onlara yardım göstərilməsi ilə bağlı xərclər daxildir.

**4.6.0. "Əlavə təhsil"** köməkçi bölməsinə ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi, təkrar ali təhsil və orta ixtisas təhsili, dərəcələrin yüksəldilməsi, yaşlıların təhsili istiqamətlərini əhatə edən hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edən, onların daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılmasını təmin edən müəssisələrin saxlanılması və onlara yardım göstərilməsi ilə bağlı xərclər daxildir.

**4.8.0. “Təhsil sahəsində tətbiqi tədqiqatlar”** köməkçi bölməsinə təhsil sahəsinə aid edilən elmi fəaliyyət (fundamental, tətbiqi və eksperimental) üzrə işləri həyata keçirən təşkilatların idarə edilməsi, təhsil sahəsində həyata keçirilən təcrübi və tətbiqi tədqiqat işlərə kömək göstərilməsi ilə bağlı xərclər daxildir.

**4.9.0. “Təhsil sahəsində digər müəssisə və tədbirlər”** köməkçi bölməsinə təhsil sahəsində digər xidmətlər, əsasən aldıqları təhsildən asılı olmayaraq təhsil alanlara göstərilən nəqliyyat, qidalanma, yaşayış, tibbi, stomatoloji və digər köməkçi xidmətlərlə bağlı xərclər, məktəbdənkənar təhsil müəssisələrinin (yaradıcılıq və inkişaf mərkəzləri, ekologiya və turizm mərkəzləri, uşaq-gənclər idman-şahmat məktəbləri, uşaq-gənclər idman məktəbləri, uşaq-gənclər şahmat məktəbləri və s.) saxlanılması və onlara maliyyə yardımının göstərilməsi və 4.1.0-4.6.0-cı köməkçi bölmələrində öz əksini tapmayan digər xərclər daxildir. Bu köməkçi bölmə “4.9.1. Məktəbdənkənar təhsil müəssisələri”, “4.9.2. Ərazi maliyyə hesablaşma mərkəzləri və mərkəzləşdirilmiş mühasibatlıqlar” və “4.9.3. Təhsil sahəsinə aid edilən digər müəssisə və tədbirlər” paraqraflarından ibarətdir.

**4.9.1. “Məktəbdənkənar təhsil müəssisələri”** paraqrafına yaradıcılıq və inkişaf mərkəzlərinin, ekologiya və turizm mərkəzlərinin, uşaq-gənclər idman-şahmat məktəblərinin, uşaq-gənclər idman məktəblərinin, uşaq-gənclər şahmat məktəblərinin və s. saxlanılması ilə bağlı xərclər daxildir.

**4.9.2. “Ərazi maliyyə hesablaşma mərkəzləri və mərkəzləşdirilmiş mühasibatlıqlar”** paraqrafına müvafiq ərazi maliyyə hesablaşma mərkəzlərinin və mərkəzləşdirilmiş mühasibatlıqların saxlanılması ilə bağlı xərclər daxildir.

**4.9.3. “Təhsil sahəsinə aid edilən digər müəssisə və tədbirlər”** paraqrafına 4.1.0-4.6.0-cı köməkçi bölmələrində nəzərdə tutulmayan və təhsil fəaliyyətini həyata keçirən digər müəssisələrin (uşaq musiqi, incəsənət və rəssamlıq məktəbləri və s.) və tədbirlərin xərcləri daxildir.

**5.0.0. “Səhiyyə”** bölməsinə səhiyyə sahəsində fəaliyyətlə bağlı xərclər daxildir. Bu bölmə “5.1.0. Poliklinika və ambulatoriya”, “5.2.0. Xəstəxana”, “5.3.0. Diaqnostika, profilaktika və qan xidməti ilə bağlı fəaliyyət”, “5.8.0. Səhiyyə sahəsində tətbiqi tədqiqatlar” və “5.9.0. Səhiyyə sahəsində digər xidmətlər” köməkçi bölmələrindən ibarətdir.

**5.1.0.** “**Poliklinika və ambulatoriya”** köməkçi bölməsinə ilkin səhiyyə xidməti göstərən müəssisələrin fəaliyyəti ilə bağlı, ümumi profilli həkimlər, təcili və təxirəsalınmaz tibbi yardım personalı tərəfindən ambulator xəstələrə göstərilən tibbi, stomatoloji, təcili və təxirəsalınmaz tibbi yardım xidməti ilə (fərdi və ya qrup halında evlərdə, tibbi məsləhətxanalarda, dispanserlərdə və ya poliklinikalarda) bağlı xərclər daxildir. Bu köməkçi bölmə “5.1.1. Ümumi təyinatlı tibbi xidmət”, “5.1.2. Xüsusiləşdirilmiş tibbi xidmət”, “5.1.3. Stomatoloji xidmət” və “5.1.4. Təcili və təxirəsalınmaz tibbi yardım” paraqraflarından ibarətdir.

**5.1.1.** “**Ümumi təyinatlı tibbi xidmət”** paraqrafına ümumi təyinatlı poliklinikalar, həkim və tibb məntəqələri (sahə və ailə həkimləri) tərəfindən göstərilən tibb xidmətlərinin dəyərinin ödənilməsi ilə bağlı xərclər daxildir.

**5.1.2. “Xüsusiləşdirilmiş tibbi xidmət”** paraqrafına xüsusiləşdirilmiş ambulator dispanser müəssisələrində həkim-mütəxəssislər tərəfindən göstərilən xidmətlər, o cümlədən tibbi müalicə qəbul edən və ya müəyyən kateqoriyaya aid olunan xəstələrin müalicə edilməsi ilə bağlı xərclər daxildir.

**5.1.3. “Stomatoloji xidmət”** paraqrafına ümumi təyinatlı (profilli) və xüsusiləşdirilmiş stomatoloji poliklinikalarda əhaliyə stomatoloji xidmətlərin göstərilməsi,

əhalinin imtiyazlı kateqoriyalarının diş protezləri (qiymətli metallardan hazırlanan protezlər istisna olmaqla) ilə təmin olunması, diş həkimləri ilə bağlı xərclər daxildir.

**5.1.4. "Təcili və təxirəsalınmaz tibbi yardım"** paraqrafına əhaliyə ixtisaslaşdırılmış təcili, təxirəsalınmaz və konsultativ tibbi yardım xidmətlərinin göstərilməsi ilə bağlı xərclər daxildir.

**5.2.0.** "**Xəstəxana"** köməkçi bölməsinə stasionar və ixtisaslaşdırılmış müəssisələrdə tibbi xidmətin göstərilməsi, stasionar xəstələrə xidmət göstərən tibb mərkəzlərinin, doğum evlərinin, sanatoriyaların, hərbi səyyar hospitallarının, stasionar tibbi yardım göstərən və bərpa terapiyası ilə məşğul olan mərkəzlərin fəaliyyəti, sanitar-epidemioloji və digər xidmətin təşkili ilə bağlı xərclər daxildir. Bu köməkçi bölmə "5.2.1. Ümumi təyinatlı xəstəxana", "5.2.2. Xüsusiləşdirilmiş xəstəxana", "5.2.3. Tibb mərkəzi", "5.2.4. Bərpa-müalicə sanatoriyası" və "5.2.5. Sanitar-epidemioloji xidmətlər" paraqraflarından ibarətdir.

**5.2.1.** "**Ümumi təyinatlı xəstəxana"** paraqrafına ümumi təyinatlı xəstəxanaların fəaliyyəti ilə bağlı xərclər daxildir.

**5.2.2. "Xüsusiləşdirilmiş xəstəxana"** paraqrafına müəyyən kateqoriyaya aid edilən xəstələrin müalicəsi (ağciyər, vərəm, cüzam, xərçəng, qulaq, boğaz və burun xəstəlikləri, ruhi xəstəliklər, uşaq xəstəlikləri və s. xəstəliklərin müalicəsi), xüsusiləşdirilmiş xəstəxanaların fəaliyyəti ilə bağlı xərclər daxildir.

**5.2.3. "Tibb mərkəzi"** paraqrafına tibb, diaqnostika mərkəzlərinin və doğum evlərinin fəaliyyəti ilə bağlı xərclər daxildir.

**5.2.4. "Bərpa-müalicə sanatoriyası"** paraqrafına bərpa-müalicə sanatoriyalarında xəstələr tərəfindən itirilmiş funksiyaların bərpa edilməsi ilə bağlı xərclər daxildir.

**5.2.5. "Sanitar-epidemioloji xidmətlər"** paraqrafına sanitar-epidemioloji stansiyalar, taun əleyhinə stansiyalar, gigiyena və epidemioloji mərkəzlər, dezinfeksiya stansiyaları, nəqliyyatda müstəqil izolyasiya-buraxılış məntəqələri və digər sanitariya-profilaktika müəssisələri tərəfindən göstərilən xidmətlərlə bağlı xərclər daxildir.

**5.3.0. "Diaqnostika, profilaktika və qan xidməti ilə bağlı fəaliyyət"** köməkçi bölməsinə səhiyyə diaqnostika (xərçəng, vərəm, zöhrəvi və s. xəstəliklər), profilaktika (immunizasiya, peyvənd və s.), nəzarətin həyata keçirilməsi (uşaq yeməyi, uşağın səhhəti və s.), epidemioloji vəziyyət haqqında məlumatların yığılması, ailə planlaşdırılması üzrə xidmətlər, səhiyyə sahəsində qan xidməti ilə bağlı (qəbul, emal, saxlama, daşınma) xərclər daxildir. Bu köməkçi bölmə "5.3.1. Diaqnostika və profilaktika tədbirləri" və "5.3.2. Qanköçürmə" paraqraflarından ibarətdir.

**5.3.1. "Diaqnostika və profilaktika tədbirləri"** paraqrafına diaqnostika (xərçəngin, vərəmin, zöhrəvi və bu qəbildən olan xəstəliklərin), profilaktika (immunizasiya, peyvənd), nəzarətin həyata keçirilməsi (uşaq yeməyi, uşağın səhhəti) və digər xidmətlərlə bağlı xərclər daxildir.

**5.3.2. "Qanköçürmə"** paraqrafına səhiyyə sahəsində qan xidməti ilə bağlı fəaliyyət (qəbul, emal, saxlama, daşınma) və qan banklarının saxlanılması xərcləri daxildir.

**5.8.0. "Səhiyyə sahəsində tətbiqi tədqiqatlar"** köməkçi bölməsinə səhiyyə sahəsində tədqiqat fəaliyyəti üzrə işləri həyata keçirən təşkilatlar ilə bağlı xərclər daxildir.

**5.9.0. "Səhiyyə sahəsində digər xidmətlər"** köməkçi bölməsinə səhiyyə sahəsində ümumi xidmətlərin göstərilməsi, icbari tibbi sığorta ilə bağlı xərclər daxildir. Səhiyyə sahəsi üzrə məlumatların hazırlanması və yayılması, elektron xidmətlərin həyata keçirilməsi, icbari tibbi sığorta sahəsində islahatların aparılması, pilot layihələrin həyata

keçirilməsi ilə bağlı xərclər daxildir. Bu köməkçi bölməyə 5.1.0-5.3.0-cı köməkçi bölmələrində nəzərdə tutulmayan və mahiyyət etibar ilə səhiyyə xərcləri hesab edilən digər xərclər daxildir.

**6.0.0. "Sosial müdafiə və sosial təminat"** bölməsi dövlətin sosial müdafiə və sosial təminat sahəsində ayrı-ayrı şəxslərə göstərilən xidmət və transfert xərclərini və kollektiv əsasda göstərilən xidmət xərclərini əks etdirir. Bu bölmə "6.1.0. Sosial müdafiə", "6.2.0. Sosial təminat", "6.3.0. Sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar" və "6.4.0. Sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər" köməkçi bölmələrindən ibarətdir.

**6.1.0. "Sosial müdafiə"** köməkçi bölməsi "6.1.1. Xəstəliklər", "6.1.2. Əmək qabiliyyətinin itirilməsi", "6.1.3. Yaşa görə", "6.1.4. Qəyyumluq" və "6.1.5. Ailə və uşaqların sosial müdafiəsi" paraqraflarından ibarətdir.

**6.1.1. "Xəstəliklər"** paraqrafına xəstəlik və ya zədələnmə nəticəsində əmək qabiliyyətinin müvəqqəti itirilmə dövründə itirilmiş gəlirlərin tamamilə və ya bir hissəsinin ödənilməsi, müavinətlər şəklində sosial müdafiənin təmin edilməsi, habelə sosial müdafiə proqramlarına rəhbərlik, onların idarə edilməsi və ya onlara köməklik göstərilməsi, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarında peşə əmək qabiliyyətinin itirilməsi və ya ölümlə bağlı maddi itkilərin bərpası məqsədi ilə faydalanan şəxsə verilən pul təzminatı, istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc üzrə borcların əvəzinə aylıq müavinət, xəstəlik və ya zədələnmə nəticəsində əmək qabiliyyətini müvəqqəti itirmiş şəxslərə yardım edilməsi üçün nəzərdə tutulan müxtəlif müavinətlərlə bağlı xərclər və xəstəliklərlə bağlı digər xərclər daxildir.

**6.1.2. "Əmək qabiliyyətinin itirilməsi"** paraqrafına daimi və ya müəyyən müddət davam edən fiziki və ya əqli çatışmazlıqlar nəticəsində tamamilə və ya qismən əmək fəaliyyətini itirmiş şəxslərə verilən müavinətlər şəklində sosial müdafiənin təqdim edilməsi, belə sosial müdafiə proqramlarına rəhbərlik, onların idarə edilməsi və ya onlara köməklik göstərilməsi ilə bağlı xərclər;

- fiziki və ya əqli çatışmazlıqlardan əziyyət çəkən və bunun nəticəsində əmək qabiliyyətini itirmiş, lakin müəyyən edilmiş pensiya yaşına çatmamış şəxslərə (hərbi qulluqçular, xüsusi rütbəli şəxslər, dövlət qulluqçuları daxil olmaqla) əlilliyə və ya sağlamlıq imkanlarının məhdudluğuna görə verilən pensiyalar, əmək qabiliyyətini itirmiş şəxslərə digər aylıq və ya birdəfəlik müavinətlərin verilməsi ilə bağlı və əmək qabiliyyətinin itirilməsi ilə bağlı digər xərclər daxildir.

**6.1.3. "Yaşa görə"** paraqrafına pensiya yaşına çatmaqla əlaqədar risklərdən (gəlirlərin itirilməsi, yaşayış üçün çatışmayan gəlirlər, özünə sərbəst xidmət etmək imkanının itirilməsi, sosial və ictimai həyatda iştirak səviyyəsinin aşağı düşməsi və bu kimi hallar) qorunmaq üçün verilən müavinətlər şəklində sosial müdafiənin təqdim edilməsi, sosial müdafiə və ya yardım proqramlarına rəhbərlik, onların idarə edilməsi və ya onlara köməklik göstərilməsi ilə bağlı xərclər;

- pensiya yaşına çatmış şəxslərə (hərbi qulluqçular, xüsusi rütbəli şəxslər, dövlət qulluqçuları daxil olmaqla) yaşa görə verilən pensiya, müəyyən edilmiş pensiya yaşına çatmamış şəxslərə güzəştli şərtlərlə verilən pensiyalar, pensiya yaşına çatmaqla əlaqədar verilən digər aylıq və ya birdəfəlik ödəmələrlə bağlı və pensiya yaşına çatmaqla bağlı digər xərclər daxildir.

**6.1.4. “Qəyyumluq”** paraqrafına ailə başçısının itirilməsi zamanı öhdəsində olanlara (ərinə və ya arvadına, uşaqlarına, nəvələrinə, valideynlərinə və digər qohumlarına) verilən müavinətlər şəklində sosial müdafiənin təqdim edilməsi, bu cür sosial müdafiə proqramlarına rəhbərlik, onların idarə edilməsi və ya onlara köməklik göstərilməsi ilə bağlı xərclər;

- ailə başçısının itirilməsinə görə pensiyalar (hərbi qulluqçular, xüsusi rütbəli şəxslər, dövlət qulluqçuları daxil olmaqla), valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) verilən müavinətlər, dəfn xərci və digər aylıq və ya birdəfəlik ödəmələr kimi pul müavinətləri və ailə başçısının itirilməsi ilə bağlı digər xərclər daxildir.

**6.1.5. “Ailə və uşaqların sosial müdafiəsi”** paraqrafına ailələrə müavinətlərin verilməsi, həmin sosial müdafiə proqramlarına rəhbərlik, onların idarə edilməsi və ya onlara köməklik göstərilməsi ilə bağlı xərclər;

- uşağın anadan olmasına görə birdəfəlik müavinət, hamiləliyə və doğuma görə müavinət, qanunvericilikdə nəzərdə tutulmuş yaş həddinə çatana qədər uşağa qulluqla əlaqədar müavinət, ünvanlı dövlət sosial yardımı digər aylıq və ya birdəfəlik ödəmələrlə bağlı xərclər;

- sosial xidmətlərin göstərilməsi məqsədi ilə verilən maliyyə yardımı xərcləri, həmçinin ailə və uşaqların sosial müdafiəsi ilə bağlı digər xərclər daxildir.

**6.2.0. “Sosial təminat”** köməkçi bölməsi “6.2.1. İşsizlik”, “6.2.2. Ev təsərrüfatları”, “6.2.3. Uşaq evləri”, “6.2.4. Əlillərlə və sağlamlıq imkanları məhdud uşaqlarla bağlı sosial təminat tədbirləri” və “6.2.5. Əmək və əhalinin sosial müdafiəsi tədbirləri” paraqraflarından ibarətdir.

**6.2.1. “İşsizlik”** paraqrafına əmək qabiliyyətli, lakin müvafiq iş tapa bilməyən şəxslərə olan ödənişlər, həmin sosial müdafiə proqramlarına rəhbərlik, onların idarə edilməsi və ya onlara köməklik göstərilməsi ilə bağlı xərclər, o cümlədən:

- işsizlərə işsizliyə görə ödənilən müavinətlər, haqqı ödənilən ictimai işlər, özünüməşğulluq tədbirləri ilə bağlı xərclər;

- işsizlər üçün peşə hazırlığı və əlavə təhsilin təşkili, peşəyönümünə dair məsləhət xidmətləri, əmək yarmarkalarının və əmək birjalarının təşkili ilə bağlı xərclər;

- sığortaedənlərlə birlikdə sığortaolunanların əməkhaqqının maliyyələşdirilməsi ilə bağlı xərclər və işsizliklə bağlı digər xərclər daxildir.

**6.2.2. “Ev təsərrüfatları”** paraqrafına yaşayış yerləri ilə bağlı xərclərin ödənilməsində ev təsərrüfatlarına natural formada verilən müavinətlər şəklində sosial müdafiənin təqdim edilməsi, həmin sosial müdafiə proqramlarına rəhbərlik, onların idarə edilməsi və ya onlara köməklik göstərilməsi, icarəyə götürülmüş yaşayış yerlərinin haqqının ödənilməsinə yardım məqsədi ilə qısa və ya uzunmüddətli ödənişlər, evlərin və ya mənzillərin orada yaşayan sahiblərinin cari xərclərinin bir hissəsinin kompensasiyası üçün olan ödənişlər, yaşayış evləri ilə təmin olunması ilə bağlı xərclər daxildir.

**6.2.3. “Uşaq evləri”** paraqrafına valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsini təmin etmək məqsədi ilə yaradılmış uşaq evlərinin (uşaqların həyat səviyyəsini və sosial-psixoloji vəziyyətini yaxşılaşdıran, cəmiyyətə inteqrasiyasını təmin edən müəssisələr) saxlanılması ilə bağlı xərclər daxildir.

**6.2.4. “Əlillərlə və sağlamlıq imkanları məhdud uşaqlarla bağlı sosial təminat tədbirləri”** paraqrafına əlillər və sağlamlıq imkanları məhdud uşaqlar üçün bərpa, reabilitasiya və peşə-reabilitasiya mərkəzlərinin, internat evlərinin, pansionatların,

paralimpiya idman kompleksinin, reabilitasiya vasitələrinin istehsalı ilə məşğul olan və digər xidmət müəssisələrinin saxlanılması ilə bağlı xərclər daxildir.

**6.2.5. “Əmək və əhalinin sosial müdafiəsi tədbirləri”** paraqrafına tibbi-sosial ekspertiza komissiyalarının, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların, xüsusi qayğıya ehtiyacı olan uşaqların ailə mühitində böyüməsini təmin etmək, uşaqlarla ailə daxilində davamlı münasibətlərin qurulması, öz mədəni və dini ənənələrinə uyğun yaşamalarına şərait yaradılması və onların maraq, qabiliyyət və bacarıqlarının üzə çıxmasına kömək edən ailə əsaslı qayğı proqramına müvafiq dövlət uşaq müəssisələrinin, baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar və yaşayış yeri olmayan şəxslər üçün sosial sığınacaqların, yaşayış yeri olmayan 18 yaşı tamam olduqdan sonra uşaq evlərindən məzun olmuş şəxslər üçün yaradılmış “Məzun evi” sosial müəssisələrinin, ahıl yaşlı insanlar üçün yaradılmış sosial xidmət müəssisələrinin, insan alveri qurbanlarının yardım mərkəzlərinin və bu qəbildən olan digər xidmət müəssisələrinin saxlanılması xərcləri daxildir.

**6.8.0. “Sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar”** köməkçi bölməsinə sosial müdafiə və sosial təminat sahələrində tətbiqi tədqiqatlar üzrə təcrübi işləri həyata keçirən təşkilatlara köməklik göstərilməsi və idarə edilməsi ilə bağlı xərclər daxildir.

**6.9.0. “Sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər”** köməkçi bölməsinə ailələrə, gənclərə və ya uşaqlara göstərilən müxtəlif xidmətlər (uşaq düşərgələri sosial baxımdan ictimai həyatdan uzaqlaşmış şəxslərə və ya belə uzaqlaşma qorxusu olan şəxslərə (məsələn, qaçqınlara, məcburi köçkünlərə, gəlirləri az olanlara, yoxsullara, mühacirlərə, narkomanlara, insan alverindən zərər çəkmiş şəxslərə, zorakılığa məruz qalanlara və bu təbəqədən olan digər şəxslərə ) verilən müavinətlər şəklində sosial müdafiənin və sosial təminatın təqdim edilməsi ilə bağlı xərclər, o cümlədən:

- həmin sosial müdafiə və sosial təminat proqramlarının idarə edilməsi və ya onlara köməklik göstərilməsi ilə bağlı xərclər;
- yoxsulluq üzrə müavinətlərin (gəlirlərin saxlanılması) və yoxsulların yoxsulluq vəziyyətlərinin azaldılması məqsədi ilə onlara verilən müavinətlərin ödənilməsi ilə bağlı xərclər;
- yoxsul şəxslərə qısa və ya uzunmüddətli sığınacaq və qida verilməsi, narkomanların və insan alverindən zərər çəkmiş şəxslərin reabilitasiyası, müdafiəyə ehtiyacı olan şəxslərə hüquqi məsləhətlər, ev üzrə köməklik göstərilməsi, ərzaq məhsulları, geyim, yanacaq və bu qəbildən olan digər köməkliklərin verilməsi kimi natural formada ödənilən müavinətlər;
- yanğınlardan, daşqınlardan, zəlzələlərdən və digər bədbəxt hadisələrdən zərər çəkənlərə verilən müavinətlər, fövqəladə hallarda istifadə edilə biləcək ərzağın, avadanlıqların və digər resursların alınması və saxlanılması xərcləri;
- xüsusi xidmətlərə görə dövlət tərəfindən verilən təqaüdlərlə (Prezident təqaüdü, fəxri adlara görə təqaüd və bu qəbildən olan digər təqaüdlər) bağlı xərclər;
- penitensiar müəssisələrdən azad olanlara verilən birdəfəlik müavinətlərlə bağlı xərclər;
- sosial müdafiə və sosial təminat üzrə dövlət tərəfindən transfertlərin verilməsi xərcləri;
- digər sosial müdafiə və sosial təminat tədbirləri ilə bağlı xərclər daxildir.

- keçmiş Prezidentlərin və onun ailə üzvlərinin sosial təminatı ilə bağlı xərclər, həmçinin 6.1.0-6.2.0-cı köməkçi bölmələrdə nəzərdə tutulmayan və mahiyyət etibarilə sosial müdafiə və sosial təminat tədbirləri hesab edilən digər müəssisə və təşkilatların xərcləri daxildir.

**7.0.0. "Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət"** bölməsi "7.1.0. Mədəniyyət və incəsənət sahəsində fəaliyyət", "7.2.0. Televiziya, radio və nəşriyyat", "7.3.0. Bədən tərbiyəsi və gənclər siyasəti", "7.4.0. Yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər", "7.8.0. Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahələrində elmi fəaliyyət (fundamental, tətbiqi və eksperimental) və bu sahələrə aid olan digər tədbirlər" və "7.9.0. Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər müəssisə və tədbirlər" köməkçi bölmələrindən ibarətdir.

**7.1.0. "Mədəniyyət və incəsənət sahəsində fəaliyyət"** köməkçi bölməsinə mədəniyyət və incəsənətlə bağlı xidmətlərin göstərilməsi, mədəniyyət və incəsənət sahələrinin fəaliyyətlərinin tənzimlənməsi, mədəniyyət obyektlərinin (kitabxanalar, muzeylər, şəkil qalereyaları, teatrlar, sərgi zalları, heykəllər, tarixi dəyərə malik binalar və tarixi yerlər və bu qəbildən olan digər yerlər) idarə edilməsi və ya onlara köməklik göstərilməsi, mədəni tədbirlərin (konsertlər, səhnə quruluşları, filmlərin istehsalı, incəsənət sərgiləri və bu qəbildən olan digər tədbirlərin) təşkili, həyata keçirilməsi və ya onlara köməklik göstərilməsi, milli bayramların keçirilməsi, ayrı-ayrı aktyorlara, yazıçılara, rəssamlara, bəstəkarlara və digər mədəniyyət işçilərinə və ya idarələrə köməklik göstərilməsi ilə bağlı xərclər daxildir. Bu köməkçi bölmə "7.1.1. Kitabxana", "7.1.2. Muzey və sərgi", "7.1.3. Mədəniyyət sarayları, mərkəzləri, evləri və klubları" və "7.1.4. Teatr və musiqi kollektivi" paraqraflarından ibarətdir.

**7.1.1. "Kitabxana"** paraqrafına kitabxanaların saxlanılması (elmi kitabxanalardan başqa) xərcləri daxildir.

**7.1.2. "Muzey və sərgi"** paraqrafına muzeylərin, şəkil qalereyalarının, sərgi zallarının, heykəllərin, mərkəzlərin, tarixi dəyərə malik binaların və tarixi yerlərin, habelə tarixi-memarlıq, tarix-bədii və tarix-mədəniyyət qoruqlarının və bu qəbildən olan digər müəssisələrin saxlanılması xərcləri daxildir.

**7.1.3. "Mədəniyyət sarayları, mərkəzləri, evləri və klubları"** paraqrafına sarayların, mədəniyyət evlərinin, klubların və klub tipli başqa müəssisələrin saxlanılması xərcləri daxildir.

**7.1.4. "Teatr və musiqi kollektivi"** paraqrafına konsert, tamaşa müəssisələrinin, musiqi kollektivlərinin saxlanılması və onlara maliyyə yardımının göstərilməsi, səhnə quruluşları, dövlət sifarişi ilə filmlərin çəkilişi xərcləri daxildir.

**7.2.0. "Televiziya, radio və nəşriyyat"** köməkçi bölməsinə radio, televiziya və nəşriyyat işləri sahəsində xidmətlərə rəhbərlik və onlara nəzarət, onların tənzimlənməsi, radio, televiziya və nəşriyyat işləri sahəsində xidmətlərin idarə edilməsi və ya onlara köməklik göstərilməsi, radio və televiziya üçün avadanlığın alınmasına, qəzet, jurnal və ya kitabların nəşri üçün mətbəələrə avadanlıqların və ya materialların alınmasına, radio və televiziya proqramlarının istehsalı və efirə ötürülməsinə, informasiya proqramlarının işinə, nəşr edilmiş işlərin yayılmasına köməklik göstərilməsi ilə bağlı xərclər daxildir. Bu köməkçi bölmə "7.2.1. Televiziya və radio" və "7.2.2. Nəşriyyat" paraqraflarından ibarətdir.

**7.2.1. "Televiziya və radio"** paraqrafına televiziya və radio işləri sahəsində xidmətlərə rəhbərlik və ona nəzarət, onların tənzimlənməsi, televiziya və radio sahəsində

xidmətlərin idarə edilməsi və ya onlara köməklik göstərilməsi, televiziya və radio üçün avadanlığın alınması, televiziya və radio proqramlarının istehsalı və efirə ötürülməsi, informasiya proqramlarının işinə köməklik göstərilməsi ilə bağlı və bu qəbildən olan digər xərclər daxildir.

**7.2.2. "Nəşriyyat"** paraqrafına nəşriyyat işləri sahəsində xidmətlərin idarə edilməsi və ya onlara kömək göstərilməsi, qəzet, jurnal və ya kitabların nəşri üçün mətbəələrə avadanlıqların və ya materialların alınmasına, nəşr edilmiş işlərin yayılmasına kömək göstərilməsi ilə bağlı və bu qəbildən olan digər xərclər daxildir.

**7.3.0.** "**Bədən tərbiyəsi və gənclər siyasəti"** köməkçi bölməsinə istirahətin və idmanla məşğul olmanın təşkili sahəsində xidmətlərin göstərilməsi, idman qurğularının istifadə edilməsinin tənzimlənməsi və gənclər siyasətinin təşkili daxil edilir. Bu köməkçi bölmə "7.3.1. Bədən tərbiyəsi və idmanın təşkili" və "7.3.2. Gənclər siyasəti" paraqraflarından ibarətdir.

**7.3.1.** "**Bədən tərbiyəsi və idmanın təşkili"** paraqrafına idmanla fəal məşğul olmaq üçün və ya idman tədbirləri üçün nəzərdə tutulan qurğuların (futbol meydançaları, idman meydançaları, tennis kortları, qaçış zolaqları, boks rinqləri, buz meydançaları, idman zalları və bu qəbildən olan digər yerlər) idarə edilməsi, idmanla qeyri-fəal məşğul olmaq üçün və ya idman tədbirləri üçün nəzərdə tutulan obyekt və yerlərin (əsasən stolüstü oyunlar üçün xüsusi təchiz olunmuş yerlərin) idarə edilməsi, istirahət obyektlərinin (parklar, çimərliklər, kempinqlər və ya bunlara oxşar yerlər, üzgüçülük hovuzları və bu qəbildən olan digər yerlər) idarə edilməsi xərcləri, milli, regional və ya yerli komandaların nümayəndələrinin idman tədbirlərində iştirakı, komandalara və ayrı-ayrı yarış iştirakçılarına köməklik göstərilməsi ilə bağlı xərclər daxildir.

**7.3.2.** "**Gənclər siyasəti"** paraqrafına ölkədə gənclər siyasəti tədbirlərinin əlaqələndirilməsinə və onların həyata keçirilməsinə köməklik göstərilməsi ilə bağlı xərclər daxildir.

**7.4.0. "Yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər"** köməkçi bölməsinə digər ictimai fəaliyyət sahəsində rəhbərlik, bəstəkarlar, rəssamlar və digər ittifaqlara, veteranların respublika təşkilatlarına dövlət tərəfindən ayrılmış vəsaitlər və maliyyə yardımları, milli bayramların keçirilməsi, aktyorlara, yazıçılara, rəssamlara, bəstəkarlara və digər mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti işçilərinə mükafat və maddi köməklik göstərilməsi, dövlət-din münasibətləri sahəsində fəaliyyətin tənzimlənməsi, mövcud dini icmaların dəstəklənməsi, mənəvi dəyərlərin qorunması və inkişafı, dini etiqad sahəsində maarifləndirmə işinin aparılması və digər tədbirlər ilə bağlı xərclər daxildir. Bu köməkçi bölmə "7.4.1. Yaradıcı ittifaq və cəmiyyət" və "7.4.2. Dini tədbirlər" paraqraflarından ibarətdir.

**7.4.1.** "**Yaradıcı ittifaq və cəmiyyət"** paraqrafına yaradıcı ittifaqlara və birliklərə (yazıçılar, bəstəkarlar, rəssamlar və digər yaradıcı birlik və ittifaqlara) veteranların respublika təşkilatlarına, habelə digər ictimai fəaliyyət sahəsində rəhbərliklə bağlı dövlət tərəfindən ayrılmış vəsaitlər və maliyyə yardımları, milli bayramların keçirilməsi, aktyorlara, yazıçılara, rəssamlara, bəstəkarlara və digər mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti işçilərinə mükafat və maddi köməklik göstərilməsi ilə bağlı xərclər daxildir.

**7.4.2. "Dini tədbirlər"** paraqrafına dövlət-din münasibətləri sahəsində fəaliyyətin tənzimlənməsi, mövcud dini icmaların dəstəklənməsi, mənəvi dəyərlərin qorunması və

inkişafı, dini etiqad sahəsində maarifləndirmə işinin aparılması və din sahəsində digər tədbirlər ilə bağlı xərclər daxildir.

**7.8.0. “Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahələrində elmi fəaliyyət (fundamental, tətbiqi və eksperimental) və bu sahələrə aid olan digər tədbirlər”** köməkçi bölməsinə mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və din sahəsində elmi fəaliyyət (fundamental, tətbiqi və eksperimental) üzrə işləri həyata keçirən müəssisə və təşkilatların saxlanılması və bu işlərə köməklik göstərilməsi ilə bağlı xərclər daxildir.

**7.9.0. “Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər müəssisə və tədbirlər”** köməkçi bölməsinə 7.1.0-7.4.0-cı köməkçi bölmələrində nəzərdə tutulmayan və mahiyyət etibarilə mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti xərcləri hesab edilən digər müəssisə və tədbirlərin xərcləri daxildir.

**8.0.0. “Mənzil və kommunal təsərrüfatı”** bölməsi “8.1.0. Mənzil”, “8.2.0. Kommunal təsərrüfatı”, “8.3.0. Su təsərrüfatı”, “8.8.0. Mənzil və kommunal təsərrüfatı sahələrində tətbiqi tədqiqatlar” və “8.9.0. Mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər” köməkçi bölmələrindən ibarətdir.

**8.1.0. “Mənzil”** köməkçi bölməsi “8.1.1. Mənzil təsərrüfatı” və “8.1.2. Lift təsərrüfatı” paraqraflarından ibarətdir.

**8.1.1. “Mənzil təsərrüfatı”** paraqrafına mənzil tikintisi sahəsinin idarə olunması, mənzil tikintisi  və onun qiymətləndirilməsi, mənzil məsələləri üzrə standartların işlənilib hazırlanması və bu standartlara nəzarət, əhali üçün mənzillərin və yaşayış sahələrinin yenidən qurulması, mənzil tikintisi sahəsində iş və xidmətlər üzrə məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və məlumatların yığılması, mənzil fondunun genişləndirilməsi ilə bağlı xərclər daxildir.

**8.1.2. “Lift təsərrüfatı”** paraqrafına liftlərin istismarı, onların təmiri, xidmət edilməsi, habelə zərərlə işləyən lift təsərrüfatı müəssisələrinə verilən dotasiya, subsidiya və subvensiyalarla bağlı xərclər daxildir.

**8.2.0.** “**Kommunal təsərrüfatı”** köməkçi bölməsi “8.2.1. Kommunal xidmətləri”, “8.2.2. İstilik”, “8.2.3. İşıqlandırılma” və “8.2.4. Yaşıllaşdırma” paraqraflarından ibarətdir.

**8.2.1. “Kommunal xidmətləri”** paraqrafına kommunal məsələlərinin, işlərinin idarə olunması, torpaqdan istifadə, tikinti normalarına və qaydalarına əməl edilməsinə nəzarət, yaşayış məntəqələrinin yenidən qurulması, kommunal təsərrüfatının inkişafı sahəsində proqramların, texniki sənədlərin hazırlanması, iş və xidmətlər üzrə məlumatların yayılması və məlumatların yığılması ilə bağlı xərclər daxildir.

**8.2.2. “İstilik”** paraqrafına şəhər və digər yaşayış məntəqələrində istilik (buxar, qaz, kömür, qonur kömür və bu qəbildən olan digər maddələr) şəbəkələrinin istismarı, texniki xidməti, həmçinin bu sistemlərin təkmilləşdirilməsi ilə bağlı xərclər daxildir.

**8.2.3. “İşıqlandırılma”** paraqrafına küçələrin, parkların, xiyabanların işıqlandırılması, onun fəaliyyətinə rəhbərlik, küçələrin işıqlandırılması üzrə standartların işlənilib hazırlanmasına və onlara əməl edilməsinə nəzarət, işıqlandırılma vasitələrinin qurulması, istismarı, saxlanılması, təkmilləşdirilməsi və bu qəbildən olan digər  tədbirlərlə bağlı xərclər daxildir.

**8.2.4. “Yaşıllaşdırma”** paraqrafına yaşıllıqların salınması, becərilməsi, bərpası və artırılması, yaşİllaşdırma sahəsində xidmətlərin göstərilməsi, müvafiq infrastrukturun inkişafı ilə bağlı digər işlərin, o cümlədən yaşayış məntəqələrində landşaft quruluşu

işlərinin yerinə yetirilməsinin təmin edilməsi, park ərazilərində xüsusi dizayn işlərinin (torpaq sahələrinin hazırlanması, aqrotexniki tədbirlərin görülməsi, mövsümi güllərin və ağacların alınması və əkilməsi) görülməsi və bu qəbildən olan digər xərclər daxildir.

**8.3.0. "Su təsərrüfatı"** köməkçi bölməsinə su təchizatının bütün amillərinə nəzarət və onların tənzimlənməsi, su təchizatı sistemlərinin istismarı, texniki xidməti, təmiri və ya təkmilləşdirilməsinə kömək göstərilməsi ilə bağlı xərclər daxil edilir. Bu köməkçi bölməyə suların qəbul edilmiş ekoloji standartlara və ya digər normalara uyğunluğunun təmin edilməsi məqsədi ilə təmizlənməsi və təmizlənmə üçün istifadə edilən mexaniki, bioloji və ya digər proseslərin tətbiqi, sutəmizləyici qurğuların istismarının təşkili və onlara nəzarət edilməsi ilə bağlı xərclər daxildir.

**8.8.0. "Mənzil və kommunal təsərrüfatı sahələrində tətbiqi tədqiqatlar"** köməkçi bölməsinə mənzil və kommunal təsərrüfatı sahəsində tətbiqi tədqiqat və təcrübi işlərini həyata keçirən təşkilatlara rəhbərlik və onların idarə edilməsi, mənzil və kommunal təsərrüfatı sahəsində həyata keçirilən tətbiqi tədqiqat və təcrübi işlərinə kömək göstərilməsi ilə bağlı xərclər daxildir.

**8.9.0. "Mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər"** köməkçi bölməsinə zərərlə işləyən mənzil, kommunal, su təsərrüfatı müəssisələrinə ayrılan vəsait ilə bağlı xərclər daxildir. Həmçinin, 8.1.0-8.3.0.-cı köməkçi bölmələrində nəzərdə tutulmayan və mahiyyət etibarilə mənzil, kommunal, su təsərrüfatı sahəsinə aid edilən digər müəssisə və tədbirlərin xərcləri daxildir.

**9.0.0. "Kənd təsərrüfatı"** bölməsi "9.1.0. Kənd təsərrüfatı tədbirləri", "9.2.0. Baytarlıq", "9.3.0. Meliorasiya", "9.8.0. Kənd təsərrüfatı üzrə təcrübə və tətbiqi tədqiqatlar" və "9.9.0. Kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər" köməkçi bölmələrindən ibarətdir.

**9.1.0. "Kənd təsərrüfatı tədbirləri"** köməkçi bölməsinə şumluq torpaqların sahələrinin saxlanılması və artırılması, kənd təsərrüfatı istehsalına nəzarət və onun tənzimlənməsi, kənd təsərrüfatı işlərinin aparılması, aqrar islahat və torpaqlarda məskunlaşdırma tədbirləri, kənd təsərrüfatında ziyanvericilərlə mübarizə, toxumun keyfiyyətinin yoxlanması və sortlara ayrılması xidmətlərinin idarə edilməsi ilə bağlı xərclər daxildir.

**9.2.0. "Baytarlıq"** köməkçi bölməsinə baytarlıq idarələrinin və laboratoriyalarının saxlanılması, baytarlıq tədbirlərinin həyata keçirilməsi üçün dərman və preparatların alınmasına, istifadəsinə, dezinfeksiya və vaksinasiyaya çəkilən xərclər aid edilir.

**9.3.0. "Meliorasiya"** köməkçi bölməsinə meliorasiya tədbirləri, daşqınlarla mübarizə sistemlərinin, süni suvarma (irriqasiya) və drenaj sistemlərinin istismarı və saxlanılması ilə bağlı xərclər daxildir.

**9.8.0. "Kənd təsərrüfatı üzrə təcrübə və tətbiqi tədqiqatlar"** köməkçi bölməsinə kənd təsərrüfatı sahəsində tətbiqi tədqiqatları və təcrübi işləri həyata keçirən təşkilatların saxlanılması və onların idarə edilməsi, tətbiqi tədqiqatlara və təcrübi işlərə kömək göstərilməsi ilə bağlı xərclər daxildir.

**9.9.0. "Kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər"** köməkçi bölməsinə kənd təsərrüfatı məhsullarının qiymətlərinin sabitləşdirilməsi, bitkilərin istehsalının həvəsləndirilməsi və ya məhdudlaşdırılması tədbirləri, həmçinin 9.1.0-9.3.0.-cı köməkçi bölmələrində nəzərdə tutulmayan və mahiyyət etibarilə kənd təsərrüfatı sahəsi hesab edilən digər müəssisə və tədbirlərin xərcləri daxildir.

**10.0.0.** **“Ətraf mühitin mühafizəsi”** bölməsi “10.1.0. Ətraf mühitin və təbiətin mühafizəsi”, “10.2.0. Bioloji zənginliyin qorunması” və “10.3.0. Torpaq və yerquruluşu**”,** “10.4.0. Hidrometeorologiya tədbirləri”, “10.5.0. Meşə təsərrüfatı”, “10.6.0. Balıqçılıq və ovçuluq”, “10.7.0. Ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi”, “10.8.0. Ətraf mühitin mühafizəsi üzrə tətbiqi tədqiqatlar” və “10.9.0. Ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər” köməkçi bölmələrindən ibarətdir.

**10.1.0. “Ətraf mühitin və təbiətin mühafizəsi”** köməkçi bölməsinə havanın və təbiətin mühafizəsinə nəzarət və bu işlərin tənzimlənməsi, havanın və təbiətin mühafizəsi sahəsində məlumatların yayılması üzrə xidmətlərin idarə edilməsi və kömək göstərilməsi, ətraf mühitin və təbiətin mühafizəsi məsələləri ilə bağlı ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması, toplanması, yığılması və saxlanılması, havanın keyfiyyətinə mənfi təsir göstərən buxar qazlarının və çirkləndirici maddələrin havaya buraxılmasına nəzarət və ya onların qarşısının alınması üzrə tədbirlər, çirklənmiş torpaqların təmizlənməsi üçün qurğuların və çirkləndirici maddə və materialların saxlanılması üçün olan tikililərin texniki xidməti və istismarı, ətraf mühitin çirklənməsi ilə mübarizə və çirklənmənin səviyyəsinə nəzarət, onun yoxlanılması, idarə edilməsi və ya ona təsir göstərilməsi, ətraf mühitin çirklənməsi ilə mübarizə və çirklənmənin səviyyəsinə nəzarətlə əlaqədar fəaliyyətə kömək göstərilməsi ilə bağlı xərclər daxildir.

**10.2.0. “Bioloji zənginliyin qorunması”** köməkçi bölməsinə bioloji zənginliyin qorunmasına nəzarət və bu işlərin tənzimlənməsi, su hövzələrinin çirkləndirici maddələrdən təmizlənməsi tədbirləri, bioloji zənginliyin qorunması sahəsində məlumatların yayılması üzrə xidmətlərin idarə edilməsi və kömək göstərilməsi, bioloji zənginliyin qorunması məsələləri ilə bağlı ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması, toplanması, yığılması və saxlanılması və bu qəbildən olan digər xərclər daxildir.

Eyni zamanda bitki və heyvan növlərinin (nəsli kəsilməkdə olan növlərin bərpası da daxil edilməklə) qorunması, təbii parkların və qoruqların səmərəli istifadəsi, qorunması və landşaftların estetik dəyərinin saxlanması üçün onların mühafizəsi ilə (korlanmış landşaftların estetik dəyərinin artırılması məqsədi ilə onların bərpası, istifadəsiz qalmış şaxtaların və karxanaların tutduğu ərazilərin bərpası da daxil edilməklə) əlaqədar fəaliyyət növlərini əhatə edir.

**10.3.0. “Torpaq və yerquruluşu”** köməkçi bölməsinə torpaq kadastrı, torpağın və yeraltı suların qorunması, səs və titrəyişlərlə mübarizə və radiasiyadan qorunma fəaliyyəti ilə bağlı xərclər daxildir. Belə fəaliyyət növlərinə monitorinq sistemləri və stansiyaların (meteoroloji stansiyalardan başqa) yaradılması, texniki xidməti, təmiri və istismarı, şəhər avtomagistrallarının və dəmir yollarının xüsusi materiallarla örtülmüş səsboğucu da daxil edilməklə, səs əleyhinə torpaq töküntülərinin, hasarların və digər səsdən qoruyucu qurğuların istismarı, torpaq və yerquruluşu sahəsində məlumatların yayılması üzrə xidmətlərin idarə edilməsi və kömək göstərilməsi, torpaqların monitorinqi, yerquruluşu, torpaq islahatı, ərazi vahidlərinin müəyyən edilməsi, torpaq və yerquruluşu məsələləri ilə bağlı ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması, toplanması, yığılması və saxlanılması və bu qəbildən olan digər xərclər daxildir.

**10.4.0. “Hidrometeorologiya tədbirləri”** köməkçi bölməsinə hava proqnozu və hidroloji tədqiqatların həyata keçirilməsi ilə bağlı xərclər daxildir.

**10.5.0. “Meşə təsərrüfatı”** köməkçi bölməsinə meşə ehtiyatlarının saxlanılması və səmərəli istifadəsi, meşə ehtiyatlarının istismarına nəzarət və ağacların kəsilməsinə

icazənin verilməsi və tənzimlənməsi, meşə yanğınlarının qarşısının alınması və onlarla mübarizə üzrə xidmətlərin, meşə təsərrüfatı sahəsində məlumatların yayılması ilə məşğul olan müəssisə, təşkilat və şəxslərin idarə edilməsi və onlara kömək göstərilməsi, odun tədarükü, əlavə olaraq meşə bitkiləri məhsulunun yığılması, meşə təsərrüfatı ilə bağlı məsələlər və xidmətlər üzrə məlumatların və texniki sənədlərin hazırlanması, yayılması, toplanması, meşə təsərrüfatı sahəsində kommersiya fəaliyyətinə kömək göstərilməsi, meşələrin genişləndirilməsi, meşələrin bərpası üzrə işlərin, ziyanvericilərlə və xəstəliklərlə mübarizə ilə bağlı və bu qəbildən olan digər xərclər daxildir.

**10.6.0. "Balıqçılıq və ovçuluq"** köməkçi bölməsi "10.6.1. Balıqartırma və balıq mühafizəsi" və "10.6.2. Ovçuluq və heyvanların qorunması" paraqraflarından ibarətdir.

**10.6.1. "Balıqartırma və balıq mühafizəsi"** paraqrafına balıqçılıq sahəsi üzrə təbiət parklarının və qoruqlarının ərazilərindən kənarda həyata keçirilən fəaliyyət növləri, balıqçılıqla bağlı xidmətlərə rəhbərlik, balıq ehtiyatlarının qorunması, çoxaldılması və səmərəli istifadəsi, çay, sahil və dəniz sularında balıq ovuna, balığın çoxaldılmasına, balıq ovuna verilən icazəyə nəzarət və onların tənzimlənməsi, balıqyetişdirmə məntəqələrinin, balıqçılıq sahəsində məlumatların yayılması üzrə xidmətlər, həmin xidmətlərin idarə edilməsi və kömək göstərilməsi, balıqçılıq məsələləri ilə bağlı ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması, toplanması, balıqyetişdirmə məntəqələrinin yaradılması, saxlanması və bu qəbildən olan digər xərclər daxildir.

**10.6.2 "Ovçuluq və heyvanların qorunması"** paraqrafına ovçuluq sahəsində təbiət parklarının və qoruqların ərazilərindən kənarda həyata keçirilən fəaliyyət növləri, ovçuluqla bağlı xidmətlərə rəhbərlik, vəhşi heyvanların qorunması, çoxaldılması və səmərəli istifadəsi, vəhşi heyvanların ovlanmasına və ovçuluğa verilən icazələrə nəzarət və onların tənzimlənməsi, ovçuluq sahəsində məlumatların yayılması üzrə xidmətlər, ərazilərdə heyvanların məskunlaşması və ya seleksiya məqsədi ilə ov aparılması, həmin xidmətlərin idarə edilməsi və kömək göstərilməsi, ovçuluq məsələləri ilə bağlı ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması, toplanması, yığılması və saxlanılması və bu qəbildən olan digər xərclər daxildir.

**10.7.0. "Ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi"** köməkçi bölməsi "10.7.1.Ərazilərin təmizlənməsi" və "10.7.2. Çirkab sularının yığılması və təmizlənməsi" paraqraflarından ibarətdir.

**10.7.1. "Ərazilərin təmizlənməsi"** paraqrafına şəhərlərin, rayon mərkəzlərinin, qəsəbələrin və başqa yaşayış məntəqələrinin abadlaşdırılması, yenidən qurulması, tullantıların yığılması, emalı və təmizlənməsi ilə bağlı xərclər daxildir. Bu paraqrafa prospektlərin, küçələrin, səkilərin, meydanların, yolların, bazarların, şəhər bağlarının, parkların və bu qəbildən olan digər yerlərin abadlaşdırılması və təmiri, yığışdırılması, zibildən, buzdan və qardan (buz-qar törəmələrindən) təmizlənməsi və daşınması, qış mövsümündə sürüşməyə qarşı buz üzərinə müvafiq materialların səpilməsi, tipinə görə həm çeşidlənən, həm də çeşidlənməyən məhsulların bütün növ tullantılarının yığılması, onların emal və ya təmizlənmə yerinə nəqli Ilə bağlı xərclər;

- tullantıların emalı və istifadə olunması, onların neytrallaşdırılması, sağlamlıq və nəqli üçün daha təhlükəsiz edilməsi, saxlanılması və ya həcminin kiçildilməsi məqsədi ilə istənilən tullantıların fiziki, kimyəvi və ya bioloji xassələrinin dəyişdirilməsi üçün istifadə edilən müxtəlif üsul və ya proseslə bağlı xərclər;

- təmizləndikdən sonra gələcəkdə bir daha istifadə ediləcəyi nəzərdə tutulmayan tullantıların zibilxanaya daşınması, konteynerlərə doldurulması, torpağa basdırılması və ya digər təmizləmə üsulunun köməyi ilə birdəfəlik yerləşdirilməsinə dair xərclər;

- tullantıların yığılması, emalı və təmizlənməsi, istismarı, onlara nəzarət edilməsi və ya təsir göstərilməsi üzrə sistemlərin idarə edilməsi ilə bağlı xərclər;

- bu sistemlərin istismarı, texniki xidməti və ya təkmilləşdirilməsinə köməklik göstərilməsi ilə bağlı dotasiya, subvensiya və subsidiyaların verilməsi ilə bağlı xərclər daxildir.

**10.7.2. “Çirkab sularının yığılması və təmizlənməsi”** paraqrafına kanalizasiya və çirkab sularının emalı sistemlərinin istismarı məsələləri ilə bağlı xərclər daxildir. Bu paraqrafa kanalizasiya sisteminin istismarına, istənilən çirkab sularının (yağış, məişət və digər suların) yaranma yerlərindən çirkab sularının təmizlənmə stansiyalarınadək və ya bu suların tullanacağı yerüstü su hövzələrinədək (çaylaradək), yaxud belə sistemlərin qurğularınadək çəkilib axıdılmasına xidmət edən kollektorlar sisteminin, boru kəmərlərinin, arxların və nasosların istismar edilməsi ilə bağlı xərclər;

- çirkab sularının emalına, bu suların qəbul edilmiş ekoloji standartlara və ya digər normalara uyğunluğunun təmin edilməsi məqsədi ilə təmizlənməsi və təmizləmənin tamamlanması üçün istifadə edilən istənilən mexaniki, bioloji və ya digər qabaqcıl proseslərin tətbiqi ilə bağlı xərclər;

- kanalizasiya və çirkab sularının emalı sistemlərinin idarə edilməsi, yoxlanılması, onlara nəzarət edilməsi və ya kömək göstərilməsi ilə bağlı xərclər;

- bu sistemlərin texniki xidməti və ya təkmilləşdirilməsinə kömək göstərilməsi ilə bağlı xərclər daxildir.

**10.8.0. “Ətraf mühitin mühafizəsi üzrə tətbiqi tədqiqatlar”** köməkçi bölməsinə ətraf mühitin mühafizəsi sahəsində elmi, tətbiqi tədqiqatları və təcrübi işləri həyata keçirən təşkilatların saxlanılması və onların idarə edilməsi, tətbiqi tədqiqatlara və təcrübi işlərə kömək göstərilməsi ilə bağlı xərclər daxildir.

**10.9.0. “Ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər”** köməkçi bölməsinə ətraf mühitin mühafizəsi sahəsi xərcləri hesab edilən digər müəssisə və tədbirlərin xərcləri daxildir.

**11.0.0. “İqtisadi fəaliyyət”** bölməsi “11.1.0. Nəqliyyat və rabitə”, “11.2.0. İqtisadi və kommersiya fəaliyyəti”, “11.3.0. Sənaye”, “11.4.0.Tikinti və şəhərsalma”, “11.5.0. Geodeziya və faydalı qazıntılar”, “11.6.0. Yanacaq və enerji kompleksi”, “11.8.0. İqtisadi fəaliyyət sahələri üzrə tətbiqi tədqiqatlar” və “11.9.0. İqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər” köməkçi bölmələrindən ibarətdir.

**11.1.0. “Nəqliyyat və rabitə”** köməkçi bölməsi “11.1.1. Avtomobil yolları və avtomobil nəqliyyatı”, “11.1.2. Su nəqliyyatı”, “11.1.3. Dəmir yolu nəqliyyatı”, “11.1.4. Hava nəqliyyatı”, “11.1.5. Boru kəməri və digər nəqliyyat növləri” və “11.1.6. Rabitə, informasiya və yüksək texnologiyalar” paraqraflarından ibarətdir.

**11.1.1. “Avtomobil yolları və avtomobil nəqliyyatı”** paraqrafına avtomobil nəqliyyatı sistemlərinin və müvafiq qurğuların (yollar, körpülər, tunellər, piyadalar üçün yeraltı və yerüstü keçidlər, dayanacaqlar, avtovağzallar və bu qəbildən olan digər tikililərin) istismarı, istifadəsi, texniki xidməti və təmiri ilə bağlı işlər, avtomobil nəqliyyatı istifadəçilərinin fəaliyyətlərinə nəzarət və bu məsələlərin tənzimlənməsi (avtomobillərin qeydiyyatı və sürücülük vəsiqələrinin verilməsi, avtomobillərin texniki vəziyyətlərinin yoxlanılması, sərnişin və yük avtomobil nəqliyyatları üçün ölçülərin və yüklənmənin

xüsusiyyətləri, şəhərlərarası avtobusların və yük avtomobillərinin sürücüləri üçün iş günü müddətinin müəyyən edilməsi və bu qəbildən olan digər tədbirlər), avtomobil nəqliyyatı sistemlərinin işinə nəzarət və bu işin tənzimlənməsi (imtiyazların verilməsi, yükdaşımaların tariflərinin və sərnişin nəqliyyatında gediş haqlarının, nəqliyyatın hərəkət qrafiklərinin və intervallarının müəyyən edilməsi və bu qəbildən olan digər işlərin), yolların tikinti işinə, texniki xidmətinə və təmirinə nəzarət və bu məsələlərin tənzimlənməsi ilə bağlı xərclər;

- avtomobil nəqliyyatının qeyri-kommersiya təyinatlı sistemlərinin və onlara aid edilən qurğuların istismarı ilə bağlı xərclər;
- magistrallar, şəhərdaxili yollar, küçələr, velosipedçilər və piyadalar üçün yolların istismarı ilə bağlı xərclər;
- avtomobil nəqliyyatı sistemlərinin işi və yol tikintisi haqqında ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və məlumatların yığılması ilə bağlı xərclər;
- avtomobil nəqliyyatı sistemlərinin və onlara aid edilən qurğuların istismarı, texniki xidməti və ya təkmilləşdirilməsinə köməklik göstərilməsi ilə bağlı xərclər daxildir.

**11.1.2. “Su nəqliyyatı”** paraqrafına daxili, sahilyanı və dəniz su nəqliyyatı sistemləri və onlara aid edilən qurğuların (limanlar, naviqasiya vasitələri və avadanlıqları, kanallar, körpülər, tunellər, dalğaqıranlar, terminallar və bu qəbildən olan digər qurğular) istismarı, texniki xidməti və təmiri üçün iş və xidmətlər;

- su nəqliyyatı istifadəçilərinin fəaliyyətlərinə nəzarət və bu məsələlərin tənzimlənməsi (gəmilərin və komandaların qeydiyyatı, lisenziyalaşdırılması və təftişi, sərnişin və yüklərin təhlükəsizliyi qaydaları və bu qəbildən olan digər fəaliyyətlər), su nəqliyyatı sistemlərinin işinə nəzarət və bu işin tənzimlənməsi (imtiyazların verilməsi, yük və sərnişin daşımalarının tariflərinin, nəqliyyat vasitələrinin hərəkətlərinin vaxtı və reyslərin tezliyinin və bu qəbildən olan digər fəaliyyətin müəyyən edilməsi), su nəqliyyatı qurğularının texniki xidmətinə və təmirinə nəzarət və bu məsələlərin tənzimlənməsi ilə bağlı xərclər;
- su nəqliyyatının qeyri-kommersiya təyinatlı sistemlərinin və vasitələrinin istismarı ilə bağlı xərclər;
- qəza-xilasetmə xidməti və yedəyəalma xidmətləri ilə bağlı xərclər;
- su nəqliyyatı sistemlərinin işi və su nəqliyyatı qurğuları haqqında ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və yığılması ilə bağlı xərclər;
- su nəqliyyatı sistemlərinin və onlara aid edilən qurğuların istismarı, texniki xidməti, təmiri və ya təkmilləşdirilməsinə köməklik göstərilməsi ilə bağlı xərclər daxildir.

**11.1.3. “Dəmir yolu nəqliyyatı”** paraqrafına dəmir yolu nəqliyyatı sistemləri və onlara aid edilən qurğuların (dəmir yolları, vağzallar, tunellər, körpülər, dəmir yollarının salınması işləri və bu qəbildən olan digər qurğular) istismarı, istifadəsi, texniki xidməti və təmiri ilə bağlı xərclər;

- dəmir yolu nəqliyyatı istifadəçilərinin fəaliyyətinə nəzarət və bu məsələlərin tənzimlənməsi (qatarların və dəmir yollarının vəziyyəti, sərnişinlərin və yüklərin təhlükəsizliyi və bu qəbildən olan işlərin), dəmir yolu nəqliyyatı sistemlərinin işinə nəzarət və bu işin tənzimlənməsi (imtiyazların verilməsi, yük və sərnişin daşımalarının tariflərinin, nəqliyyat vasitələrinin hərəkətlərinin vaxtı və reyslərin tezliyinin və bu qəbildən olan işlərin müəyyən edilməsi), dəmir yollarının texniki xidmətinə və təmirinə nəzarət və bu məsələlərin tənzimlənməsi ilə bağlı xərclər;

- dəmir yolu nəqliyyatının qeyri-kommersiya təyinatlı sistemlərinin və onlara aid edilən qurğuların istismarı ilə bağlı xərclər;

- uzaq məsafələrə şəhərlərarası dəmir yolu daşımaları, sürətli şəhərdaxili tranzit xidməti və tramvay şəbəkələri ilə əlaqədar dəmir yolu nəqliyyatı sistemlərinə texniki xidmət və onların təmiri ilə bağlı xərclər;

- dəmir yolu nəqliyyatı sistemlərinin işi və dəmir yolları barədə məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və yığılması ilə bağlı xərclər;

- dəmir yolu nəqliyyatı sistemlərinin və onlara aid edilən qurğuların istismarı, texniki xidməti, təmiri və ya təkmilləşdirilməsinə köməklik göstərilməsi ilə bağlı xərclər daxildir.

**11.1.4. "Hava nəqliyyatı"** paraqrafına hava nəqliyyatı sistemləri və onlara aid edilən qurğuların (hava limanları, uçuş-enmə zolaqları, anbarlar, hava naviqasiya vasitələri və avadanlıqları, uçuşlara nəzarət vasitələri və bu qəbildən olan digər qurğuların) istismarı, istifadəsi, texniki xidməti və təmiri ilə bağlı xərclər;

- hava nəqliyyatı istifadəçilərinin fəaliyyətinə nəzarət və bu məsələlərin tənzimlənməsi (hava nəqliyyatı vasitələrinin, pilotların, ekipajların və yerdəki komandanlığın qeydiyyatı, sərnişinlərin təhlükəsizlik qaydaları, hava nəqliyyatında baş verən hadisələrin istintaqı və bu qəbildən olan işlərin), hava nəqliyyatı sistemlərinin işinə nəzarət və bu işin tənzimlənməsi (imtiyazların verilməsi, istiqamətlərin bölüşdürülməsi, hava nəqliyyatı ilə yük və sərnişin daşımalarının tariflərinin, reyslərin tezliyinin və xidmətin səviyyəsinin və bu qəbildən olan digər işlərin müəyyən edilməsi), hava nəqliyyatı qurğularının tikintisinə, texniki xidmətinə və təmirinə nəzarət və bu məsələlərin tənzimlənməsi ilə bağlı xərclər;

- hava nəqliyyatının qeyri-kommersiya təyinatlı xidmətlərinin və qurğularının istismarı ilə bağlı xərclər;

- naviqasiya vasitələri, qəza-xilasetmə xidmətləri, hava nəqliyyatı ilə müntəzəm və qeyri-müntəzəm yük və sərnişin daşımaları, ayrı-ayrı şəxslər tərəfindən həyata keçirilən uçuşların tənzimlənməsi və nəzarəti ilə bağlı xərclər;

- hava nəqliyyatı sistemlərinin işi və hava nəqliyyatına aid edilən qurğular haqqında ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması və yayılması ilə bağlı xərclər;

- hava nəqliyyatı sistemlərinin və onlara aid edilən qurğuların istismarı, texniki xidməti, təmiri və ya təkmilləşdirilməsinə kömək göstərilməsi ilə bağlı xərclər daxildir.

**11.1.5. "Boru kəməri və digər nəqliyyat növləri"** paraqrafına boru kəmərləri və digər nəqliyyat sistemlərinin (funikulyorlar, kanat yolları, asma yollar və bu qəbildən olan digər sistemlər) istismarı, istifadəsi, texniki xidməti və təmiri ilə bağlı xərclər;

- boru kəmərləri və digər nəqliyyat sistemləri istifadəçilərinin fəaliyyətlərinə nəzarət və bu məsələlərin tənzimlənməsi (qeydiyyat, icazənin verilməsi, avadanlığın yoxlanılması, texniki təhlükəsizlik qaydaları və bu qəbildən olan digər fəaliyyət), boru kəmərləri və digər nəqliyyat sistemlərinin işinə nəzarət və bu işin tənzimlənməsi (imtiyazların verilməsi, xidmət tariflərinin, tezliyinin, səviyyəsinin və bu qəbildən olan digər işin müəyyən edilməsi), boru kəmərlərinin və digər nəqliyyat sistemlərinin texniki xidmətinə və təmirinə nəzarətlə bağlı xərclər;

- qeyri-kommersiya təyinatlı boru kəmərlərinin və digər nəqliyyat sistemlərinin istismarı ilə bağlı xərclər;

- boru kəmərlərinin və digər nəqliyyat sistemlərinin istismarı haqqında ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və yığılması ilə bağlı xərclər;

- boru kəmərlərinin və digər nəqliyyat sistemlərinin istismarı, texniki xidməti, təmiri və ya təkmilləşdirilməsinə kömək göstərilməsi ilə bağlı xərclər daxildir.

**11.1.6. "Rabitə, informasiya və yüksək texnologiyalar"** paraqrafına rabitə sistemlərinin (poçt, telefon, teleqraf, simsiz və peyk rabitəsi sistemlərinin) genişləndirilməsi, təkmilləşdirilməsi, istismarı və texniki xidmətlə bağlı xərclər;

- rabitə, informasiya, kosmik və yüksək texnologiya sistemlərinin işinin tənzimlənməsi (imtiyazların, tezliklərin verilməsi, xidmət edilən bazarların, tariflərin və s.) ilə bağlı xərclər;

- rabitə, informasiya, yüksək texnologiya və kosmik sahələri ilə bağlı iş və xidmətlər üzrə məlumatların, texniki sənədlərin hazırlanması və yayılması ilə bağlı xərclər;

- rabitə sistemlərinin istismarı, texniki xidməti, təmiri və ya təkmilləşdirilməsinə köməklik göstərilməsi ilə bağlı xərclər;

- radio, kosmik və peyk naviqasiya sistemləri ilə bağlı xərclər daxildir.

**11.2.0. "İqtisadi və kommersiya fəaliyyəti"** köməkçi bölməsi "11.2.1. İqtisadi fəaliyyət", "11.2.2. Ticarət sahəsində fəaliyyət", "11.2.3. İaşə sahəsində fəaliyyət" və "11.2.4. Turizm" paraqraflarından ibarətdir.

**11.2.1. "İqtisadi fəaliyyət"** paraqrafına müxtəlif dövlət idarələri ilə işgüzar dairələr arasında əlaqələrin təmin edilməsi, ümumi idxal və ixrac, əmtəə və qiymətli kağız bazarları, tarif və qiymətlərə ümumi nəzarət, ticarətin inkişafına yardımla bağlı ümumi məsələlər, inhisarların fəaliyyətinin, ticarətin və bazara daxilolma münasibətlərinin digər məhdudiyyətlərinin və bu kimi digər işlərin tənzimlənməsi və ya onlara köməklik göstərilməsi, patentlərin və əmtəə nişanlarının verilməsi, müəllif hüquqları ilə bağlı məsələlər, şirkətlərin qeydiyyatı, standartlar və bu kimi fəaliyyətlə məşğul olan təşkilatların saxlanılması və onlara kömək göstərilməsi, bu siyasətin və proqramların həyata keçirilməsinə yardımla bağlı xərclər daxildir.

**11.2.2. "Ticarət sahəsində fəaliyyət"** paraqrafına topdan və pərakəndə ticarətlə bağlı xərclər;

- topdan və pərakəndə ticarətə nəzarət və bu işin tənzimlənməsi (icazənin verilməsi, ticarət qaydaları, ev təsərrüfatları tərəfindən istehlak olunan qablaşdırılmış ərzaq və digər malların qeydiyyatı, tərəzilərin və digər çəkici qurğuların yoxlanılması və bu qəbildən olan digər fəaliyyət), malların anbarlarda saxlanılmasına nəzarət və bu işlərin tənzimlənməsi (icazənin (lisenziyaların) verilməsi və anbarların fəaliyyətinə nəzarət) ilə bağlı xərclər;

- daxil edilmiş əmtəələrdən və ya ehtimal edilən istehlakçıdan asılı olmayaraq pərakəndə və topdansatış səviyyəsində tətbiq edilən qiymətlərə və normalara nəzarət məsələlərinin idarə edilməsi ilə bağlı xərclər;

- qiymətlər, əmtəələrin mövcudluğu, pərakəndə və bu qəbildən olan digər amilləri, həmçinin malların anbarlarda yığılıb saxlanılması barədə məlumatların toplanması, onların ticarət müəssisələri və ictimaiyyət arasında yayılması;

- topdan və pərakəndə satış ticarətinə, malların ambarlarda yığılıb saxlanılmasına köməklik göstərilməsi ilə bağlı xərclər daxildir.

**11.2.3. “İaşə sahəsində fəaliyyət”** paraqrafına iaşə müəssisələrinin (mehmanxanalar, restoranlar və bu qəbildən olan digər obyektlər) genişləndirilməsi, təmiri, istismarı və saxlanılması ilə bağlı xərclər;

- iaşə müəssisələrinin (mehmanxanalar, restoranlar və bu qəbildən olan digər obyektlər) fəaliyyətlərinə nəzarət və bu işlərin tənzimlənməsi (qiymətləri tənzimləyən qaydalar, sanitar normaları və xidmət qaydaları, mehmanxana və restoranların saxlanılması üçün icazənin (lisenziyaların) verilməsi və bu qəbildən olan digər fəaliyyətlər) ilə bağlı xərclər;
- iaşə müəssisələrinin (mehmanxanalar, restoranlar və bu qəbildən olan digər obyektlər) saxlanılması, iş və xidmətlər üzrə məlumatların, texniki sənədlərin hazırlanması, yayılması ilə bağlı xərclər;
- iaşə müəssisələrinin (mehmanxanalar, restoranlar və bu qəbildən olan digər obyektlər) istismarı, texniki xidməti, təmiri və ya təkmilləşdirilməsinə köməklik göstərilməsi ilə bağlı xərclər daxildir.

**11.2.4. “Turizm”** paraqrafına turizmin reklamı və inkişafı, turizmdən gəlir əldə edən nəqliyyat müəssisələri, mehmanxanalar, restoranlar və digər sahələrlə əlaqələrin yaradılması, ölkə daxilində və xaricdə yerləşən turist bürolarının idarə edilməsi, reklam və buna oxşar ədəbiyyatın yayılması da daxil edilməklə, reklam tədbirlərinin təşkili, turizm üzrə məlumatların yığılması və nəşri ilə bağlı xərclər daxildir.

**11.3.0. “Sənaye”** köməkçi bölməsinə sənayenin inkişafı, genişləndirilməsi və ya təkmilləşdirilməsi, sənaye müəssisələrinin tikintisinə və istismarına nəzarət və bu məsələlərin tənzimlənməsi, hazır sənaye məhsullarının istehsalı ilə bağlı xidmətlərlə məşğul olan  təşkilatlarla əlaqələrin təmin edilməsi, sənaye müəssisələrinin istehsal sahələrinin təhlükəsizlik texnikası qaydalarının monitorinqi, sənaye istehlakçılarının təhlükəli məhsullardan qorunması, sənaye və bu sahənin məhsulları haqqında məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və toplanması, sənayeyə kömək göstərilməsi ilə bağlı xərclər daxildir.

**11.4.0. “Tikinti və şəhərsalma”** köməkçi bölməsi “11.4.1. Tikinti”, “11.4.2. Şəhərsalma və xəritəçəkmə” və “11.4.3. Dövlət əsaslı vəsait qoyuluşu” paraqraflarından ibarətdir.

**11.4.1. “Tikinti”** paraqrafına tikinti sənayesinə nəzarət, tikinti standartlarının işlənilib hazırlanmasına və onlara riayət olunmasına nəzarət, tikinti ilə bağlı xidmətlər üzrə məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və yığılması, icarə hüququnu təsdiqləyən sənədlərin verilməsi, tikinti meydançalarının təhlükəsizlik texnikası qaydalarına cavab verməsinin yoxlanılması  ilə bağlı xərclər daxildir.

**11.4.2. “Şəhərsalma və xəritəçəkmə”** paraqrafına dövlət şəhərsalma norma və qaydalarının tərtibi, şəhərsalma proqramları və proqnozlarının hazırlanması və aparılması, şəhər və digər yaşayış məntəqələrinin baş planlarının, habelə rayon planlaşdırma sxemlərinin və müfəssəl planlaşdırma layihələrinin və xəritəçəkmə tərtibi tədbirlərinin, dövlət şəhərsalma kadastrının yaradılması, müvafiq komplekslərinin baş sxemlərinin, xüsusi şəraitdə ərazilərin məqsədyönlü bərpa planlarının hazırlanması ilə bağlı xərclər daxildir.

**11.4.3. “Dövlət əsaslı vəsait qoyuluşu”** paraqrafına hər ilin dövlət büdcəsi xərclərində nəzərdə tutulan dövlət əsaslı vəsait qoyuluşu (investisiya) hesabına obyektlərin tikintisi, bərpası, yenidən qurulması, əsaslı təmiri və yeni güclərin istifadəyə verilməsi ilə bağlı xərcləri daxildir. Bu paraqrafa, həmçinin həmin vəsait hesabına tikinti

aparılacaq sahələrdə mövcud obyektlərin söküntüsü ilə bağlı xərclər, yeni tikilmiş, bərpa olunmuş, əsaslı təmir edilmiş obyektlərin mebel, inventar və avadanlıqla təchiz olunması, ərazilərinin abadlaşdırılması, dövlət ehtiyacları üçün tikinti altına düşən torpaq və digər obyektlərin özgəninkiləşdirilməsi, layihə smeta sənədlərinin hazırlanması və həyata keçirilməsi ilə bağlı zəruri olan xərclər, layihələrdə pay iştirakı və bu qəbildən olan digər xərclər daxildir.

**11.5.0. "Geodeziya və faydalı qazıntılar"** köməkçi bölməsi "11.5.1. Geodeziya" və "11.5.2. Faydalı qazıntılar" paraqraflarından ibarətdir.

**11.5.1. "Geodeziya"** paraqrafına geodeziya axtarışlarının həyata keçirilməsi, onlara kömək göstərilməsi, bu siyasətin və proqramların həyata keçirilməsinə yardımla bağlı xərclər daxildir.

**11.5.2. "Faydalı qazıntılar"** paraqrafına metal mineralların, qum, gil, daş, kimyəvi xammal və gübrələrin, duz, qiymətli daşlar, asbest, gips və bu qəbildən olan digər mineralların hasilatı ilə bağlı xərclər, o cümlədən mədənçıxarma sənayesi və mineral ehtiyatların (neft və təbii qaz istisna olmaqla) saxlanılması, kəşfiyyatı, işlənməsi və səmərəli istifadəsi, mineral ehtiyatların kəşfiyyatına, hasilatına və satışına nəzarətin tənzimlənməsi, lisenziyaların verilməsi, icarə müqavilələrinin bağlanılması, hasilatın tempinin tənzimlənməsi, şaxtaların təhlükəsizlik texnikası qaydalarına cavab verməsi baxımından yoxlanılması, mədənçıxarma sənayesi və mineral ehtiyatlarla bağlı xidmətlər üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və yığılması, mineral ehtiyatların hasilatı üzrə kommersiya fəaliyyətinə kömək göstərilməsi ilə bağlı xərclər daxildir.

**11.6.0. "Yanacaq və enerji kompleksi"** köməkçi bölməsi "11.6.1. Neft və təbii qaz", "11.6.2. Digər yanacaq növləri", "11.6.3. Elektrik enerjisi" və "11.6.4. Digər enerji mənbələri" paraqraflarından ibarətdir.

**11.6.1.** "**Neft və təbii qaz"** paraqrafına təbii qaz və ya neft emalından alınan maye qazı, həmçinin quyulardan və ya bituminoz mineral mənbələrindən hasil edilən neftin, paylanılan qazın tərkibindən asılı olmayaraq, şəhərdaxili qaz təchizatı şəbəkəsinin idarə edilməsi, neft və təbii qazla əlaqədar xidmətlərə rəhbərlik, neft və qaz ehtiyatlarının saxlanılması, kəşfiyyatı, işlənilməsi və səmərəli istifadəsi, neft və təbii qazın hasilatı, emalı, bölüşdürülməsi, istifadəsi və nəzarət məsələlərinin tənzimlənməsi, neft və təbii qazla bağlı xidmətlər üzrə ümumi xarakterli məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və məlumatların yığılması, neft hasilatı sahəsinə xam neftin və maye məhsullarının təmizlənməsi sahələrinə kömək göstərilməsi ilə bağlı xərclər daxildir.

**11.6.2. "Digər yanacaq növləri"** paraqrafına spirt, odun, ağac tullantıları, digər yanacaq növlərinin istehsalı və istifadəsi haqqında məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və yığılması, enerjinin istehsalı üçün yanacağın bu növlərindən istifadə edilməsinə kömək göstərilməsi, hasilat və zənginləşdirmə üsulundan asılı olmayaraq kömür, qonur kömür və torfun bütün növləri, həmçinin yanacağın bu növlərinin koks və ya qaz kimi digər növlərə çevrilməsi, bərk mineral-yanacaq ehtiyatlarının saxlanılması, kəşfiyyatı, işlənməsi və səmərəli istifadəsi, bərk mineral yanacağın hasilatına, emalına, bölüşdürülməsinə və istifadəsinə nəzarət və bu məsələlərin tənzimlənməsi, bərk mineral yanacağın, nüvə yanacağı ehtiyatlarının saxlanması, kəşfiyyatı, işlənməsi və səmərəli istifadəsi, nüvə yanacağı xammalının hasilatı və emalı, həmçinin nüvə yanacağı elementlərinin istehsalı, bölüşdürülməsi və istifadəsinə nəzarətin

tənzimlənməsi, nüvə materiallarının hasilatı və emalı sahələrinə kömək göstərilməsi məqsədi ilə bağlı xərclər daxildir.

**11.6.3. "Elektrik enerjisi"** paraqrafına elektrik enerjisi növlərinin ehtiyatlarının yaradılması, saxlanılması, işlənilməsi və səmərəli istifadəsi, elektrik enerjisinin istehsalı, ötürülməsi və bölüşdürülməsi, elektrik enerjisi təchizatının yaxşılaşdırılması ilə bağlı qeyri-kommersiya sistemlərinin tikintisi və ya istismarı, elektroenergetika ilə bağlı xidmətlər üzrə məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və məlumatların yığılması, elektrik enerjisinin istehsalı üçün yaradılmış bəndlərin və digər qurğuların saxlanılması xərcləri daxildir.

**11.6.4. "Digər enerji mənbələri "** paraqrafına energetika sahəsində buxar, isti su və ya isti hava şəklində istiliyin istehsalı, bölüşdürülməsi və istifadəsi, alternativ enerji mənbələrindən istifadə, məlumatların, texniki sənədlərin hazırlanması, yayılması və yığılması, elektrik enerjisi istisna olmaqla, enerjinin istifadə edilməsinə yardım edilməsi ilə bağlı xərclər daxildir.

**11.8.0. "İqtisadi fəaliyyət sahələri üzrə tətbiqi tədqiqatlar"** köməkçi bölməsinə ümumi iqtisadi fəaliyyət ilə bağlı tətbiqi tədqiqat və təcrübi işləri həyata keçirən təşkilatların saxlanılması, onların idarə edilməsi, iqtisadi məsələləri ilə bağlı həyata keçirilən tətbiqi tədqiqatlara və təcrübi işlərə kömək göstərilməsi xərcləri daxildir.

**11.9.0. "İqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər"** köməkçi bölməsinə "11.9.1. Dövlət əmlakının özəlləşdirməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması", "11.9.2. Sahibkarlığın inkişafı ilə bağlı tədbirlər", "11.9.3. Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələri", "11.9.4. Beynəlxalq kredit reytinqinin müəyyən olunması" və "11.9.9. Digər iqtisadi xidmətlər" paraqrafları daxildir.

**11.9.1. "Dövlət əmlakının özəlləşdirməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması"** paraqrafına özəlləşən müəssisələrin özəlləşdirməqabağı sağlamlaşdırılması üçün ayrılan vəsait və onunla bağlı informasiya təminatı, xarici məsləhətçilərin xidmətlərinin ödənilməsi, özəlləşdirmədən sonra müəssisələrin sağlamlaşdırılması siyasətinin və proqramların işlənilib hazırlanması və onların həyata keçirilməsinə yardımla bağlı və bu qəbildən olan digər xərclər daxildir.

**11.9.2. "Sahibkarlığın inkişafı ilə bağlı tədbirlər"** paraqrafına ölkədə sahibkarlığın inkişafı ilə bağlı (dövlət tərəfindən sahibkarlığın inkişafına ayrılan dotasiya, subsidiya, subvensiya və s.) xərclər daxildir. Sahibkarlığın inkişafı ilə bağlı işlərin tənzimlənməsi, iş və xidmətlər üzrə məlumatların, texniki sənədlərin hazırlanması, yayılması ilə bağlı xərclər daxildir.

**11.9.3. "Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələri"** paraqrafına Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin və onların aparatının saxlanılması ilə bağlı xərclər daxildir.

**11.9.4. "Beynəlxalq kredit reytinqinin müəyyən olunması"** paraqrafına Azərbaycan Respublikasının investisiya cəlbediciliyinin artırılması məqsədilə kredit reytinqinin müəyyən olunması ilə bağlı xərclər daxildir.

**11.9.9. "Digər iqtisadi xidmətlər"** paraqrafına insan ehtiyatları sahəsində ümumi siyasətin işlənilib hazırlanması və həyata keçirilməsi, əmək şərtlərinə (iş günün müddəti, əməkhaqqının məbləği, təhlükəsizlik texnikası və bu qəbildən olan digər fəaliyyət) nəzarət və onların tənzimlənməsi, müxtəlif dövlət idarələri və sənaye, sahibkarlar və həmkarlar ittifaqları təşkilatları arasında əlaqələrin təmin edilməsi ilə bağlı xərclər;

- insan ehtiyatlarının idarə olunmasının artırılması, cinsi, irqi, yaş və digər əlamətlərə görə ayrı-seçkiliyin aradan qaldırılması, iqtisadi cəhətdən zəif inkişaf etmiş və ya əlverişsiz vəziyyətdə olan rayonlarda işsizliyin səviyyəsinin aşağı salınması, əhalinin məşğulluğuna yardım göstərilməsinə və bu qəbildən olan digər fəaliyyətə yönəldilmiş ümumi proqram və işlərin idarə edilməsi və onlara kömək göstərilməsi, əmək birjalarının fəaliyyətinin təşkili, arbitraj və vasitəçilik xidmətlərinin idarə edilməsi və ya onlara kömək göstərilməsi ilə bağlı xərclər;

- insan ehtiyatlarına aid edilən məsələlər və xidmətlər üzrə məlumatların, texniki sənədlərin hazırlanması və yayılması ilə bağlı xərclər;

- insan ehtiyatları üzrə siyasətin və proqramların işlənilib hazırlanması və onların həyata keçirilməsinə yardımla bağlı xərclər;

- yenidən qurulma, genişləndirilmə, istismar və texniki xidmətlərlə bağlı geniş məqsədli inkişaf layihələrinin, iş və xidmətlər üzrə məlumatların, texniki sənədlərin hazırlanması və yayılması ilə bağlı xərclər;

- sanitariya norma və qaydalarının, habelə gigiyena normativlərinin hazırlanmasını və təsdiqini, risklərin təhlilini, qida məhsullarının və onları qablaşdırma materiallarının dövlət qeydiyyatına alınmasını, xarici ölkələrə ixrac edilən qida məhsullarına qida təhlükəsizliyi sertifikatının verilməsini, baytarlıq, bitki mühafizəsi və karantini sahələri istisna olmaqla, məhsulun daşıdığı risk səviyyəsinə uyğun olaraq, qida məhsullarının istehsalı, tədarükü, qablaşdırılması, saxlanması, daşınması, dövriyyəsi (o cümlədən idxal-ixrac əməliyyatları), ictimai iaşə və xidmət sahələrində istifadəsi, utilizasiyası və məhv edilməsi də daxil olmaqla, qida zəncirinin bütün mərhələlərində qida təhlükəsizliyinə və qida məhsulları istehlakçılarının hüquqlarının müdafiəsinə dövlət nəzarətini, habelə qeyd olunan sahələrdə dövlət siyasətinin və tənzimləməsinin həyata keçirilməsinə çəkilən xərclər, habelə 11.9.1-11.9.4-cü paraqraflarında nəzərdə tutulmayan və mahiyyət etibarilə iqtisadi fəaliyyət hesab edilən digər müəssisə və tədbirlərin xərcləri daxildir.

**12.0.0. "Əsas bölmələrə aid edilməyən xidmətlər"** bölməsi "12.1.0. Ehtiyat fondları", "12.2.0 Məqsədli büdcə fondları", "12.3.0. Valyuta konvertasiyası" və "12.9.0. Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət" köməkçi bölmələrindən ibarətdir.

**12.1.0. "Ehtiyat fondları"** köməkçi bölməsinə nəzərdə tutulmayan xərclər, habelə dövlət və yerli əhəmiyyətli tədbirlərin həyata keçirilməsi üçün büdcə sisteminə daxil olan büdcələrdə nəzərdə tutulmuş ehtiyat fondlarının vəsaitləri daxildir.

**12.2.0 "Məqsədli büdcə fondları"** köməkçi bölməsinə dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin və yerli büdcələrin tərkib hissəsi kimi yaradılan məqsədli büdcə fondlarının xərcləri daxildir.

**12.3.0. "Valyuta konvertasiyası"** köməkçi bölməsinə valyutalararası mübadilənin həyata keçirilməsi ilə əlaqədar tələb olunan xərclər daxildir.

**12.9.0. "Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət"** köməkçi bölməsinə baş verə biləcək risklərin (itkilərin) sığortalanması (hedcinq) ilə bağlı və 12.1.0-12.3.0-cı köməkçi bölmələrinə aid edilməyən xərclər daxildir.

## Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatı

| Bölmə | Köməkçi bölmə | Paraqraf | Maddə | Yarımmadə | Kod |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| Əməyin ödənişi | | | | | 210000 |
| | Əməkhaqqı | | | | 211000 |
| | | Ştatda olan işçilərin əməkhaqqı | | | 211100 |
| | | Ştatdankənar işçilərin əməkhaqqı | | | 211200 |
| | | Əməyin ödənişi ilə bağlı digər pul ödənişləri | | | 211900 |
| | Əmək haqqına görə ayırmalar | | | | 212000 |
| | | Məcburi dövlət sosial sığorta haqları | | | 212100 |
| | | İcbari dövlət sığortası | | | 212200 |
| | | İcbari tibbi sığorta | | | 212300 |
| | | İşsizlikdən sığorta | | | 212400 |
| Malların (işlərin və xidmətin) satınalınması | | | | | 220000 |
| | Malların satınalınması | | | | 221000 |
| | | Dəftərxana və təsərrüfat xərcləri | | | 221100 |
| | | Mətbəə məhsulları üzrə xərclər | | | 221200 |
| | | Yanacaq və sürtkü materiallarının alınması | | | 221300 |
| | | Dərman, sarğı ləvazimatlarının və materiallarının alınması | | | 221400 |
| | | Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınması | | | 221500 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | | Ərzaq məhsullarının alınması və təminatı | | | 221600 |
| | | Digər malların alınması | | | 221900 |
| | İş və xidmətlərin alınması | | | | 222000 |
| | | Cari təmir | | | 222100 |
| | | | Tikili və avadanlıqların cari təmir xərcləri | | 222110 |
| | | | Nəqliyyat vasitələrinin cari təmir xərcləri | | 222120 |
| | | | Sair torpaq, tikili və avadanlıqların cari təmir xərcləri | | 222130 |
| | | Kommunal xidmətlərin haqqının ödənilməsi | | | 222200 |
| | | | Elektrik enerjisi haqqının ödənilməsi | | 222210 |
| | | | Qaz haqqının ödənilməsi | | 222220 |
| | | | Su haqqının ödənilməsi | | 222230 |
| | | | Kanalizasiya xidmətləri haqqının ödənilməsi | | 222240 |
| | | | İstilik enerjisi (yanacaq) haqqının ödənilməsi | | 222250 |
| | | | Digər kommunal xidmətlərin haqqının ödənilməsi | | 222290 |
| | | Rabitə xidmətləri haqqının ödənilməsi | | | 222300 |
| | | | Telefon danışıq haqlarının ödənilməsi | | 222310 |
| | | | | Ölkədaxili telefon danışıq haqlarının ödənilməsi | 222311 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | | | | Beynəlxalq telefon danışıqları haqlarının ödənilməsi | 222312 |
| | | | Poçt xidmətləri haqqının ödənilməsi | | 222320 |
| | | | İnternet xidməti haqqının ödənilməsi | | 222330 |
| | | | Proqram təminatlarına xidmət haqlarının ödənilməsi | | 222340 |
| | | Əsas fondların və digər aktivlərin icarəsi, kirayəsi, saxlanılması və mühafizəsi xərcləri | | | 222400 |
| | | | İcarə və muzdlu xidmətlər | | 222410 |
| | | | Kirayə haqqı | | 222420 |
| | | | Mühafizə xərcləri | | 222430 |
| | | | Əsas fondların və digər aktivlərin saxlanılması xərcləri | | 222440 |
| | | | | Əsas fondlara xidmət haqqı xərcləri | 222441 |
| | | | | Sanitariya-gigiyena və digər xidmət haqqı xərcləri | 222442 |
| | | Ezamiyyə xərcləri | | | 222500 |
| | | | Ölkədaxili ezamiyyətlər | | 222510 |
| | | | Xarici ezamiyyətlər | | 222520 |
| | | Nəqliyyat vasitələri, istehsal təyinatlı maşın, avadanlıq və qurğular üzrə xidmət haqlarının ödənilməsi | | | 222600 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | | Elmi tədqiqat xidmətləri, təcrübə və müayinələrin haqqının ödənilməsi | | | 222700 |
| | | Geoloji-kəşfiyyat və topoqrafiya-geodeziya xidmətləri haqqının ödənilməsi | | | 222800 |
| | | Digər iş və xidmətlərin haqqının ödənilməsi | | | 222900 |
| | | | Atributların, mükafatlandırma nişanlarının hazırlanması, təltif və mükafatlandırma ilə bağlı xərclər | | 222910 |
| | | | İstehlak yönlü müxtəlif xidmətlər | | 222920 |
| | | | Abadlaşdırma xidmətləri haqqının ödənilməsi | | 222930 |
| | | | Bank və plastik kartların xərcləri | | 222940 |
| | | | | Bank xidmətləri haqqının ödənilməsi | 222941 |
| | | | | Plastik kartların dəyəri və digər ödənişlər | 222942 |
| | | | Əməyin mühafizəsi xərcləri | | 222950 |
| | | | Sair xərclər | | 222990 |
| | Beynəlxalq təşkilatlara üzvlüklə bağlı ödənişlər | | | | 223000 |
| | Təmsilçilik və təşviqat xərcləri | | | | 224000 |
| | | Təmsilçilik xərcləri | | | 224100 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | | | Beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi | | 224110 |
| | | | Xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi | | 224120 |
| | | Təşviqat xərcləri | | | 224200 |
| | | | İxracın və xarici investisiyaların təşviqi | | 224210 |
| | | | Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqlarının təşviqat fəaliyyəti üzrə xərclər | | 224220 |
| Köhnəlmə | | | | | 230000 |
| Faizlər üzrə ödənişlər | | | | | 240000 |
| | Qeyri - rezidentlər üzrə ödənişlər | | | | 241000 |
| | | Maliyyə-kredit institutları və təşkilatları üzrə ödənişlər | | | 241100 |
| | | Xarici dövlətlərə ödənişlər | | | 241200 |
| | Dövlət idarəetmə sektoru üzrə ödənişlər | | | | 242000 |
| | | Mərkəzi dövlət idarəetmə orqanları üzrə ödənişlər | | | 242100 |
| | | Digər idarəetmə orqanları üzrə ödənişlər | | | 242200 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | Dövlət idarəetmə sektoruna aid olmayan təşkilatlar üzrə ödənişlər | | | | 243000 |
| | | Mərkəzi Bank üzrə ödənişlər | | | 243100 |
| | | Dövlət təşkilatları üzrə ödənişlər | | | 243200 |
| | | Publik hüquqi şəxslər üzrə ödənişlər | | | 243300 |
| | | Digər təşkilatlar üzrə ödənişlər | | | 243900 |
| Subsidiya lar | | | | | 250000 |
| | Naxçıvan Muxtar Respublikasının büdcəsinə subsidiyalar | | | | 251000 |
| | Yerli büdcələrə subsidiyalar | | | | 252000 |
| | Hüquqi şəxslərə subsidiyalar | | | | 253000 |
| | | Dövlət müəssisələrinə subsidiyalar | | | 253100 |
| | | Qeyri-dövlət müəssisələrinə subsidiyalar | | | 253200 |
| Qrantlar və digər ödənişlər | | | | | 260000 |
| | Rezidentlərə verilən qrantlar və digər ödənişlər | | | | 261000 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | | Cari məqsədlər üçün verilən qrantlar və digər ödənişlər | | | 261100 |
| | | Əsaslı məqsədlər üçün verilən qrantlar və digər ödənişlər | | | 261200 |
| | | Dotasiya | | | 261300 |
| | | | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya | | 261310 |
| | | | Yerli büdcələrə verilən dotasiya | | 261320 |
| | | Subvensiya | | | 261400 |
| | | | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən subvensiya | | 261410 |
| | | | Yerli büdcələrə verilən subvensiya | | 261420 |
| | Qeyri-rezidentlərə verilən qrantlar və digər ödənişlər | | | | 262000 |
| | | Xarici dövlətlərə verilən qrantlar və digər ödənişlər | | | 262100 |
| | | Beynəlxalq təşkilatlara verilən qrantlar və digər ödənişlər | | | 262200 |
| | | Digər qeyri-rezidentlərə verilən qrantlar və digər ödənişlər | | | 262300 |
| Sosial ödənişlər | | | | | 270000 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | Sosial sığorta | | | | 271000 |
| | | Əmək pensiyası | | | 271100 |
| | | | Yaşa görə əmək pensiyası | | 271110 |
| | | | | Yaşa görə əmək pensiyasının sığorta hissəsi | 271111 |
| | | | | Yaşa görə əmək pensiyasının yığım hissəsi | 271112 |
| | | | Əlilliyə görə əmək pensiyası | | 271120 |
| | | | | Əlilliyə görə əmək pensiyasının sığorta hissəsi | 271121 |
| | | | | Əlilliyə görə əmək pensiyasının yığım hissəsi | 271122 |
| | | | Ailə başçısını itirməyə görə əmək pensiyası | | 271130 |
| | | Müavinət | | | 271200 |
| | | | 3 yaşınadək uşağa qulluğa görə müavinət | | 271210 |
| | | | Əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinət | | 271220 |
| | | | Uşağın doğulması ilə bağlı müavinət | | 271230 |
| | | | Hamiləliyə və doğuşa görə müavinət | | 271240 |
| | | | Əmək zədəsi və ya peşə xəstəliyi üzrə ödənişlər | | 271250 |
| | | | Dəfn üçün müavinət | | 271260 |
| | | | Digər müavinətlər | | 271290 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | | Digər sosial sığorta ödənişləri | | | 271900 |
| | | | Məşğulluq tədbirləri üzrə ödənişlər | | 271910 |
| | | | | Işsizlik sığorta ödənişi | 271911 |
| | | | | Peşə hazırlığı və əlavə təhsilin təşkili | 271912 |
| | | | | Haqqı ödənilən ictimai işlərin təşkili | 271913 |
| | | | | Peşəyönümünə dair məsləhət xidmətlərinin göstərilməsi | 271914 |
| | | | | Özünəməşğulluq tədbirlərinin təşkili | 271915 |
| | | | | Əmək yarmarkalarının və əmək birjalarının təşkili | 271916 |
| | | | | Sığortaedənlərlə birlikdə sığortaolunanların əməkhaqqının maliyyələşdirilməsi | 271917 |
| | | | | Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunması | 271918 |
| | | | | Məşğulluq tədbirləri üzrə digər ödənişlər | 271919 |
| | | | Əlilliklə bağlı ödənişlər | | 271920 |
| | | | | Əlillərin sağlamlığının mühafizəsi və tibbi bərpası | 271921 |
| | | | | Reabilitasiya tədbirlərinin təşkili | 271922 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | | | | Əlillərə maddi və texniki yardımın təşkili | 271923 |
| | | | | Digər ödənişlər | 271929 |
| | Sosial yardım | | | | 272000 |
| | | Ünvanlı dövlət sosial yardımı | | | 272100 |
| | | Aztəminatlı ailələrə verilən uşaq müavinətləri | | | 272200 |
| | | | Şəhid olanların uşaqlarına müavinətlər | | 272210 |
| | | | Müharibə və 20 yanvar hadisəsi zamanı əlil olan ailələrin uşaqlarına aylıq müavinət | | 272220 |
| | | | Çernobıl qəzasının nəticələrinin aradan qaldırılması ilə bağlı müavinət | | 272230 |
| | | | Müddətli həqiqi hərbi xidmətdə olan ailələrin uşaqlarına müavinət | | 272240 |
| | | | Bir yaşadək uşağı olan aztəminatlı ailələrə müavinət | | 272250 |
| | | | Digər müavinətlər | | 272290 |
| | | Dövlət sosial yardımı | | | 272300 |
| | | | Yaşa görə müavinət | | 272310 |
| | | | Əlilliyə görə müavinət | | 272320 |
| | | | Sağlamlıq imkanları məhdud 16 yaşadək əlil uşaqlara müavinət | | 272330 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | | | Ailə başçısını itirməyə görə müavinət | | 272340 |
| | | | Qəyyumluğa görə müavinət | | 272350 |
| | | | Müalicə xərci | | 272360 |
| | | | Digər müavinətlər | | 272390 |
| | | Kommunal güzəştlər | | | 272400 |
| | | | Şəhid ailəsi üzvlərinə müavinət | | 272410 |
| | | | Müharibə veteranlarına müavinət | | 272420 |
| | | | Digər müavinətlər | | 272490 |
| | | Təqaüdlər | | | 272500 |
| | | | Fəxri adlara görə təqaüd | | 272510 |
| | | | Milli Qəhrəman adını alanlara verilən təqaüd | | 272520 |
| | | | 20 yanvar şəhidlərinin ailələrinə verilən təqaüd | | 272530 |
| | | | Fərdi təqaüdlər | | 272540 |
| | | | Şəhid ailələrinə verilən təqaüdlər | | 272550 |
| | | | 20 yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə verilən təqaüd | | 272560 |
| | | | Tələbələrə verilən təqaüdlər | | 272570 |
| | | | Digər təqaüdlər | | 272590 |
| | | Məcburi köçkünlərə və məskunlaşmamış qaçqınlara ödənişlər | | | 272600 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | | | Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərə ödənişlər | | 272610 |
| | | | Digər ödənişlər | | 272690 |
| | | Sosial yardım üzrə digər ödənişlər | | | 272900 |
| | | | Xidmət göstərənlərə ödənişlər | | 272910 |
| | | | Avtomobil növbəsində dayanan əlillərə kompensasiya | | 272920 |
| | | | Xüsusi təhsilə cəlb edilənlərə müavinət | | 272930 |
| | | | İnsan alverindən zərər çəkmişlərə müavinət | | 272940 |
| | | | Digər ödənişlər | | 272990 |
| | Digər sosial ödənişlər | | | | 279000 |
| | | Dövlət qulluqçularına ödənişlər | | | 279100 |
| | | Natura formada olan müavinətlər | | | 279200 |
| | | Kommunal və digər xidmətlərə görə təzminat (kompensasiya) | | | 279300 |
| | | Digər müavinətlər | | | 279900 |
| Qeyri-maliyyə aktivləri | | | | | 310000 |
| | Torpaq, tikili və avadanlıqlar | | | | 311000 |
| | | Tikili və avadanlıqlar | | | 311100 |
| | | | Yaşayış binaları | | 311110 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | | | | Yaşayış binalarının alınması | 311111 |
| | | | | Yaşayış binalarının tikintisi | 311112 |
| | | | Qeyri-yaşayış binaları | | 311120 |
| | | | | Qeyri-yaşayış binalarının alınması | 311121 |
| | | | | Qeyri-yaşayış binalarının tikintisi | 311122 |
| | | | Qurğular (tikintilər) | | 311130 |
| | | | | Qurğuların (tikintilərin) alınması | 311131 |
| | | | | Qurğuların (tikintilərin) tikintisi | 311132 |
| | | | Ötürücü qurğular | | 311140 |
| | | | | Ötürücü qurğuların alınması | 311141 |
| | | | | Ötürücü qurğuların tikilməsi | 311142 |
| | | | Maşın və avadanlıqlar | | 311150 |
| | | Nəqliyyat vasitələri | | | 311200 |
| | | | Hava nəqliyyatı vasitələri | | 311210 |
| | | | Dəmiryolu nəqliyyatı vasitələri | | 311220 |
| | | | Su nəqliyyatı vasitələri | | 311230 |
| | | | Xidmət nəqliyyatı vasitələri | | 311240 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | | | İstehsalat nəqliyyatı vasitələri | | 311250 |
| | | | Avtomobil nəqliyyatı vasitələri | | 311260 |
| | | | İdman nəqliyyatı vasitələri | | 311270 |
| | | Sair torpaq, tikili və avadanlıqlar | | | 311900 |
| | Əsaslı təmir | | | | 312000 |
| | | Tikili və avadanlıqların əsaslı təmiri | | | 312100 |
| | | | Yaşayış binalarının əsaslı təmiri | | 312110 |
| | | | Qeyri-yaşayış binalarının əsaslı təmiri | | 312120 |
| | | | Qurğuların (tikintilərin) əsaslı təmiri | | 312130 |
| | | | Ötürücü qurğuların əsaslı təmiri | | 312140 |
| | | | Maşın və avadanlıqların əsaslı təmiri | | 312150 |
| | | Nəqliyyat vasitələrinin əsaslı təmiri | | | 312200 |
| | | Sair torpaq, tikili və avadanlıqların əsaslı təmiri | | | 312900 |
| | Əsaslı vəsait qoyuluşu (investisiya) xərci | | | | 313000 |
| | Qeyri-maddi aktivlər | | | | 314000 |
| | Bioloji aktivlər | | | | 315000 |
| | Sair uzunmüddətli qeyri-maliyyə aktivləri | | | | 316000 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | Maddi-istehsal ehtiyatları | | | | 317000 |
| | Qeyri-istehsal aktivləri | | | | 318000 |
| | | Torpaq | | | 318100 |
| | | Yeraltı aktivlər və digər təbii aktivlər | | | 318200 |
| Maliyyə aktivləri üzrə əməliyyatlar | | | | | 320000 |
| | Daxili | | | | 321000 |
| | | Valyuta və depozitlər | | | 321100 |
| | | Səhmlər istisna olmaqla qiymətli kağızlar | | | 321200 |
| | | | Qısamüddətli | | 321210 |
| | | | | İl ərzində alınmış | 321211 |
| | | | | İl ərzində satılmış | 321212 |
| | | | Uzunmüddətli | | 321220 |
| | | | | İl ərzində alınmış | 321221 |
| | | | | İl ərzində satılmış | 321222 |
| | | Ssudalar | | | 321300 |
| | | | Qısamüddətli | | 321310 |
| | | | | İl ərzində alınmış | 321311 |
| | | | | İl ərzində qaytarılmış | 321312 |
| | | | Uzunmüddətli | | 321320 |
| | | | | İl ərzində alınmış | 321321 |
| | | | | İl ərzində qaytarılmış | 321322 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | | Səhm və digər kapital | | | 321400 |
| | | | Qısamüddətli | | 321410 |
| | | | | İl ərzində alınmış | 321411 |
| | | | | İl ərzində satılmış | 321412 |
| | | | Uzunmüddətli | | 321420 |
| | | | | İl ərzində alınmış | 321421 |
| | | | | İl ərzində satılmış | 321422 |
| | | Törəmə maliyyə alətləri | | | 321500 |
| | | Digər maliyyə aktivləri | | | 321900 |
| | Xarici | | | | 322000 |
| | | Valyuta və depozitlər | | | 322100 |
| | | | Xəzinənin vahid hesabı | | 322110 |
| | | | Gəlirlər üzrə tranzit hesab | | 322120 |
| | | Səhmlər istisna olmaqla qiymətli kağızlar | | | 322200 |
| | | | Qısamüddətli | | 322210 |
| | | | | İl ərzində alınmış | 322211 |
| | | | | İl ərzində satılmış | 322212 |
| | | | Uzunmüddətli | | 322220 |
| | | | | İl ərzində alınmış | 322221 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | | | | İl ərzində satılmış | 322222 |
| | | Ssudalar | | | 322300 |
| | | | Qısamüddətli | | 322310 |
| | | | | İl ərzində alınmış | 322311 |
| | | | | İl ərzində qaytarılmış | 322312 |
| | | | Uzunmüddətli | | 322320 |
| | | | | İl ərzində alınmış | 322321 |
| | | | | İl ərzində qaytarılmış | 322322 |
| | | Səhm və digər kapital | | | 322400 |
| | | | Qısamüddətli | | 322410 |
| | | | | İl ərzində alınmış | 322411 |
| | | | | İl ərzində satılmış | 322412 |
| | | | Uzunmüddətli | | 322420 |
| | | | | İl ərzində alınmış | 322421 |
| | | | | İl ərzində satılmış | 322422 |
| | | Törəmə maliyyə alətləri | | | 322500 |
| | | Digər maliyyə aktivləri | | | 322900 |
| | Qızıl və SDR | | | | 323000 |
| Öhdəliklər üzrə əməliyyatlar | | | | | 330000 |
| | Daxili | | | | 331000 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | | Valyuta və depozitlər | | | 331100 |
| | | Səhmlər istisna olmaqla qiymətli kağızlar | | | 331200 |
| | | | Qısamüddətli | | 331210 |
| | | | Uzunmüddətli | | 331220 |
| | | Ssudalar | | | 331300 |
| | | | Qısamüddətli | | 331310 |
| | | | | İl ərzində alınmış | 331311 |
| | | | | İl ərzində qaytarılmış | 331312 |
| | | | Uzunmüddətli | | 331320 |
| | | | | İl ərzində alınmış | 331321 |
| | | | | İl ərzində qaytarılmış | 331322 |
| | | Səhm və digər kapital | | | 331400 |
| | | | Qısamüddətli | | 331410 |
| | | | | İl ərzində alınmış | 331411 |
| | | | | İl ərzində qaytarılmış | 331412 |
| | | | Uzunmüddətli | | 331420 |
| | | | | İl ərzində alınmış | 331421 |
| | | | | İl ərzində qaytarılmış | 331422 |
| | | Digər maliyyə öhdəlikləri | | | 331500 |
| | Xarici | | | | 332000 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | | Valyuta və depozitlər | | | 332100 |
| | | Səhmlər istisna olmaqla qiymətli kağızlar | | | 332200 |
| | | | Qısamüddətli | | 332210 |
| | | | Uzunmüddətli | | 332220 |
| | | Ssudalar | | | 332300 |
| | | | Qısamüddətli | | 332310 |
| | | | | İl ərzində alınmış | 332311 |
| | | | | İl ərzində qaytarılmış | 332312 |
| | | | Uzunmüddətli | | 332320 |
| | | | | İl ərzində alınmış | 332321 |
| | | | | İl ərzində qaytarılmış | 332322 |
| | | Səhm və digər kapital | | | 332400 |
| | | | Qısamüddətli | | 332410 |
| | | | | İl ərzində alınmış | 332411 |
| | | | | İl ərzində qaytarılmış | 332412 |
| | | | Uzunmüddətli | | 332420 |
| | | | | İl ərzində alınmış | 332421 |
| | | | | İl ərzində qaytarılmış | 332422 |
| | | Digər maliyyə öhdəlikləri | | | 332500 |

**Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə**

Büdcə xərclərinin iqtisadi təsnifatı əvəzsiz və ya qaytarılmaq şərti ilə büdcələr tərəfindən aparılan ödənişlərdən ibarətdir. Büdcə xərclərinin iqtisadi təsnifatı bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddələrdən ibarətdir. İqtisadi təsnifat 2 və 3 rəqəmləri ilə başlanılmaqla, 6 rəqəmli koddan ibarətdir. Kodun birinci rəqəmi iqtisadi təsnifatı, ikinci rəqəm bölməni, üçüncü rəqəm köməkçi bölməni, dördüncü rəqəm paraqrafı, beşinci rəqəm maddəni, altıncı rəqəm isə yarımmaddəni göstərir.

**210000. "Əməyin ödənişi"** bölməsinin xərclərinə "211000. Əməkhaqqı" və "212000. Əməkhaqqı üzrə işəgötürənlərin ödənişləri" köməkçi bölmələrinin xərcləri daxil edilir.

**211000. "Əməkhaqqı"** köməkçi bölməsinin xərclərinə "211100. Ştatda olan işçilərin əməkhaqqı", "211200. Ştatdankənar işçilərin əməkhaqqı" və "211900. Əməyin ödənişi ilə bağlı digər pul ödənişləri" paraqraflarının xərcləri daxildir.

**211100. "Ştatda olan işçilərin əməkhaqqı"** paraqrafına ştatda olan işçilərin və qulluqçuların pul formasında aldıqları vəzifə (tarif) maaşı, vəzifə maaşına əlavələr, məzuniyyətə görə kompensasiya (istifadə edilməmiş məzuniyyətə görə kompensasiya daxil olmaqla) və hərbi qulluqçuların (xüsusi rütbəsi olan əməkdaşların) pul təminatı ilə bağlı xərclər daxildir.

**211200. "Ştatdankənar işçilərin əməkhaqqı"** paraqrafına təşkilatların daimi ştatında olmayan və mülki-hüquqi müqavilə əsasında işlərin yerinə yetirilməsi üçün cəlb olunan şəxslərə hesablanmış əməkhaqlarının ödənişi ilə bağlı xərclər daxildir.

**211900. "Əməyin ödənişi ilə bağlı digər pul ödənişləri"** paraqrafına işçilərə, hərbi qulluqçulara (xüsusi rütbəsi olan əməkdaşlara) verilən mükafatlar, maddi yardımlar, dövlət orqanlarında çalışan işçilərə verilən bütün növ müavinətlər (279100-cü köməkçi bölməsində nəzərdə tutulanlar istisna olmaqla), hakimlərə səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı vergilərdən azad olunan aylıq pul təminatı, diplomatik xidmət əməkdaşlarına vəzifəyə təyin olunduqları diplomatik nümayəndəliklərdə birdəfəlik müavinət, ilk dəfə hakim vəzifəsinə təyin olunan şəxslərə ödənilən birdəfəlik yardım, həmçinin istirahət, bayram və ümumxalq hüzn günü işə çıxmağa, əlavə iş saatlarına görə verilən ödənişlərlə bağlı xərclər daxildir.

**212000. "Əmək haqqına ayırmalar"** köməkçi bölməsinə müəyyənləşdirilmiş normativlərə əsasən işəgötürənlərin sosial müdafiə ayırmaları üzrə xərclər daxil edilir. Bu köməkçi bölməyə "212100. Məcburi dövlət sosial sığorta haqları", "212200. İcbari dövlət sığortası", "212300. İcbari tibbi sığorta" və "212400. İşsizlikdən sığorta" paraqraflarının xərcləri daxildir.

**212100. "Məcburi dövlət sosial sığorta haqları"** paraqrafına işçi və qulluqçuların əmək haqlarına hesablanan və Dövlət Sosial Müdafiə Fonduna köçürülən xərclər daxildir.

**212200. "İcbari dövlət sığortası"** paraqrafına qanunvericiliyə uyğun olaraq istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta ilə bağlı xərclər daxil edilir.

**212300. "İcbari tibbi sığorta"** paraqrafına icbari tibbi sığorta ilə bağlı xərclər daxildir.

**212400. "İşsizlikdən sığorta"** paraqrafına işsizlikdən sığorta ilə bağlı xərclər daxildir.

**220000. "Malların (işlərin və xidmətin) satınalınması"** bölməsinə "221000. Malların satın alınması" və "222000. İş və xidmətlərin alınması" köməkçi bölmələrinin xərcləri daxildir.

**221000. "Malların satınalınması"** köməkçi bölməsinə "221100. Dəftərxana və təsərrüfat xərcləri", "221200. Mətbəə məhsulları üzrə xərclər", "221300.Yanacaq və sürtkü

materiallarının alınması”, “221400. Dərman, sarğı ləvazimatlarının və materiallarının alınması”, “221500. Yumşaq inventar, yataq ləvazimatlarının və xüsusi geyimlərin alınması”, “221600. Ərzaq məhsullarının alınması və təminatı” və “221900. Digər malların alınması” paraqraflarının xərcləri daxildir.

**221100. “Dəftərxana və təsərrüfat xərcləri”** paraqrafına müxtəlif növ kağızların, o cümlədən faks, fotosurət üçün kağızların, rəsmxət və idarədə istifadə edilən dəftərxana və təsərrüfat ləvazimatlarının, mühasibat, statistik, kargüzarlıq blanklarının və müxtəlif cədvəllərin, poçt nişanlarının alınması, idarədə istifadə olunan bütün növ mal və materialların, printerlər üçün tonerlərin, katriclərin alınması, Azərbaycan Respublikasının xaricdə olan səfirlik, konsulluq və başqa diplomatik nümayəndəliklərinə aid olan bu kimi dəftərxana və təsərrüfat xərcləri, həmçinin bu qəbildən digər xərclər daxildir.

**221200. “Mətbəə məhsulları üzrə xərclər”** paraqrafına dəftərxana işlərinin təşkili üzrə bütün növ forma, buklet, registrlər, mühasibat, statistik, kargüzarlıq blanklarının və müxtəlif cədvəllərin, qiymətli kağızların hazırlanması və çapı, mətbəə və nəşr ilə əlaqədar, həmçinin maarifləndirmə (təbliğat-təşviqat) və reklam xarakterli çap materiallarının (məhsullarının) hazırlanması və ya alınması xərcləri, mətbəə üçün sərfiyyat materialların (mətbəə avadanlıqları üçün katriclərin, tonerlərin və mətbəə üçün müxtəlif növ sərfiyyat materiallarının) alınması və bu qəbildən olan digər xərclər daxildir.

**221300. “Yanacaq və sürtkü materiallarının alınması”** paraqrafına təşkilata məxsus olan və ya icarəyə götürülmüş nəqliyyat vasitələri, istehsal və xüsusi təyinatlı texnikalar, avadanlıq və qurğular, habelə digər əsas fondlarla əlaqədar yanacaq və sürtkü materiallarının alınması üzrə xərclər daxildir.

**221400. “Dərman, sarğı ləvazimatlarının və materiallarının alınması”** paraqrafına xəstəliklərin profilaktikası, diaqnostikası və müalicəsi üçün istifadə edilən xüsusi malların alınmasına (bakterioloji preparatların və sarğı materiallarının) və xidmətlərin göstərilməsinə sərf olunan xərclər, həmçinin dərmanların, mineral suların, zərdabların, vaksinlərin, vitaminlərin, qida əlavələrinin, dezinfeksiyaedici vasitələrin, laboratoriya tədqiqatları və müayinələr üçün lazım olan materialların alınması, rentgen çəkilişi üçün lentlərin, müayinələrin aparılması üçün materialların alınması, öz laboratoriyası olmadığı halda digər müəssisələrdə aparılan müayinələrə, köçürmə qanın alınmasına, donorlarla bağlı bütün xərclər, stasionar və ambulator xəstələrin, imtiyazlı xəstələrin profilaktikası, diaqnostikası və müalicəsi üçün istifadə edilən xüsusi malların alınmasına (bakterioloji preparatların və sarğı materiallarının) və xidmətlərin göstərilməsinə sərf olunan xərclər, oksigen balonlarının alınması xərcləri, təhsil müəssisələrində ilkin tibbi yardım üçün dərman, sarğı ləvazimatlarının və materiallarının alınmasına sərf olunan xərclər və bu qəbildən olan digər xərclər daxildir.

**221500. “Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınması”** paraqrafına bütün növ paltarların və geyimlərin, yataq ləvazimatlarının, trikotaj mallarının (parçaların), pərdə alınması, həmçinin paltarların, ayaqqabıların, yataq ləvazimatlarının, xüsusi geyimin və dəyişəyin təmiri və tikilməsi, həmçinin geyim və əşya əmlakı əvəzinə verilən pul kompensasiyalarının, habelə nağd qaydada (pul şəklində) qismən verilən kompensasiyaların ödənilməsi ilə bağlı xərclər, hərbi qulluqçuların (xüsusi rütbəsi olan əməkdaşların), təhsil, səhiyyə müəssisələrində sanitariya-gigiyena ehtiyaclarının təchizatı ilə bağlı xərclər daxildir.

**221600. “Ərzaq məhsullarının alınması və təminatı”** paraqrafına ərzaq məhsullarının alınması və dəyərinin ödənilməsi, həmçinin hərbi qulluqçulara (xüsusi rütbəlilərə rütbəsi olan əməkdaşlara), dövlətin tapşırığı ilə ağır şəraitdə işləyənlərə natural formada verilən xüsusi ərzaq məhsullarının dəyəri, ərzaq payı və yemək xərci əvəzinə

ödənilən pul təminatı (kompensasiya), şagirdlərin yolda və təcrübə yerlərində olduqları müddətdə gündəlik yemək xərclərinin ödənilməsi və bu qəbildən olan digər xərclər daxildir.

**221900. "Digər malların alınması"** paraqrafına əsas fond (vəsait) hesab edilməyən sair aktivlərin, o cümlədən sayğacların alınması və quraşdırılması, yanğınsöndürən balonların alınması, toxucu saplarının alınması, portretlərin alınması, qan preparatlarının keyfiyyətinin müəyyən edilməsi üçün qanköçürmə məntəqələri tərəfindən heyvanların alınması, təhsil müəssisələri və başqa təşkilatlar tərəfindən elmi tədqiqat işləri və təcrübə keçirilməsi üçün heyvanların və mal-qaranın alınması, idman atları üçün yem tədarükü və alınması, uşaq müəssisələrində uşaqlarla məşğələlər üçün müxtəlif ləvazimatların, məktəb və rəsmxət ləvazimatlarının, materialların, yağlı, sulu boya, rəngli şüşə, kimyəvi mayelər, gil alınması, təhsil proqramlarının alınması, tədris müəssisələri üçün sinif jurnallarının, əyani vəsaitlərin, blankların, diplomların, şəhadətnamələrin, tələbə biletlərinin, kitabçalarının, doğum, ölüm şəhadətnamələrinin və digər sənədlərin alınması, açıq kitabxana şəbəkəsinə, tədris müəssisələrinə, məktəblərə, şagirdlərə pulsuz verilən dərsliklərin dəyərinin ödənilməsi, jurnal və nəşrlərin alınması, elm, təhsil, səhiyyə, mədəniyyət və digər müəssisələr üçün dövri mətbuatın alınması, kitabxanalar üçün kitabxana əşyalarının və uçot sənədlərinin alınması, işçilərin maddi həvəsləndirmə və qulluğa xitam verilməsi ilə bağlı hədiyyələrin alınması, bina və tikililərin şəhadətnamələrinin alınması və pasportlaşdırılması, yeməkxana və mətbəx ləvazimatlarının, hidrometeoroloji müşahidələrin aparılmasında teletayp lenti, şarpilot müşahidələr üçün kürələr, zondlar, kaustik soda, elementlər, reaktivlər və sair istifadə olunan materialların alınmasına aid olan xərclər, lisenziyalı bədii, sənədli, cizgi filmlərinin və müxtəlif proqramların prokatı və alınması, səhnə vəsaitlərinin (dekorasiyalar, butaforlar, teatr geyimləri, pariklər və sair səhnə vəsaitlərinin) alınması və bu qəbildən olan digər xərclər, həmçinin
221100 – 221600-cü paraqraflarında qeyd olunmayan digər alışlarla bağlı xərclər daxildir.

**222000. "İş və xidmətlərin alınması"** köməkçi bölməsinə "222100. Cari təmir", "222200. Kommunal xidmətlərin haqqının ödənilməsi", "222300. Rabitə xidmətləri haqqının ödənilməsi", "222400. Əsas fondların və digər aktivlərin icarəsi, kirayəsi, saxlanılması və mühafizəsi xərcləri", "222500. Ezamiyyə xərcləri", "222600. Nəqliyyat vasitələri, istehsal təyinatlı maşın, avadanlıq və qurğular üzrə xidmət haqlarının ödənilməsi", "222700. Elmi tədqiqat xidmətləri, təcrübə və müayinələrin haqqının ödənilməsi", "222800. Geoloji-kəşfiyyat və topoqrafiya-geodeziya xidmətləri haqqının ödənilməsi" və "222900. Digər iş və xidmətlərin haqqının ödənilməsi" paraqraflarının xərcləri daxildir.

**222100. "Cari təmir"** paraqrafına tikili və avadanlıqların, habelə əsas fond hesab edilən digər uzunmüddətli aktivlərin texniki və iqtisadi göstəricilərinin müəyyən edilmiş hədd daxilində saxlanılması üçün (onun ayrı-ayrı tez sıradan çıxan (tezköhnələn) hissələrinin və detallarının dəyişdirilməsi, bərpası, rənglənməsi, sazlanması) həyata keçirilən cari təmir işləri üzrə sərf olunan vəsait daxildir. Həmçinin, sahibsiz qalmış, müsadirə edilmiş əmlakların təşkilatlara verilməzdən əvvəl cari təmiri, meliorasiya və su təsərrüfatı sistemində istismar tədbirləri üzrə görülən torpaq işlərinə, çaylarda tənzimlənmə, sahilbərkitmə işlərinə, mexanizmlərə və nasos stansiyalarına ehtiyat hissələrinin alınması, cari təmirlə bağlı mal-materialların alınması ilə bağlı xərclər daxildir. Bu paraqraf "222110. Tikili və avadanlıqların cari təmir xərcləri", "222120. Nəqliyyat vasitələrinin cari təmir xərcləri" və "222130. Sair torpaq, tikili və avadanlıqların cari təmir xərcləri" maddələrindən ibarətdir.

**222110. "Tikili və avadanlıqların cari təmir xərcləri"** maddəsinə tikili və avadanlıqların texniki və iqtisadi göstəricilərinin müəyyən edilmiş hədd daxilində saxlanılması üçün (onun ayrı-ayrı tez sıradan çıxan (tezköhnələn) hissələrinin və detallarının dəyişdirilməsi, bərpası, rənglənməsi, sazlanması) həyata keçirilən cari təmir işləri üzrə sərf

olunan vəsait daxildir. Bu maddəyə, həmçinin, tikili və avadanlıqların cari təmiri ilə bağlı mal-materialların alınması üzrə xərclər də daxildir.

**222120. "Nəqliyyat vasitələrinin cari təmir xərcləri"** maddəsinə nəqliyyat vasitələrinin texniki və iqtisadi göstəricilərinin müəyyən edilmiş hədd daxilində saxlanılması üçün (onun ayrı-ayrı tez sıradan çıxan (tezköhnələn) hissələrinin və detallarının dəyişdirilməsi, bərpası, rənglənməsi, sazlanması) həyata keçirilən təmir işləri üzrə sərf olunan məbləğlər daxildir. Bu maddəyə, həmçinin, nəqliyyat vasitələrinin cari təmiri ilə bağlı mal-materialların alınması üzrə xərclər də daxildir.

**222130. "Sair torpaq, tikili və avadanlıqların cari təmir xərcləri"** maddəsinə sair torpaq, tikili və avadanlıqların, habelə əsas fond hesab edilən digər uzunmüddətli aktivlərin texniki və iqtisadi göstəricilərinin müəyyən edilmiş hədd daxilində saxlanılması üçün (onun ayrı-ayrı tez sıradan çıxan (tezköhnələn) hissələrinin və detallarının dəyişdirilməsi, bərpası, rənglənməsi, sazlanması) həyata keçirilən təmir işləri üzrə sərf olunan məbləğlər, habelə meliorasiya və su təsərrüfatı sistemində istismar tədbirləri üzrə görülən torpaq işləri, çaylarda tənzimlənmə, sahilbərkitmə işləri üzrə sərf olunan məbləğlər daxildir. Bu maddəyə, həmçinin, cari təmirlə bağlı mal-materialların alınması üzrə xərclər də daxildir.

**222200. "Kommunal xidmətlərin haqqının ödənilməsi"** paraqrafına müxtəlif növ kommunal və kommunikasiya xidmətləri (isitmə, qızdırıcı, su, qaz, elektrik enerjisi, kanalizasiya, rabitə, poçt xidmətləri, kommunikasiya xətlərinin çəkilişi və s.) daxildir. Bu paraqrafa "222210. Elektrik enerjisi haqqının ödənilməsi", "222220. Qaz haqqının ödənilməsi", "222230. Su haqqının ödənilməsi", "222240. Kanalizasiya xidmətləri haqqının ödənilməsi", "222250. İstilik enerjisi (yanacaq) haqqının ödənilməsi" və "222290. Digər kommunal xidmətlərin haqqının ödənilməsi" maddələrinin xərcləri daxildir.

**222210. "Elektrik enerjisi haqqının ödənilməsi"** maddəsinə istifadə olunan elektrik enerjisinin dəyərinin ödənilməsi ilə bağlı xərclər daxildir.

**222220. "Qaz haqqının ödənilməsi"** maddəsinə istifadə olunan qazın və maye qazın dəyərinin ödənilməsi ilə bağlı xərclər daxildir.

**222230. "Su haqqının ödənilməsi**" maddəsinə istifadə olunan suyun dəyərinin ödənilməsi ilə bağlı xərclər daxildir.

**222240. "Kanalizasiya xidmətləri haqqının ödənilməsi"** maddəsinə kanalizasiya xidmətlərinin dəyərinin ödənilməsi ilə bağlı xərclər daxildir.

**222250. "İstilik enerjisi (yanacaq) haqqının ödənilməsi"** maddəsinə istilik enerjisini yarada biləcək mal-materialların (odun, kömür, ağ neft, mazut və sair) dəyərinin ödənilməsi, elektrik və istilik enerjisi istehsal edən generator və digər avadanlıqlar üçün yanacaq və sürtkü materialların alınması, habelə mərkəzləşdirilmiş istilik sistemi olan qazanxanalar tərəfindən göstərilmiş xidmətlərin haqqının ödənilməsi ilə bağlı xərclər daxildir.

**222290. "Digər kommunal xidmətlərin haqqının ödənilməsi"** maddəsinə 222210-222250-ci maddələri üzrə Azərbaycan Respublikasının xaricdə olan səfirlik, konsulluq və başqa diplomatik nümayəndəliklərinə aid olan xərclər, elektrik, rabitə, qaz, su və digər kommunal xətlərinin çəkilişi, tullantıların ləğvi və daşınması, tüstü bacalarının təmizlənməsi, çamaşırların yuyulması, hündürmərtəbəli inzibati və digər təyinatlı binalarda şüşələrin yuyulması, kanalizasiya xətləri olmayan yerlərdə çirkab suların daşınması, kommunal xidmətlərdə istifadə olunan smart kartların haqqının ödənilməsi və bu qəbildən olan digər xərclər daxildir.

**222300. "Rabitə xidmətləri haqqının ödənilməsi"** paraqrafına "222310. Telefon danışıq haqlarının ödənilməsi", "222320. Poçt xidmətləri haqqının ödənilməsi", "222330. İnternet xidməti haqqının ödənilməsi" və "222340. Proqram təminatlarına xidmət haqlarının ödənilməsi" maddələrinin xərcləri daxildir.

**222310. “Telefon danışıq haqlarının ödənilməsi”** maddəsinə “222311. Ölkədaxili telefon danışıq haqlarının ödənilməsi” və “222312. Beynəlxalq telefon danışıqları haqlarının ödənilməsi” yarımmaddələrinin xərcləri daxildir.

**222311. “Ölkədaxili telefon danışıq haqlarının ödənilməsi”** yarımmaddəsinə ölkənin daxilindəki telefon danışıqları, faks xidməti, telefon, teleqraf, fiberoptik və optik kanallarının abunəsi və icarəsi, GPS/GSM nəzarət qurğusuna görə xidmət haqlarının ödənilməsi, telefon danışıq haqları ilə bağlı sair xidmətlər üzrə xərclər, abunə haqlarının ödənilməsi xərcləri və bu qəbildən olan digər xərclər daxildir.

**222312. “Beynəlxalq telefon danışıqları haqlarının ödənilməsi”** yarımmadəsinə xarici ölkələrlə bağlı telefon danışıqları, faks xidməti ilə bağlı xərclər daxildir.

**222320. “Poçt xidmətləri haqqının ödənilməsi”** maddəsinə məktub və bütün növ poçt, teleqramların göndərilməsi, feldrabitə, radioqram, teletayp, pul (baratlar) göndərişləri, çap materiallarının çatdırılması ilə bağlı xərclər, həmçinin 222311-ci və 222312-ci yarımmaddələri üzrə Azərbaycan Respublikasının xaricdə olan səfirlik, konsulluq və başqa diplomatik nümayəndəliklərinə aid olan xərclər daxildir.

**222330. “İnternet xidməti haqqının ödənilməsi”** maddəsinə internet xidmətindən istifadəyə görə ödənişlər, vebsaytların yeniləndirilməsi və saxlanılması, internet şəbəkəsinin domen adları serverində qeydiyyata alınması və bu qəbildən olan digər xərclər daxildir.

**222340. “Proqram təminatlarına xidmət haqlarının ödənilməsi”** maddəsinə proqram təminatına xidmətlə bağlı xərclər, informasiya təhlükəsizliyinin təmin edilməsi xərcləri və bu qəbildən olan digər xərclər daxildir.

**222400. “Əsas fondların və digər aktivlərin icarəsi, kirayəsi, saxlanılması və mühafizəsi xərcləri”** paraqrafına “222410. İcarə və muzdlu xidmətlər”, “222420. Kirayə haqqı”, “222430. Mühafizə xərcləri” və “222440. Əsas fondların və digər aktivlərin saxlanılması xərcləri” maddələrinin xərcləri daxildir.

**222410. “İcarə və muzdlu xidmətlər”** maddəsinə cari məqsədlər üçün binaların və evlərin icarəsi, film və verilişlərin çəkilməsi üçün icarəyə götürülmüş teatr, konsert salonları, sahə və otaqların icarəsi haqqı, icarəyə götürülən sahə ilə bağlı depozit və makler xərci, müəssisə və təşkilatlar tərəfindən avadanlıq və nəqliyyat vasitələrinin icarəyə götürülməsi ilə bağlı xərclər daxildir.

**222420. “Kirayə haqqı”** maddəsinə pulsuz verilən mənzillərə görə kirayə haqqının ödənilməsi xərcləri daxildir.

**222430. “Mühafizə xərcləri”** maddəsinə təşkilatın balansında olan və ya icarəyə götürülmüş obyektlərin mühafizəsi ilə bağlı xərclər daxildir.

**222440. “Əsas fondların və digər aktivlərin saxlanılması xərcləri”** maddəsinə hesablama texnikası və avadanlıqlara göstərilən xidmət haqları, liftlərə texniki xidmətlə bağlı xərclər, soyutma və isitmə sistemlərinə, inzibati binalara buraxılış sistemlərinə (turniketlərə) xidmət haqlarının ödənilməsi, dezinfeksiya xərcləri, bina və tikililərin fasadlarının yuyulması və təmizlənməsi ilə bağlı və bu qəbildən olan digər xərclər daxildir. Bu maddə “222441. Əsas fondlara xidmət haqqı xərcləri” və “222442. Sanitariya-gigiyena və digər xidmət haqqı xərcləri” yarımmaddələrindən ibarətdir.

**222441. “Əsas fondlara xidmət haqqı xərcləri”** yarımmaddəsinə hesablama texnikası və avadanlıqlara göstərilən xidmət haqları, liftlərə texniki xidmətlə bağlı xərclər, soyutma və isitmə sistemlərinə, inzibati binalara buraxılış sistemlərinə (turniketlərə) xidmət haqlarının ödənilməsi ilə bağlı və bu qəbildən olan digər xərclər daxildir.

**222442. “Sanitariya-gigiyena və digər xidmət haqqı xərcləri”** yarımmaddəsinə dezinfeksiya xərcləri, sanitariya-gigiyena xərcləri, bina və tikililərin fasadlarının yuyulması və

təmizlənməsi, nəqliyyat vasitələrinin yuyulması və təmizlənməsi ilə bağlı və bu qəbildən olan digər xərclər daxildir.

**222500. "Ezamiyyə xərcləri"** paraqrafına ezamiyyətlər və xidməti səfərlər zamanı gediş, gündəlik, mehmanxana və mənzil xərcləri, işçilərin hərəkəti zamanı gündəlik və gediş xərcləri, xidməti səfərlər, kurslara və təhsil müəssisələrinə sessiyalara, müşavirə və konfranslara, ali və orta ixtisas təhsil idarələrini bitirən gənc mütəxəssislərin işə göndərilməsi ilə bağlı gündəlik və yol xərcləri, Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinə və konsulluqlarına işə təyin olunan, bu orqanlarda fəaliyyətini başa çatdırıb geri qayıdan əməkdaşın və onun ailə üzvlərinin, habelə diplomatik xidmət əməkdaşının illik məzuniyyətlə bağlı Azərbaycan Respublikasına eyni vaxtda gəlməsi və işlədiyi dövlətə qayıtması üçün nəqliyyat üzrə xərclər daxildir. Bu paraqraf "222510. Ölkədaxili ezamiyyətlər" və "222520. Xarici ezamiyyətlər" maddələrindən ibarətdir.

**222510. "Ölkədaxili ezamiyyətlər"** maddəsinə ölkə daxilindəki ezamiyyətlərlə bağlı xərclər daxildir.

**222520. "Xarici ezamiyyətlər"** maddəsinə xarici ölkələrə ezamiyyətlər və xidməti səfərlərlə bağlı ödənişlər, həmçinin 222510 maddəsi üzrə Azərbaycan Respublikasının xaricdə olan səfirlik, konsulluq və başqa diplomatik nümayəndəliklərinə aid olan xərclər daxildir.

**222600. "Nəqliyyat vasitələri, istehsal təyinatlı maşın, avadanlıq və qurğular üzrə xidmət haqlarının ödənilməsi"** paraqrafına təşkilatın balansında, həmçinin istifadəsində olan və ya icarəyə götürülmüş nəqliyyat vasitələri, istehsal təyinatlı maşın, avadanlıq və qurğuların texniki baxışdan keçirilməsi, mülki məsuliyyətinin icbari sığortası və bu qəbildən olan digər xərclər daxildir.

**222700. "Elmi tədqiqat xidmətləri, təcrübə və müayinələrin haqqının ödənilməsi"** paraqrafına elmi tədqiqat işlərinin, təcrübələrin, tədqiqatların, təcrübi eksperimental işlərin, elmi müəssisə və təşkilatlar üçün kənar təşkilatlar tərəfindən yerinə yetirilən xidmətlərin, həmçinin statistik, metroloji, ekoloji və digər tədqiqatların, habelə elmi tədqiqat işləri, təcrübələr, tədqiqatlarla bağlı müayinələrin keçirilməsi, elmi müəssisə və təşkilatlar üçün kənar təşkilatlar tərəfindən yerinə yetirilən müayinə xidmətlərinin və bu qəbildən olan digər iş və xidmətlərin haqqının ödənilməsi ilə bağlı xərclər daxil edilir.

**222800. "Geoloji-kəşfiyyat və topoqrafiya-geodeziya xidmətləri haqqının ödənilməsi"** paraqrafına müxtəlif ekspedisiyaların təşkili, geoloji-axtarış, geoloji-kəşfiyyat və topoqrafiya-geodeziya işlərinə çəkilən xərclər daxildir.

**222900. "Digər iş və xidmətlərin haqqının ödənilməsi"** paraqrafı "222910. Atributların, mükafatlandırma nişanlarının hazırlanması, təltif və mükafatlandırma ilə bağlı xərclər", "222920. İstehlak yönlü müxtəlif xidmətlər", "222930. Abadlaşdırma xidmətləri haqqının ödənilməsi", "222940. Bank və plastik kartların xərcləri", "222940. Əməyin mühafizəsi xərcləri" və "222990. Sair xərclər" maddələrindən ibarətdir.

**222910. "Atributların, mükafatlandırma nişanlarının hazırlanması, təltif və mükafatlandırma ilə bağlı xərclər"** maddəsinə dövlət atributlarının, müxtəlif mükafatlandırma nişanlarının hazırlanması və alınması, bütün növ təltiflər üzrə xərclər, kəşf, ixtira və səmərələşdirici təkliflərlə bağlı xərclərin ödənilməsi, fəxri fərmanların, medalların, ordenlərin, eləcə də müxtəlif yarışların və tədbirlərin iştirakçılarına mükafatların, suvenirlərin və hədiyyələrin alınması, digər dəyərləndirmə tədbirləri ilə bağlı xərclər və bu qəbildən olan digər xərclər daxildir.

**222920. "İstehlak yönlü müxtəlif xidmətlər"** maddəsinə musiqi və bədii əsərlərin alınması (sifarişi), xarici ölkələrlə mədəni əlaqələr, elmi sessiyaların, qurultayların, konfransların, seminarların, iclasların, bayram tədbirlərinin təşkili, keçirilməsi və iştirak

xərcləri, ölkə səviyyəli sərgi və yarmarkaların keçirilməsi, o cümlədən ədəbiyyat, incəsənət və digər sahələrlə bağlı müvəqqəti sərgi və yarmarkaların, ədəbi musiqi müsabiqələrinin təşkili, keçirilməsi, ekskursiyaların və düşərgə toplantılarının keçirilməsi, ümumrespublika gənclər, idman və turizm tədbirlərinin, təlim-məşq yarış və toplantıların təşkili, keçirilməsi və iştirak xərcləri, həmçinin bu maddə üzrə qeyd olunan bütün növ toplantı, yarış və tədbirlərə dəvətlilərin gediş, gündəlik, mehmanxana və mənzil xərcləri, sanitar aviasiyasının uçuş saatlarının ödənilməsi, tədris müəssisələrinin nəzdindəki eksperimental emalatxanaların xidmətinin ödənilməsi, xidməti iş heyvanlarının saxlanılması, yanğınsöndürən balonların, katriclərin, tibbi və digər avadanlıqların doldurulması, mətbuatda elan, bildiriş, reklam verilməsi, ölçü cihazlarının dəqiqliyinin ölçülməsi üzrə xidmət haqlarının ödənilməsi, təhsil müəssisələrində bədən tərbiyəsi tədbirlərinin və kütləvi informasiya işlərinin aparılması, arxiv materiallarından istifadə edilməsi və arxivə verilmiş sənədlərə xidmət haqqının ödənilməsi, sənədlərin cildlənməsi, tikilməsi, informasiya agentliklərinin xidmətləri, guşələrin yaradılması və bədii tərtibat işlərinin dəyərinin ödənilməsi, televiziya və radio verilişləri üzrə (xüsusi kino çəkilişi, texniki rabitə vasitələrinin istismarı, xidmətlərin ödənilməsi), muzey ekspozisiyalarının və sərgilərin təşkili zamanı müxtəlif müvəqqəti xarakter daşıyan və köməkçi materiallar olan xəritələrin, sxemlərin, diaqramların, eskizlərin, maketlərin və digər əşyaların hazırlanması, reklam xarakterli təbliğat-təşviğat xarakterli video və audio materialların hazırlanması və yayılması xərcləri, əmlakın sığortalanması ilə bağlı xərclər, dövlət hesabına hüquqi yardımın ödənilməsi, məhkəmə prosesində iştirak edən, habelə icraatında inzibati xəta haqqında iş olan hakimin yanına, səlahiyyətli orqana (vəzifəli şəxsin yanına) gəlməklə əlaqədar zərər çəkmiş, tərcüməçi, ekspert, mütəxəssis, şahid və hal şahidlərinə görülən işin haqqının ödənilməsi, ekspertlərin və tərcüməçilərin xidmətlərinin ödənilməsi, əhalini köçürmə tədbirləri, Azərbaycan Respublikasının xaricdə olan səfirlik, konsulluq və başqa diplomatik nümayəndəliklərinin əməkdaşlarının və onların ailə üzvlərinin müəyyən edilmiş norma daxilində yüklərinin daşınması, həmçinin 222910-cu maddəsində qeyd olunmayan digər xidmətlərlə bağlı xərclər daxildir. 222910-cu maddəsi üzrə Azərbaycan Respublikasının xaricdə olan səfirlik, konsulluq və başqa diplomatik nümayəndəliklərinə aid olan xərclər daxildir.

**222930. "Abadlaşdırma xidmətləri haqqının ödənilməsi"** maddəsinin xərclərinə şəhər, rayon mərkəzlərinin, habelə şəhər küçələrinin və qəsəbələrin, həyətyanı sahələrin və başqa yaşayış məntəqələrinin yaşıllaşdırılması, işıqlandırılması, küçə və meydanların süpürülməsi, yuyulub təmizlənməsi, bayram tədbirləri ilə bağlı plakatların və şüarların hazırlanması, sahibsiz heyvanlarla bağlı xərclər, küçə adlarının yazılması, fəvvarələrin saxlanılması üçün mal və materialların alınması ilə bağlı xərclər, heykəllərin yuyulması, istismarı ilə bağlı xərclər (bu vəsaitlərin planlaşdırılması və xərclənməsi yalnız ixtisaslaşdırılmış quraşdırma-istismar bölmələri olmadıqda aparılır), həmçinin yol-körpü təsərrüfatları üçün mal və materialların alınması ilə bağlı xərclər daxildir.

**222940. "Bank və plastik kartların xərcləri"** maddəsinə müəssisə və təşkilatlara banklar tərəfindən göstərilən bank xidmətləri, plastik kartlarının haqqının ödənilməsi və bu qəbildən olan digər xərclər daxildir. Bu paraqraf 2 yarımmaddədən, o cümlədən "222941. Bank xidmətləri haqqının ödənilməsi" və "222942. Plastik kartların dəyəri və digər ödənişlər" yarımmaddələrindən ibarətdir.

**222941. "Bank xidmətləri haqqının ödənilməsi"** yarımmaddəsinə müəssisə və təşkilatlara banklar tərəfindən nağd və nağdsız əməliyyatların aparılmasına görə bank xidmətləri haqqının ödənilməsi xərcləri daxildir.

**222942. “Plastik kartların dəyəri və digər ödənişlər”** yarımmaddəsinə müəssisə və təşkilatlar tərəfindən alınan plastik kartların, bankdan alınan müxtəlif çeklərin dəyərinin ödənilməsi və bu qəbildən olan digər xərclər daxildir.

**222950. “Əməyin mühafizəsi xərcləri”** maddəsinə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 220-ci maddəsinin tələblərinin icrasını təmin etmək məqsədi ilə əməyin mühafizəsi üzrə elmi tədqiqat işlərinin maliyyələşdirilməsi, məqsədli dövlət və regional proqramlarının hazırlanması və yerinə yetirilməsi üçün sərf olunan xərclər aiddir.

**222990. “Sair xərclər”** maddəsinə vizasız və pasportsuz yaşayan əcnəbilərin respublikanın hüdudlarından çıxarılması (deportasiyası), büdcə təşkilatlarının ixtisasartırma müəssisələrində dinləyicilərin ixtisasının artırılması işlərinin təşkili ilə bağlı xərclər, şagirdlərin və tələbələrin (ali və orta ixtisas təhsil müəssisələrinə) yeni qəbulunun təşkili, şagirdlərin istehsal təcrübəsi keçirilməsinə görə vəsaitin ödənilməsi, şagirdlərin, tələbələrin yol haqqının və onların yolda və təcrübə yerlərinə gətirilməsi və saxlanılması xərcləri, statistik tədqiqatların aparılması, xarici ezamiyyələr üçün viza, müxtəlif rüsum və ödənclərlə bağlı xərclər, nəqliyyatın bütün növlərindən (taksidən başqa) istifadə edilməsi ilə əlaqədar məbləğ, həlak olanların cəsədinin gətirilməsi, dəfn və dəfn mərasimi xərclərinin ödənilməsi ilə bağlı xərclər, məhbusların daşınması, həqiqi hərbi xidmətdən buraxılan hərbi qulluqçuların yaşadıqları yerə getməsi, hərbi qulluqçuların (xüsusi rütbəsi olan əməkdaşların) və onların ailə üzvlərinin yeni xidmət yerinə köçməsi, əmlakın daşınması və birdəfəlik kompensasiyaların ödənilməsi, sanatoriya, istirahət evlərinə getməsi, müəyyən olunmuş qaydada əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə bağlı xərclər, məhkəmənin qərarlarına əsasən fiziki və hüquqi şəxslərə dəymiş maddi və mənəvi ziyanın ödənilməsi, aztəminatlı şəxslərə, cinayət işləri üzrə müttəhimlərə və inzibati qaydada tutulmuş şəxslərə hüquqi yardımın göstərilməsi, habelə maddi imkanı olmayan vətəndaşlara dövlət tərəfindən göstərilən hüquqi yardımla bağlı xərclər, məcburi işburaxma hallarının və əmək mübahisələri üzrə digər ödənişlərin verilməsi, tədqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi, məhkəmələrə verilmiş iddia ərizələri və notariat əməliyyatları üzrə dövlət rüsumunun ödənilməsi (büdcə təşkilatları, Mərkəzi Bank və onun qurumları istisna olmaqla) xərcləri, podrat, tapşırıq, komisyon, müəlliflik və başqa mülki-hüquqi müqavilələr üzrə işləri yerinə yetirən şəxslərə ödənilən məbləğlər, həmçinin dövlət büdcəsində nəzərdə tutulan ehtiyat fondlarının, sair əməliyyatların və məsrəflərin ödənilməsi xərcləri daxildir.

**223000. “Beynəlxalq təşkilatlara üzvlüklə bağlı ödənişlər”** köməkçi bölməsinə Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq və regional təşkilatlara, o cümlədən beynəlxalq konvensiyalara götürülmüş öhdəliklər üzrə müntəzəm olaraq ödənilən üzvlük haqqı və ianə xərcləri daxildir.

**224000. “Təmsilçilik və təşviqat xərcləri”** köməkçi bölməsinə ölkə daxilində və xaricdə beynəlxalq səviyyəli tədbirlərin (forum, konfrans, seminar, simpozium, sərgi, yarmarka və s.) təşkili, xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi ilə bağlı xərclər daxildir. Bu köməkçi bölmə “224100. Təmsilçilik xərcləri” və “224200. Təşviqat xərcləri” paraqraflarından ibarətdir.

**224100. “Təmsilçilik xərcləri”** paraqrafı “224110. Beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi” və “224120. Xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi” maddələrindən ibarətdir.

**224110. “Beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi”** maddəsinə ölkə daxilində və xaricdə beynəlxalq səviyyəli tədbirlərin (forum, konfrans, seminar, simpozium, sərgi, yarmarka və s.) təşkili ilə bağlı xərclər daxildir.

**224120. “Xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi”** maddəsinə xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi ilə bağlı xərclər daxildir.

**224200. “Təşviqat xərcləri”** paraqrafı “224210. İxracın və xarici investisiyaların təşviqi” və “224220. Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqlarının təşviqat fəaliyyəti üzrə xərclər” maddələrindən ibarətdir.

**224210. “İxracın və xarici investisiyaların təşviqi”** maddəsinə ixracın və investisiyaların təşviqi ilə bağlı xərclər daxildir.

**224220. “Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqlarının təşviqat fəaliyyəti üzrə xərclər”** maddəsinə Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqlarının təşviqat fəaliyyəti ilə bağlı digər xərclər daxildir.

**230000. Köhnəlmə**

**240000. “Faizlər üzrə ödənişlər”** bölməsinin xərclərində faizlərin ödənilməsi, borc vəsaitlərindən istifadəyə görə həyata keçirilən ödənişlər nəzərdə tutulur. Bu bölmənin xərclərinə dövlət idarəetmə orqanları tərəfindən alınan kreditə görə həyata keçirilən faiz ödənişləri ilə bağlı xərclər daxildir. Bölmənin xərclərinə borc vəsaitlərinin alınmasına yönəldilmiş komisyon yığımları və ya maliyyələşmə kimi hesab edilən borcun əsas məbləği üzrə ödənişlərlə bağlı xərclər daxil edilmir. Bu bölmə 241000. “Qeyri-rezidentlər üzrə ödənişlər”, 242000. “Dövlət idarəetmə sektoru üzrə ödənişlər” və 243000. “Dövlət idarəetmə sektoruna aid olmayan təşkilatlar üzrə ödənişlər” köməkçi bölmələrindən ibarətdir.

**241000. “Qeyri-rezidentlər üzrə ödənişlər”** köməkçi bölməsinə xarici təşkilatlara faizlər üzrə ödənişlər daxildir. Bu köməkçi bölmə “241100. Maliyyə-kredit institutları və təşkilatları üzrə ödənişlər” və “241200. Xarici dövlətlərə ödənişlər” paraqraflarından ibarətdir.

**241100. “Maliyyə-kredit institutları və təşkilatları üzrə ödənişlər”** paraqrafına beynəlxalq maliyyə-kredit institutlarından və təşkilatlardan alınmış kreditlərə görə faizlərin ödənilməsi ilə bağlı xərclər daxildir.

**241200. “Xarici dövlətlərə ödənişlər”** paraqrafına xarici dövlətlərdən alınmış kreditlərə görə faizlərin ödənilməsi ilə bağlı xərclər daxildir.

**242000. “Dövlət idarəetmə sektoru üzrə ödənişlər”** köməkçi bölməsinin xərclərinə dövlət idarəetmə orqanlarına və digər idarəetmə orqanlarına faizlərlə bağlı xərclər daxil edilir. Bu köməkçi bölmə “242100. Mərkəzi dövlət idarəetmə orqanları üzrə ödənişlər” və “242200. Digər idarəetmə orqanları üzrə ödənişlər” paraqraflarından ibarətdir.

**242100. “Mərkəzi dövlət idarəetmə orqanları üzrə ödənişlər”** paraqrafına dövlətdaxili uduşlu istiqraz vərəqələri üzrə faiz ödənişləri və digər xərclər daxildir.

**242200. “Digər idarəetmə orqanları üzrə ödənişlər”** paraqrafına dövlət idarəetmə sektorunun başqa təbəqələrindən alınmış borc vəsaitləri üzrə faiz ödənişləri, o cümlədən bələdiyyə orqanlarına və yerli icra orqanlarına faiz ödənişləri, həmçinin büdcədənkənar dövlət fondlarına ödənilən faizlər üzrə xərclər daxildir.

**243000. “Dövlət idarəetmə sektoruna aid olmayan təşkilatlar üzrə ödənişlər”** köməkçi bölməsinə Mərkəzi Banka, dövlət təşkilatlarına, özəl təşkilatlara, bank olmayan kredit təşkilatlarına və publik hüquqi şəxslərə faizlər üzrə ödənişlər daxil edilir. Bu köməkçi bölmə “243100. Mərkəzi Bank üzrə ödənişlər”, “243200. Dövlət təşkilatları üzrə ödənişlər”, “243300. Publik hüquqi şəxslər üzrə ödənişlər” və “243900. Digər təşkilatlar üzrə ödənişlər” paraqraflarından ibarətdir.

**243100. “Mərkəzi Bank üzrə ödənişlər”** paraqrafına buraxılmış qiymətli kağızlara görə Mərkəzi Banka faizlərin ödənilməsi ilə bağlı xərclər daxildir.

**243200. “Dövlət təşkilatları üzrə ödənişlər”** paraqrafına dövlət təşkilatlarından alınmış kreditlərə görə faizlərin ödənilməsi xərcləri daxildir.

**243300. “Publik hüquqi şəxslər üzrə ödənişlər”** paraqrafına publik hüquqi şəxslərdən alınmış kreditlər üzrə faizlərin ödənilməsi xərcləri daxildir.

**243900. “Digər təşkilatlar üzrə ödənişlər”** paraqrafına digər təşkilatlardan alınmış kreditlərə görə faizlər və bu qəbildən olan ödənişlərlə, həmçinin 243100-243300-cü paraqraflarında əhatə edilməyən digər təşkilatlardan alınmış kreditlərə görə faizlərin ödənilməsi ilə bağlı xərclər daxildir.

**250000. “Subsidiyalar”** bölməsinə dövlət büdcəsindən subsidiyaların ayrılması üzrə xərclər daxildir. Bu bölmə “251000. Naxçıvan Muxtar Respublikasının büdcəsinə subsidiyalar”, “252000. Yerli büdcələrə subsidiyalar” və “253000. Hüquqi şəxslərə subsidiyalar” köməkçi bölmələrindən ibarətdir.

**251000. “Naxçıvan Muxtar Respublikasının büdcəsinə subsidiyalar”** köməkçi bölməsinə dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə əvəzsiz verilən maliyyə vəsaitinin məbləği daxildir.

**252000. “Yerli büdcələrə subsidiyalar”** köməkçi bölməsinə dövlət büdcəsindən yerli büdcələrə əvəzsiz verilən maliyyə vəsaitinin məbləği daxildir.

**253000. “Hüquqi şəxslərə subsidiyalar”** köməkçi bölməsi “253100. Dövlət müəssisələrinə subsidiyalar” və “253200. Qeyri-dövlət müəssisələrinə subsidiyalar” paraqraflarından ibarətdir.

**253100. “Dövlət müəssisələrinə subsidiyalar”** paraqrafına dövlət büdcəsindən dövlət müəssisələrinə əvəzsiz verilən maliyyə vəsaitinin məbləği, o cümlədən həmin müəssisələr tərəfindən xaricə və ölkə daxilində sənaye və kommersiya mallarının satışı və xidmətlərin göstərilməsi ilə bağlı yaranmış zərərin ödənilməsi üzrə xərclər və bu qəbildən olan digər xərclər daxildir.

**253200. “Qeyri-dövlət müəssisələrinə subsidiyalar”** paraqrafına özəl müəssisələrə əvəzsiz verilən maliyyə vəsaitinin məbləği, o cümlədən həmin müəssisələr tərəfindən xaricə və ölkə daxilində sənaye və kommersiya mallarının satışı və xidmətlərin göstərilməsi ilə bağlı yaranmış zərərin ödənilməsi üzrə xərclər və bu qəbildən olan digər xərclər daxildir.

**260000. “Qrantlar və digər ödənişlər”** bölməsinin xərclərinə məqsədli maliyyə təyinatı üzrə əvəzsiz verilən qrantlar və digər ödənişlər daxildir. Bu bölmə “261000. Rezidentlərə verilən qrantlar və digər ödənişlər” və “262000. Qeyri-rezidentlərə verilən qrantlar və digər ödənişlər” köməkçi bölmələrindən ibarətdir.

**261000. “Rezidentlərə verilən qrantlar və digər ödənişlər”** köməkçi bölməsinə rezidentlərə cari və əsaslı məqsədlər üçün əvəzsiz verilən qrantlar və digər ödənişlər daxildir. Bu köməkçi bölmə “261100. Cari məqsədlər üçün verilən qrantlar və digər ödənişlər”, “261200. Əsaslı məqsədlər üçün verilən qrantlar və digər ödənişlər”, “261300. Dotasiya” və “261400. Subvensiya” paraqraflarından ibarətdir.

**261100. “Cari məqsədlər üçün verilən qrantlar və digər ödənişlər”** paraqrafına rezidentlərə cari məqsədlər üçün birdəfəlik və ya müntəzəm olaraq əvəzsiz verilən maliyyə və natura formasında qrantlar və digər yardımlar üzrə xərclər daxildir.

**261200. “Əsaslı məqsədlər üçün verilən qrantlar və digər ödənişlər”** paraqrafına rezidentlərə əsaslı ödənişlər üçün birdəfəlik və ya müntəzəm olaraq əvəzsiz verilən maliyyə və natura formasında qrantlar və digər yardımlar üzrə xərclər daxildir.

**261300. “Dotasiya”** paraqrafına dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə onların gəlir və xərclərini tənzimləmək məqsədi ilə əvəssiz verilən maliyyə vəsaiti daxildir. Bu paraqraf “261310. Naxçıvan Muxtar Respublikasının

büdcəsinə verilən dotasiya" və "261320. Yerli büdcələrə verilən dotasiya" maddələrindən ibarətdir.

**261310. "Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya"** maddəsinə dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə onların gəlir və xərclərini tənzimləmək məqsədi ilə əvəzsiz verilən maliyyə vəsaiti daxildir.

**261320. "Yerli büdcələrə verilən dotasiya"** maddəsinə dövlət büdcəsindən yerli büdcələrə onların gəlir və xərclərini tənzimləmək məqsədi ilə əvəzsiz verilən maliyyə vəsaiti daxildir.

**261400. "Subvensiya"** paraqrafına məqsədli maliyyələşmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə verilən, lakin həmin məqsəd üçün və ya müəyyən edilmiş müddətdə istifadə edilmədikdə, geri qaytarılan maliyyə vəsaiti daxildir. Bu paraqraf "261410. Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən subvensiya" və "261420. Yerli büdcələrə verilən subvensiya" maddələrindən ibarətdir.

**261410. "Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən subvensiya"** maddəsinə dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən, lakin həmin məqsəd üçün və ya müəyyən edilmiş müddətdə istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaiti daxildir.

**261420. "Yerli büdcələrə verilən subvensiya"** maddəsinə dövlət büdcəsindən yerli büdcələrə verilən, lakin həmin məqsəd üçün və ya müəyyən edilmiş müddətdə istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaiti daxildir.

**262000. "Qeyri-rezidentlərə verilən qrantlar və digər ödənişlər"** köməkçi bölməsinə qeyri-rezidentlərə cari və əsaslı məqsədlər üçün əvəzsiz verilən qrantlar və digər ödənişlər daxildir. Bu köməkçi bölmə "262100. Xarici dövlətlərə verilən qrantlar və digər ödənişlər", "262200. Beynəlxalq təşkilatlara verilən qrantlar və digər ödənişlər" və "262300. Digər qeyri-rezidentlərə verilən qrantlar və digər ödənişlər" paraqraflarından ibarətdir.

**262100. "Xarici dövlətlərə verilən qrantlar və digər ödənişlər"** paraqrafına xarici dövlətlərə əvəzsiz verilən qrantlar və digər ödənişlərlə bağlı xərclər daxildir.

**262200. "Beynəlxalq təşkilatlara verilən qrantlar və digər ödənişlər"** paraqrafına beynəlxalq təşkilatlara əvəzsiz verilən qrantlar və digər ödənişlərlə bağlı xərclər daxildir.

**262300. "Digər qeyri-rezidentlərə verilən qrantlar və digər ödənişlər"** paraqrafına digər qeyri-rezidentlərə əvəzsiz verilən qrantlar və digər ödənişlərlə bağlı xərclər daxildir.

**270000. "Sosial ödənişlər"** bölməsinə məcburi dövlət sosial sığorta haqqı hesabına ahıllara, işsizlərə, sağlamlıq imkanları məhdud şəxslərə sosial yardım üzrə müavinətlər və pensiyalar, həmçinin dövlət büdcəsinin vəsaiti hesabına təqaüdlər, müavinətlər, sosial yardımlar və bu qəbildən olan xərclər daxildir. Bu bölmədə uşaqlı ailələrə verilən dövlət müavinəti və kompensasiyalar, bütün növ pensiyalar, təqaüdlər, şəhid ailələrinə, qaçqınlara və məcburi köçkünlərə maddi yardım göstərilməsi, hamiləliyə və doğuşa görə müavinətlər, uşağın anadan olması ilə əlaqədar birdəfəlik müavinət, dəfn üçün müavinət, təbii fəlakətdən zərər çəkən vətəndaşlara birdəfəlik pul yardımı, humanitar yardım, pulsuz müalicəyə göndərilən pensiyaçılara, ehtiyacı olan pensiyaçıların ailə üzvlərinə maddi yardım, işsiz vətəndaşlara müavinətlərin ödənilməsi, əlillərə maddi yardım, əlil uşaqlara onların təhsili ilə bağlı yardım, birlikdə yaşayan üç və daha çox əmək qabiliyyəti olmayan əlil ailələr üçün ünvanlı tədbirlərin keçirilməsi, əlillər üçün idman-sağlamlıq mərkəzlərinin yaradılması, əlillərin beynəlxalq və ölkədaxili idman yarışlarında iştirakı ilə bağlı proqramların, sərgilərin təşkili və ədəbi musiqi müsabiqələrinin, konfransların keçirilməsi, dövlət tərəfindən transfertlərin verilməsi xərcləri, sanatoriya-kurort müalicəsi üzrə xərclərin tam və ya qismən ödənilməsi və

əhaliyə sair ödənişlərlə bağlı xərclər daxildir. Bu bölmə "271000. Sosial sığorta", "272000. Sosial yardım" və "279000. Digər sosial ödənişlər" köməkçi bölmələrindən ibarətdir.

**271000. "Sosial sığorta"** köməkçi bölməsinə ödənilən pensiyalar, müavinətlər, yardımlar üzrə xərclər daxildir. Bu köməkçi bölmə "271100. Əmək pensiyası", "271200. Müavinət" və "271900. Digər sosial sığorta ödənişləri" paraqraflarından ibarətdir.

**271100. "Əmək pensiyası"** paraqrafına yaşa görə, əlilliyə görə, ailə başçısını itirməyə görə əmək pensiyalarının verilməsi ilə bağlı xərclər daxildir. Bu paraqraf "271110. Yaşa görə əmək pensiyası", "271120. Əlilliyə görə əmək pensiyası" və "271130. Ailə başçısını itirməyə görə əmək pensiyası" maddələrindən ibarətdir.

**271110. "Yaşa görə əmək pensiyası"** maddəsinə qanunvericiliyə uyğun olaraq yaşa görə verilən əmək pensiyası ilə bağlı xərclər daxildir. Bu maddə "271111. Yaşa görə əmək pensiyasının sığorta hissəsi" və "271112. Yaşa görə əmək pensiyasının yığım hissəsi" yarımmaddələrindən ibarətdir.

**271111. "Yaşa görə əmək pensiyasının sığorta hissəsi"** yarımmaddəsinə mövcud qanunvericiliyə uyğun olaraq yaşa görə əmək pensiyasının sığorta hissəsinə aid edilən xərclər daxildir.

**271112. "Yaşa görə əmək pensiyasının yığım hissəsi"** yarımmaddəsinə mövcud qanunvericiliyə uyğun olaraq yaşa görə əmək pensiyasının yığım hissəsinə aid edilən xərclər daxildir.

**271120. "Əlilliyə görə əmək pensiyası"** maddəsinə mövcud qanunvericiliyə uyğun olaraq əlilliyə görə verilən əmək pensiyası ilə bağlı xərclər daxildir. Bu maddə "271121. Əlilliyə görə əmək pensiyasının sığorta hissəsi" və "271122. Əlilliyə görə əmək pensiyasının yığım hissəsi" yarımmaddələrindən ibarətdir.

**271121. "Əlilliyə görə əmək pensiyasının sığorta hissəsi"** yarımmaddəsinə mövcud qanunvericiliyə uyğun olaraq əlilliyə görə əmək pensiyasının sığorta hissəsinə aid edilən xərclər daxildir.

**271122. "Əlilliyə görə əmək pensiyasının yığım hissəsi"** yarımmaddəsinə mövcud qanunvericiliyə uyğun olaraq əlilliyə görə əmək pensiyasının yığım hissəsinə aid edilən xərclər daxildir.

**271130. "Ailə başçısını itirməyə görə əmək pensiyası"** maddəsinə mövcud qanunvericiliyə uyğun olaraq ailə başçısını itirməyə görə əmək pensiyasının sığorta hissəsinə aid edilən xərclər daxildir.

**271200. "Müavinət"** paraqrafına sosial sığorta proqramları üzrə ödənilən müavinətlərlə bağlı xərclər daxildir. Bu paraqraf "271210. 3 yaşınadək uşağa qulluğa görə müavinət", "271220. Əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinət", "271230. Uşağın doğulması ilə bağlı müavinət", "271240. Hamiləliyə və doğuşa görə müavinət", "271250. Əmək zədəsi və ya peşə xəstəliyi üzrə ödənişlər", "271260. Dəfn üçün müavinət" və "271290. Digər müavinətlər" maddələrindən ibarətdir.

**271210. "3 yaşınadək uşağa qulluğa görə müavinət"** maddəsinə 3 yaşına çatmamış uşaqlara qulluğa görə ödənilən müavinətlərlə bağlı xərclər daxildir.

**271220. "Əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinət"** maddəsinə mövcud qanunvericilikdə nəzərdə tutulmuş müvəqqəti əmək qabiliyyətini itirməyə görə işçilərə ödənilən müavinətlər, o cümlədən əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə ilk 14 gün üçün işəgötürənin vəsaiti hesabına ödənilən müavinətlər üzrə xərclər daxildir.

**271230. "Uşağın doğulması ilə bağlı müavinət"** maddəsinə uşaq doğularkən ata və ya ananın iş yerindən, işləməyənlər üçün isə sosial müdafiə mərkəzlərindən birdəfəlik ödənilən müavinətlərlə bağlı xərclər daxildir.

**271240. "Hamiləliyə və doğuşa görə müavinət"** maddəsinə analıq məzuniyyətinə çıxan qadınlara ödənilən müavinətlə bağlı xərclər daxildir.

**271250. "Əmək zədəsi və ya peşə xəstəliyi üzrə ödənişlər"** maddəsinə istehsalatda baş vermiş bədbəxt hadisə və ya peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçilərə, habelə bu səbəbdən həlak olmuş işçilərin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə qanunvericiliklə müəyyən edilmiş qaydada dəymiş zərərə görə ödənişlərlə bağlı xərclər daxildir.

**271260. "Dəfn üçün müavinət"** maddəsinə mövcud qanunvericiliklə müəyyən olunmuş hallarda məcburi dövlət sosial sığorta haqqı və dövlət büdcəsinin vəsaiti hesabına işçinin vəfatı ilə əlaqədar əmək müqaviləsinə xitam verildikdə, vəfat edənin vərəsələrinə ortaaylıq əməkhaqqının qanunvericiliklə müəyyən olunmuş məbləğində müavinətin ödənilməsi ilə bağlı xərclər daxildir.

**271290. "Digər müavinətlər"** maddəsinə 271210-271260-cı maddələrində nəzərdə tutulmayan və mahiyyət etibarilə müavinət hesab edilən digər ödənişlər üzrə xərclər daxildir.

**271900. "Digər sosial sığorta ödənişləri"** paraqrafına sığorta proqramları üzrə ödənilən digər ödənişlərlə bağlı xərclər daxildir. Bu paraqraf "271910. Məşğulluq tədbirləri üzrə ödənişlər" və "271920. Əlilliklə bağlı ödənişlər" maddələrindən ibarətdir.

**271910. "Məşğulluq tədbirləri üzrə ödənişlər"** maddəsinə məşğulluq tədbirləri ilə bağlı xərclər daxildir. Bu maddə "271911. İşsizlik sığorta ödənişi", "271912. Peşə hazırlığı və əlavə təhsilin təşkili", "271913. Haqqı ödənilən ictimai işlərin təşkili", "271914. Peşəyönümünə dair məsləhət xidmətlərinin göstərilməsi", "271915. Özünəməşğulluq tədbirlərinin təşkili", "271916. Əmək yarmarkalarının və əmək birjalarının təşkili", "271917. Sığortaedənlərlə birlikdə sığortaolunanların əməkhaqqının maliyyələşdirilməsi", "271918. "Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunması" və "271919. Məşğulluq tədbirləri üzrə digər ödənişlər" yarımmaddələrdən ibarətdir.

**271911. "İşsizlik sığorta ödənişi"** yarımmaddəsinə işsizlərə işsizliyə görə ödənilən sığorta ödənişləri ilə bağlı xərclər daxildir.

**271912. "Peşə hazırlığı və əlavə təhsilin təşkili"** yarımmaddəsinə işsizlər üçün peşə hazırlığı, yenidənhazırlıq və ixtisasartırma tədbirlərinin təşkili ilə bağlı xərclər daxildir.

**271913. "Haqqı ödənilən ictimai işlərin təşkili"** yarımmaddəsinə müvəqqəti xarakterli haqqı ödənilən ictimai işlərin təşkili ilə bağlı xərclər daxildir.

**271914. "Peşəyönümünə dair məsləhət xidmətlərinin göstərilməsi"** yarımmaddəsinə işaxtaran və işsiz vətəndaşlara peşəyönümü məsləhət xidmətlərinin göstərilməsi ilə bağlı xərclər daxildir.

**271915. "Özünüməşğulluq tədbirlərinin təşkili"** yarımmaddəsinə işaxtaran və işsiz vətəndaşların özünüməşğulluğunun təmin olunması üzrə xərclər daxildir.

**271916. "Əmək yarmarkalarının və əmək birjalarının təşkili"** yarımmaddəsinə boş iş yerləri haqqında məlumat bazasının və əmək birjalarının yaradılması, əmək yarmarkalarının təşkili ilə bağlı xərclər daxildir.

**271917. "Sığortaedənlərlə birlikdə sığortaolunanların əməkhaqqının maliyyələşdirilməsi"** yarımmaddəsinə sığorta olunanların əməkhaqlarının müəyyən hissəsinin müəyyən müddətə (3, 6, 9 ay və 1 il) sığortaedənlərlə birlikdə maliyyələşdirilməsi ilə bağlı xərclər daxildir.

**271918. "Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunması"** yarımmaddəsinə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunması ilə bağlı xərclər daxildir.

**271919. “Məşğulluq tədbirləri üzrə digər ödənişlər”** yarımmaddəsinə 271911-271918-ci yarımmaddələrdə nəzərdə tutulmayan və mahiyyət etibarilə məşğulluq tədbirləri üzrə ödəniş hesab edilən digər xərclər daxildir.

**271920. “Əlilliklə bağlı ödənişlər”** maddəsinə əlillərin sosial müdafiəsi ilə bağlı xərclər daxildir. Bu maddə “271921. Əlillərin sağlamlığının mühafizəsi və tibbi bərpası”, “271922. Reabilitasiya tədbirlərinin təşkili”, “271923. Əlillərə maddi və texniki yardımın təşkili” və “271929. Digər ödənişlər” yarımmaddələrindən ibarətdir.

**271921. “Əlillərin sağlamlığının mühafizəsi və tibbi bərpası”** yarımmaddəsinə əlillərin dərmanla təminatı, əlillərin müalicəsinə köməklik göstərilməsi, əlillərin texniki-bərpa vasitələri ilə təmin edilməsi, əlillərin sanatoriya-kurort müalicəsinin təşkili üçün yollayışların alınması ilə bağlı xərclər daxildir.

**271922. “Reabilitasiya tədbirlərinin təşkili”** yarımmaddəsinə əlillərin sosial müdafiəsi və reabilitasiya sahəsində beynəlxalq təcrübənin tətbiqi ilə bağlı əməkdaşlıq və informasiya mübadiləsi, əlillərin asudə vaxtının təşkili məqsədi ilə onların istirahət zonalarına göndərilməsi, idman tədbirlərinin keçirilməsi və əlillərin beynəlxalq yarışlarda iştirakına şəraitin yaradılması, əlillərin ümumrespublika sərgi-müsabiqəsinin keçirilməsi , incəsənət və xalq sənət növlərinin öyrədilməsinə yardım göstərilməsi ilə bağlı xərclər daxildir.

**271923. “Əlillərə maddi və texniki yardımın təşkili”** yarımmaddəsinə Ümumxalq hüzn günü, Novruz bayramı, Çernobıl qəzasının ildönümü, faşizm üzərində qələbə günü, Bilik günü, Beynəlxalq əlillər günü münasibəti ilə tədbirlərin keçirilməsi və əlillərə maddi yardımların göstərilməsi, əlil uşaqların təhsili ilə bağlı texniki yardımın göstərilməsi, əlillərə sosial-məişət problemlərinin həlli ilə bağlı yardımların göstərilməsi ilə bağlı xərclər daxildir.

**271929. “Digər ödənişlər”** yarımmaddəsinə 271921-271923-cü yarımmaddələrdə nəzərdə tutulmayan və mahiyyət etibarilə əlilliklə bağlı ödəniş hesab edilən digər xərclər daxildir.

**272000. “Sosial yardım”** köməkçi bölməsinə mövcud qanunvericiliyə uyğun olaraq nəzərdə tutulmuş aztəminatlı ailələrə, himayəsində uşağı olan aztəminatlı ailələrə, ailə başçısını itirən aztəminatlı ailələrə ödənilən müavinətlər, aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının ödənilməsi, müddətli hərbi xidmətdə olanların uşaqlarına verilən aylıq müavinət, müharibə əlillərinin, 20 yanvar hadisələri zamanı əlil olanların uşaqlarına verilən aylıq müavinət, Çernobıl qəzası nəticəsində I və II qrup əlil olmuş, yaxud vəfat etmiş valideynlərin uşaqlarına, habelə Çernobıl qəzası nəticələrinin aradan qaldırılması iştirakçılarının dispanser qeydiyyatında olan uşaqlarına, insan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə müavinət ödənilməsi ilə bağlı xərclər daxildir. Bu köməkçi bölmə “272100. Ünvanlı dövlət sosial yardımı”, “272200. Aztəminatlı ailələrə verilən uşaq müavinətləri”, “272300. Dövlət sosial yardımı”, “272400. Kommunal güzəştlər”, “272500. Təqaüdlər”, “272600. Məcburi köçkünlərə və məskunlaşmamış qaçqınlara ödənişlər” və “272900. Sosial yardım üzrə digər ödənişlər” paraqraflarından ibarətdir.

**272100. “Ünvanlı dövlət sosial yardımı”** paraqrafına gəlirləri qanunvericiliklə müəyyən olunmuş həddən aşağı olan ailələrə verilən yardımla bağlı xərclər daxildir.

**272200. “Aztəminatlı ailələrə verilən uşaq müavinətləri”** paraqrafına qanunvericiliklə müəyyən olunmuş hallarda aztəminatlı ailələrə yardım göstərilməsi ilə bağlı xərclər daxildir. Bu paraqraf “272210. Şəhid olanların uşaqlarına müavinətlər”, “272220. Müharibə və 20 yanvar hadisəsi zamanı əlil olan ailələrin uşaqlarına aylıq müavinət”, “272230. Çernobıl qəzasının nəticələrinin aradan qaldırılması ilə bağlı müavinət”, “272240. Müddətli həqiqi hərbi xidmətdə olan ailələrin uşaqlarına müavinət”, “272250. Bir yaşadək uşağı olan aztəminatlı ailələrə müavinət” və “272290. Digər müavinətlər” maddələrindən ibarətdir.

**272210. “Şəhid olanların uşaqlarına müavinətlər”** maddəsinə şəhid olanların uşaqlarına ödənilən müavinətlərlə bağlı xərclər daxildir.

**272220. “Müharibə və 20 yanvar hadisəsi zamanı əlil olan ailələrin uşaqlarına aylıq müavinət”** maddəsinə müharibə əlilləri və 20 yanvar hadisəsi zamanı əlil olan ailələrin uşaqlarına ödənilən aylıq müavinətlərlə bağlı xərclər daxildir.

**272230. “Çernobıl qəzasının nəticələrinin aradan qaldırılması ilə bağlı müavinət”** maddəsinə Çernobıl qəzası nəticəsində I və II qrup əlil olmuş, yaxud vəfat etmiş valideynlərin, habelə Çernobıl qəzasının nəticələrinin aradan qaldırılmasında iştirak etmiş dispanser qeydiyyatında olanların uşaqlarına ödənilən müavinətlərlə bağlı xərclər daxildir.

**272240. “Müddətli həqiqi hərbi xidmətdə olan ailələrin uşaqlarına müavinət”** maddəsinə müddətli hərbi xidmətdə olan ailələrin uşaqlarına ödənilən müavinətlərlə bağlı xərclər daxildir.

**272250. “Bir yaşadək uşağı olan aztəminatlı ailələrə müavinət”** maddəsinə ünvanlı dövlət sosial yardımı almaq hüququna malik olan ailələrdə olan bir yaşadək uşağa görə ödənilən müavinətlərlə bağlı xərclər daxildir.

**272290. “Digər müavinətlər”** maddəsinə 272210-272250-ci maddələrdə nəzərdə tutulmayan və mahiyyət etibarilə aztəminatlı ailələrə verilən uşaq müavinəti hesab edilən digər xərclər daxildir.

**272300. “Dövlət sosial yardımı”** paraqrafına qanunvericilikdə nəzərdə tutulmuş sosial müavinətlərin verilməsi ilə bağlı xərclər daxildir. Bu paraqraf “272310. Yaşa görə müavinət”, “272320. Əlilliyə görə müavinət”, “272330. Sağlamlıq imkanları məhdud 16 yaşadək əlil uşaqlara müavinət”, “272340. Ailə başçısını itirməyə görə müavinət”, “272350. Qəyyumluğa görə müavinət”, “272360. Müalicə xərci” və “272390. Digər müavinətlər” maddələrdən ibarətdir.

**272310. “Yaşa görə müavinət”** maddəsinə əmək qabiliyyəti olmayanlara əmək pensiyası hüququ olmadıqda və işləmədikdə ödənilən müavinətlə bağlı xərclər daxildir.

**272320. “Əlilliyə görə müavinət”** maddəsinə əlillərə əmək pensiyası hüququ olmadıqda, ödənilən müavinətlə bağlı xərclər daxildir.

**272330. “Sağlamlıq imkanları məhdud 16 yaşadək əlil uşaqlara müavinət”** maddəsinə 16 yaşadək əlil uşaqlara ödənilən müavinətlə bağlı xərclər daxildir.

**272340. “Ailə başçısını itirməyə görə müavinət”** maddəsinə ailə başçısını itirməyə görə ödənilən sosial müavinətlə bağlı xərclər daxildir.

**272350. “Qəyyumluğa görə müavinət”** maddəsinə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara qanunvericiliklə qəyyumluq (himayəçilik) müəyyən edildikdə, ödənilən müavinətlə bağlı xərclər daxildir.

**272360. “Müalicə xərci”** maddəsinə radiasiya qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkərək əlil olmuş şəxslərə hər il üçün müalicə xərclərinə görə ödənilən birdəfəlik müavinətlə bağlı xərclər daxildir.

**272390. “Digər müavinətlər”** maddəsinə 272310-272360-cı maddələrdə nəzərdə tutulmayan və mahiyyət etibarilə dövlət sosial yardımı hesab edilən digər müavinətlərin ödənilməsi ilə bağlı xərclər daxildir.

**272400. “Kommunal güzəştlər”** paraqrafına kommunal, nəqliyyat və digər xidmətlərə görə güzəştlərin əvəzinə verilən müavinətlərlə bağlı xərclər daxildir. Bu paraqraf “272410. Şəhid ailəsi üzvlərinə müavinət”, “272420. Müharibə veteranlarına müavinət” və “272490. Digər müavinətlər” maddələrdən ibarətdir.

**272410. “Şəhid ailəsi üzvlərinə müavinət”** maddəsinə şəhid ailəsi üzvlərinin hər birinə qanunvericiliklə müəyyən edilmiş qaydada kommunal, nəqliyyat və digər xidmətlərə görə güzəştlərin əvəzinə verilən müavinətlə bağlı xərclər daxildir.

**272420. "Müharibə veteranlarına müavinət"** maddəsinə müharibə veteranı statusu qazanmış şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə güzəştlərin əvəzinə ödənilən müavinətlə bağlı xərclər daxildir.

**272490. "Digər müavinətlər"** maddəsinə 272410-272420-ci maddələrdə kommunal güzəştlər üzrə nəzərdə tutulmayan və mahiyyət etibarilə kommunal güzəşt hesab olunan digər xərclər daxildir.

**272500. "Təqaüdlər"** paraqrafına təqaüdlərlə bağlı xərclər daxildir. Bu paraqraf "272510. Fəxri adlara görə təqaüd", "272520. Milli Qəhrəman adını alanlara verilən təqaüd", "272530. 20 yanvar şəhidlərinin ailələrinə verilən təqaüd", "272540. Fərdi təqaüdlər", "272550. Şəhid ailələrinə verilən təqaüdlər", "272560. 20 yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə verilən təqaüd", "272570. Tələbələrə verilən təqaüdlər" və "272590. Digər təqaüdlər" maddələrindən ibarətdir.

**272510. "Fəxri adlara görə təqaüd"** maddəsinə "xalq" və "əməkdar" fəxri adlarına görə ödənilən təqaüdlə bağlı xərclər daxildir.

**272520. "Milli Qəhrəman adını alanlara verilən təqaüd"** maddəsinə Azərbaycanın Milli Qəhrəmanları üçün təsis edilmiş təqaüdlə bağlı xərclər daxildir.

**272530. "20 yanvar şəhidlərinin ailələrinə verilən təqaüd"** maddəsinə 20 yanvar şəhidlərinin ailələri üçün təsis edilmiş təqaüdlə bağlı xərclər daxildir.

**272540. "Fərdi təqaüdlər"** maddəsinə qanunvericiliklə müəyyən olunmuş şəxslərə təsis edilmiş təqaüdlə bağlı xərclər daxildir.

**272550. "Şəhid ailələrinə verilən təqaüdlər"** maddəsinə şəhid ailələri üçün təsis edilmiş təqaüdlə bağlı xərclər daxildir.

**272560. "20 yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə verilən təqaüd"** maddəsinə 1990-cı ilin 20 yanvar hadisələri ilə əlaqədar sağlamlıqlarını itirərək əlil olmuş şəxslərə təsis edilmiş təqaüdün ödənilməsi ilə bağlı xərclər daxildir.

**272570. "Tələbələrə verilən təqaüdlər"** maddəsinə mövcud qanunvericiliyə əsasən doktorantlar, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə tələbələrə və bu profildə olan hərbi məktəblərdə təhsil alan tələbələrə ödənilən təqaüdlərlə bağlı xərclər daxildir.

**272590. "Digər təqaüdlər"** maddəsinə 272510-272570-ci maddələrində öz əksini tapmayan və mahiyyət etibarilə təqaüd hesab edilən digər xərclər daxildir.

**272600. "Məcburi köçkünlərə və məskunlaşmamış qaçqınlara ödənişlər"** paraqrafına məcburi köçkünlərə və məskunlaşmamış qaçqınlara mövcud qanunvericiliyə uyğun olaraq ödənişlərin verilməsi ilə bağlı xərclər daxildir. Bu paraqraf "272610. Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərə ödənişlər" və "272690. Digər ödənişlər" maddələrindən ibarətdir.

**272610. "Məcburi köçkünlərə və onlara bərabər tutulan şəxslərə ödənişlər"** maddəsinə qanunvericiliklə müəyyən olunmuş qaydada məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərə təyin olunan müavinətlə bağlı xərclər daxildir.

**272690. "Digər ödənişlər"** maddəsinə qanunvericiliklə müəyyən olunmuş qaydada məcburi köçkünlərə və məskunlaşmamış qaçqınlara verilən digər ödənişlər üzrə xərclər daxildir.

**272900. "Sosial yardım üzrə digər ödənişlər"** paraqrafına qanunvericiliklə müəyyən edilmiş sosial yardım xarakterli ödənişlərlə bağlı xərclər daxildir. Bu paraqraf "272910. Xidmət göstərənlərə ödənişlər", "272920. Avtomobil növbəsində dayanan əlillərə kompensasiya", "272930. Xüsusi təhsilə cəlb edilənlərə müavinət", "272940. İnsan alverindən zərər çəkmişlərə müavinət" və "272990. Digər ödənişlər" maddələrindən ibarətdir.

**272910. “Xidmət göstərənlərə ödənişlər”** maddəsinə ahıllara xidmət göstərən sosial işçilərə qanunvericilikdə nəzərdə tutulan ödənişlər (nəqliyyat xərci, paltar, ayaqqabı və bu qəbildən olan digər ödənişlər) daxildir.

**272920. “Avtomobil növbəsində dayanan əlillərə kompensasiya”** maddəsinə qanunvericiliklə müəyyən olunmuş qaydada pulsuz avtomobil almaq üçün növbəyə dayanmış əlillərə avtomobil verilmədikdə, onlara nəqliyyat xərci kimi ödənilən kompensasiya ilə bağlı xərclər daxildir.

**272930. “Xüsusi təhsilə cəlb edilənlərə müavinət”** maddəsinə xüsusi təhsilə cəlb olunanların valideynlərinə və ya digər qanuni nümayəndələrinə uşaqlarını xüsusi təhsil müəssisələrinə, sağlamlıq və reabilitasiya müəssisələrinə mərkəzlərinə və tibb müəssisələrinə aparıb-gətirmək, evdə təhsilə cəlb olunanların valideynlərinə və ya digər qanuni nümayəndələrinə uşaqlarını sağlamlıq və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb-gətirmək üçün verilən müavinətlə bağlı xərclər daxildir.

**272940. “İnsan alverindən zərər çəkmişlərə müavinət”** maddəsinə insan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə ödənilən müavinətlə bağlı xərclər daxildir.

**272990. “Digər ödənişlər”** maddəsinə 272910-272940-cı maddələrdə nəzərdə tutulmayan və mahiyyət etibarilə sosial yardım üzrə ödəniş hesab edilən digər xərclər daxildir.

**279000. “Digər sosial ödənişlər”** köməkçi bölməsinə mövcud qanunvericiliyə uyğun olaraq dövlət qulluqçularına ödənilən sosial müavinətlər və 271000-272000-ci köməkçi bölmələrində öz əksini tapmayan ödənişlər üzrə xərclər daxildir. Bu köməkçi bölmə “279100. Dövlət qulluqçularına ödənişlər”, “279200. Natural formada olan müavinətlər”, “279300. Kommunal və digər xidmətlərə görə təzminat (kompensasiya)” və “279900. Digər müavinətlər” paraqraflarından ibarətdir.

**279100. “Dövlət qulluqçularına ödənişlər”** paraqrafına dövlət qulluqçularına sosial müavinət formasında ödənilən xərclər (pensiya yaşına çatmasına görə könüllü işdən çıxmış və dövlət qulluğuna xidmət illərinin minimum həddinə malik olmayan dövlət qulluqçularına ömürlük müavinət, pensiya yaşına çatmasına görə könüllü işdən çıxdıqda, hesablanmış aylıq pensiyanın müəyyən olunmuş məbləğində birdəfəlik haqq) daxildir.

**279200. “Natural formada olan müavinətlər”** paraqrafına natural formada alınan müavinətlərlə bağlı xərclər daxildir.

**279300. “Kommunal və digər xidmətlərə görə təzminat (kompensasiya)”** paraqrafına respublikanın kənd rayonlarında yerləşən ümumtəhsil məktəblərində və səhiyyə müəssisələrində ali və orta ixtisas təhsil müəssisələrinin pedaqoji və tibb ixtisaslarını bitirən gənc mütəxəssislərə kommunal və digər xidmətlərə görə ödənilən təzminat (kompensasiya) və bu qəbildən olan digər xərclər daxildir.

**279900. “Digər müavinətlər”** paraqrafına dövlət tərəfindən ödənilən digər müavinətlərin xərcləri və 279100-279300-cü paraqraflarda öz əksini tapmayan digər müavinət və yardımlarla bağlı xərclər daxildir.

**310000. “Qeyri-maliyyə aktivləri”** bölməsinə qeyri-maliyyə aktivlərinin alınması ilə bağlı xərclər daxildir. Bu bölmə “311000. Torpaq, tikili və avadanlıqlar”, “312000. Əsaslı təmir”, “313000. Əsaslı vəsait qoyuluşu (investisiya) xərci”, “314000. Qeyri-maddi aktivlər”, “315000. Bioloji aktivlər”, “316000. Sair uzunmüddətli qeyri-maliyyə aktivləri”, “317000. Maddi-istehsal ehtiyatları” və “318000. Qeyri-istehsal aktivləri” köməkçi bölmələrindən ibarətdir.

**311000. “Torpaq, tikili və avadanlıqlar”** köməkçi bölməsinə tikili və avadanlıqların, nəqliyyat vasitələrinin, sair torpaq, tikili və avadanlıqların alınması və tikilməsi ilə bağlı xərclər daxildir. Bu köməkçi bölmə “311100. Tikili və avadanlıqlar”, “311200. Nəqliyyat vasitələri” və “311900. Sair torpaq, tikili və avadanlıqlar” paraqraflarından ibarətdir.

**311100. "Tikili və avadanlıqlar"** paraqrafına yaşayış binaları, qeyri-yaşayış binaları, qurğular (tikintilər), ötürücü qurğular, maşın və avadanlıqlarla bağlı xərclər daxildir. Bu paraqraf "311110. Yaşayış binaları", "311120. Qeyri-yaşayış binaları", "311130. Qurğular (tikintilər)", "311140. Ötürücü qurğular" və "311150. Maşın və avadanlıqlar" maddələrindən ibarətdir.

**311110. "Yaşayış binaları"** maddəsinə bütün təyinatlardan olan yaşayış binalarının alınması və tikintisi ilə bağlı xərclər daxildir. Bu maddə "311111. Yaşayış binalarının alınması" və "311112. Yaşayış binalarının tikintisi" yarımmaddələrindən ibarətdir.

**311111. "Yaşayış binalarının alınması"** yarımmaddəsinə yaşayış binalarının alınması ilə bağlı xərclər daxildir.

**311112. "Yaşayış binalarının tikintisi"** yarımmaddəsinə yaşayış binalarının tikintisi ilə bağlı xərclər daxildir.

**311120. "Qeyri-yaşayış binaları"** maddəsinə bütün təyinatlardan olan qeyri-yaşayış bina və tikililərin (inzibati, idarəetmə, hərbi təyinatlı və digər qeyri-yaşayış tikililərinin) alınması və tikintisi ilə bağlı xərclər daxildir. Bu maddə "311121. Qeyri-yaşayış binalarının alınması" və "311122. Qeyri-yaşayış binalarının tikintisi" yarımmaddələrindən ibarətdir.

**311121. "Qeyri-yaşayış binalarının alınması"** yarımmaddəsinə qeyri-yaşayış binalarının alınması ilə bağlı xərclər daxildir.

**311122. "Qeyri-yaşayış binalarının tikintisi"** yarımmaddəsinə qeyri-yaşayış binalarının tikintisi ilə bağlı xərclər daxildir.

**311130. "Qurğular (tikintilər)"** maddəsinə bütün növ qurğuların alınması və tikintisi ilə bağlı xərclər daxildir. Bu maddə "311131. Qurğuların (tikintilərin) alınması" və "311122. Qurğuların (tikintilərin) tikintisi" yarımmaddələrindən ibarətdir.

**311131. "Qurğuların (tikintilərin) alınması"** yarımmaddəsinə qurğuların (tikintilərin) alınması və quraşdırılması ilə bağlı xərclər daxildir.

**311132. "Qurğuların (tikintilərin) tikintisi"** yarımmaddəsinə qurğuların (tikintilərin) tikintisi ilə bağlı xərclər daxildir.

**311140. "Ötürücü qurğular"** maddəsinə bütün növ ötürücü qurğuların alınması, tikilməsi və quraşdırılması ilə bağlı xərclər daxildir. Bu maddə "311141. Ötürücü qurğuların alınması" və "311142. Ötürücü qurğuların tikilməsi" yarımmaddələrindən ibarətdir.

**311141. "Ötürücü qurğuların alınması"** yarımmaddəsinə istehlakçıya çatdırılacaq enerji, maye və qaz halındakı məhsulların ötürülməsində iştirak edən bütün növ avadanlıqların, qurğuların (metal, dəmir-beton və taxta dayaqlar üzərində qurulmuş qatarlar (o cümlədən trolleybus və tramvaylar) üçün elektrikötürücü qurğular şəbəkəsi, dayaqlar üzərində qurulmuş elektrikötürücü naqillər, elektrikötürücü kabel naqilləri, rabitə kabel naqilləri, yüksək- tezlikli dalğaların, radio dalğalarının və sair rabitə dalğalarının ötürülməsi üçün nəzərdə tutulmuş qurğular, qaz kəmərləri, kanalizasiya xətləri və bunlara aid olan bütün növ aralıq avadanlıqları və qurğuları, sair ötürücü qurğular, o cümlədən neft məhsulları üçün boru kəmərləri, istilik sistemi üçün boru kəmərləri, habelə başqa ötürücü qurğular) alınması və quraşdırılması ilə bağlı xərclər daxildir.

**311142. "Ötürücü qurğuların tikilməsi"** yarımmaddəsinə istehlakçıya çatdırılacaq enerji, maye və qaz halındakı məhsulların ötürülməsində iştirak edən bütün ötürücü qurğuların tikilməsi ilə bağlı xərclər daxildir.

**311150. "Maşın və avadanlıqlar"** maddəsinə güc maşınları və avadanlıqları, o cümlədən elektrik enerjisi və istilik hasil edən maşın-generatorlar və müxtəlif növ enerji (onlardan su enerjisi, külək enerjisi, istilik enerjisi, elektrik enerjisi, günəş enerjisi) hasil edən maşın-mühərriklər və bu kimi başqa güc maşınları və avadanlıqları, iş maşınları və avadanlıqları, poliqrafiya sahəsində, yol-tikinti, sualtı-texniki işlərdə və digər sahələrdə istifadə

olunan başqa maşınlar və avadanlıqlar, ölçü cihazları, o cümlədən dozatorlar, ampermetrlər, barometrlər, vatmetrlər, suölçənlər, vakuumetrlər, vaporimetrlər, voltmetrlər, hündürlükölçənlər, qalvonometrlər, geodeziya cihazları, indikatorlar, kompaslar, manometrlər, xronometrlər, xüsusi tərəzilər, kassa aparatları və başqa ölçü cihazları, tənzimləyici cihazlar və qurğular, o cümlədən oksigenli tənəffüs cihazları, elektrik, pnevmatik və hidravlik tənzimləyən cihazlar, avtomatik idarəetmə pultları, dispetçer nəzarəti üçün xətti qurğular və bu kimi başqa tənzimləyici cihazlar və qurğular, laboratoriya avadanlıqları, o cümlədən pirometrlər, nizamlayıcılar, kalorimetrlər, nəmliyi müəyyən edən cihazlar, distillə qazanları, sorucu şkaflar, mikroskoplar və bu qəbildən olan başqa laboratoriya avadanlıqları, hesablama texnikası, o cümlədən elektron hesablayıcılar, idarəçi və analoji maşınlar (kompüterlər, printerlər, skanerlər, surətçıxaran maşınlar, fakslar, telefon aparatları), rəqəmli hesablayıcı maşınlar və qurğular, bu kimi başqa hesablama texnikası, tibbi avadanlıqlar, o cümlədən diş həkimləri üçün kreslolar, cərrahiyyə stolları, xüsusi avadanlıq bərkidilmiş çarpayılar, xüsusi dezinfeksiya avadanlıqları, qanköçürmə stansiyaları və bu kimi başqa tibbi avadanlıqlar, elektrik mühərrikləri, dizel-qeneratorlar, metalkəsən dəzgahlar, körpülü kranlar, üzən nasos stansiyaları, səyyar akkumulyatorlar, qaynaq aqreqatları, qazma və təmir aqreqatları, emalatxanalarda, kabinetlərdə və otaqlarda quraşdırılacaq avadanlıqlar, kinoaparatlar, işıqlandırma aparatları, səhnə avadanlıqları, musiqi alətləri, televizorlar, radio-aparatlar, xüsusi elmi tədqiqat avadanlıqları, avtomatlaşdırılmış telefon stansiyalarının avadanlıqları, avtomobillərdə və ya digər nəqliyyat vasitələrində yerləşdirilən yanğınsöndürən maşınlar və avadanlıqlar, mexanikləşdirilmiş yanğın nəqliyyatları, yol hərəkətini tənzimləyən texniki qurğular və işıqforlar, paltaryuyan, paltartikən və qabyuyan maşınlar, soyuducular, kondisionerlər, tozsoranlar, dispenserlər, proyektorlar, idman avadanlıqları, bu kimi başqa maşın və avadanlıqlar, silah, döyüş sursatı, digər hərbi təyinatlı avadanlıq və sair maşın və avadanlıqların alınması və quraşdırılması ilə bağlı xərclər daxildir.

**311200. "Nəqliyyat vasitələri"** paraqrafına bütün növ nəqliyyat vasitələrinin alınması və istehsalı ilə bağlı xərclər daxildir. Bu paraqraf "311210. Hava nəqliyyatı vasitələri", "311220. Dəmiryolu nəqliyyatı vasitələri", "311230. Su nəqliyyatı vasitələri", "311240. Xidmət nəqliyyatı vasitələri", "311250. İstehsalat nəqliyyatı vasitələri", "311260. Avtomobil nəqliyyatı vasitələri" və "311270. İdman nəqliyyatı vasitələri" maddələrindən ibarətdir.

**311210. "Hava nəqliyyatı vasitələri"** maddəsinə hava nəqliyyatı vasitələrinin alınması və istehsalı ilə bağlı xərclər daxildir.

**311220. "Dəmiryolu nəqliyyatı vasitələri"** maddəsinə dəmiryolu nəqliyyatı vasitələrinin alınması və istehsalı ilə bağlı xərclər daxildir.

**311230. "Su nəqliyyatı vasitələri"** maddəsinə su nəqliyyatı vasitələrinin alınması və istehsalı ilə bağlı xərclər daxildir.

**311240. "Xidmət nəqliyyatı vasitələri"** maddəsinə trolleybuslar, tramvaylar, avtobuslar, refrejeratorlar və bu kimi digər xidmət nəqliyyatları vasitələrinin alınması və istehsalı ilə bağlı xərclər daxildir.

**311250. "İstehsalat nəqliyyatı vasitələri"** maddəsinə ekskavatorlar, avtoqreyderlər, avtoskreperlər, qoşqulu skreperlər, traktorlar, buldozerlər, kombaynlar, elektrokarlar, motorollerlər, idman üçün nəzərdə tutulmayan motosikletlər və velosipedlər, mopedlər, araba nəqliyyatları və bu kimi digər istehsalat nəqliyyatları vasitələrinin alınması və istehsalı ilə bağlı xərclər daxildir.

**311260. "Avtomobil nəqliyyatı vasitələri"** maddəsinə minik və yük avtomobil nəqliyyatı vasitələrinin alınması və istehsalı ilə bağlı xərclər daxildir.

**311270. "İdman nəqliyyatı vasitələri"** maddəsinə idman avtomobilləri, idman motosikletləri, idman velosipedləri və bu kimi digər idman nəqliyyatları vasitələrinin alınması və istehsalı ilə bağlı xərclər daxildir.

**311900. "Sair torpaq, tikili və avadanlıqlar"** paraqrafına iş vaxtı fəaliyyətinin asan yerinə yetirilməsinə kömək etmək üçün nəzərdə tutulan ümumi və texniki təyinatlı predmetlər (mebel dəstləri, masalar, kreslolar, kürsülər, dolablar, şkaflar, stellajlar, dəmir seyflər, partalar, daşınan sədlər, asılqanlar, qarderoblar, divanlar, yanmayan şkaflar və yeşiklər, inventar taraları, daşınan çadırlar, çarpayılar, kovralit örtük və xalçalar, portyerlər, jalüzlər), əməyin mühafizəsi üçün uyğunlaşdırılmış xüsusi avadanlıqlar (hidropultlar, stenderlər, əl nərdivanları, maye və dənəvərlərin saxlanması üçün xüsusiləşdirilmiş qablar), idman və digər xüsusi hərbi təyinatlı inventarların və bu kimi digər təsərrüfat inventarlarının alınması, quraşdırılması və istehsalı ilə bağlı xərclər daxildir.

**312000. "Əsaslı təmir"** köməkçi bölməsinə yararsız vəziyyətə düşmüş və yararsız vəziyyətə düşmək ərəfəsində olan sosial və infrastruktur obyektlərin, nəqliyyat vasitələrinin, maşın və avadanlıqların, qurğu və ötürücü qurğuların və bu qəbildən olan digər əmlakların tam bərpası, yenidən qurulması üçün sərf olunan xərclər daxildir. Həmçinin, bu maddəyə əsas vəsaitlərin (fondların) əsaslı təmiri və əsaslı təmir işləri ilə bağlı layihə-smeta sənədlərinin hazırlanması xərcləri daxil edilir. Bu köməkçi bölmə "312100. Tikili və avadanlıqların əsaslı təmiri", "312200. Nəqliyyat vasitələrinin əsaslı təmiri" və "312900. Sair torpaq, tikili və avadanlıqların əsaslı təmiri" paraqraflarından ibarətdir.

**312100. "Tikili və avadanlıqların əsaslı təmiri"** paraqrafına yaşayış binaları, qeyri-yaşayış tikililəri, qurğular (tikintilər), ötürücü qurğular, maşın və avadanlıqların əsaslı təmiri və əsaslı təmir işləri ilə bağlı layihə-smeta sənədlərinin hazırlanması ilə bağlı xərclər daxildir. Bu paraqraf "312110. Yaşayış binalarının əsaslı təmiri", "312120. Qeyri-yaşayış binalarının əsaslı təmiri", "312130. Qurğuların (tikintilərin) əsaslı təmiri", "312140. Ötürücü qurğuların əsaslı təmiri" və "312150. Maşın və avadanlıqların əsaslı təmiri" maddələrindən ibarətdir.

**312110. "Yaşayış binalarının əsaslı təmiri"** maddəsinə bütün təyinatlardan olan yaşayış binalarının əsaslı təmiri və əsaslı təmir işləri ilə bağlı layihə-smeta sənədlərinin hazırlanması üzrə xərclər daxildir.

**312120. "Qeyri-yaşayış binalarının əsaslı təmiri"** maddəsinə bütün təyinatlardan olan qeyri-yaşayış bina və tikililərin (inzibati, idarəetmə, hərbi təyinatlı və digər qeyri-yaşayış tikililərinin) əsaslı təmiri və əsaslı təmir işləri ilə bağlı layihə-smeta sənədlərinin hazırlanması üzrə xərclər daxildir.

**312130. "Qurğuların (tikintilərin) əsaslı təmiri"** maddəsinə bütün növ qurğuların əsaslı təmiri və əsaslı təmir işləri ilə bağlı layihə-smeta sənədlərinin hazırlanması üzrə xərclər daxildir.

**312140. "Ötürücü qurğuların əsaslı təmiri"** maddəsinə bütün növ ötürücü qurğuların əsaslı təmiri və əsaslı təmir işləri ilə bağlı layihə-smeta sənədlərinin hazırlanması üzrə xərclər daxildir.

**312150. "Maşın və avadanlıqların əsaslı təmiri"** maddəsinə güc maşınları və avadanlıqları, o cümlədən elektrik enerjisi və istilik hasil edən maşın-generatorlar və müxtəlif növ enerji (onlardan su enerjisi, külək enerjisi, istilik enerjisi, elektrik enerjisi, günəş enerjisi) hasil edən maşın-mühərriklər və bu kimi başqa güc maşınları və avadanlıqları, iş maşınları və avadanlıqları, poliqrafiya sahəsində, yol-tikinti, sualtı-texniki işlərdə və digər sahələrdə istifadə olunan başqa maşınlar və avadanlıqlar, ölçü cihazları, o cümlədən dozatorlar, ampermetrlər, barometrlər, vatmetrlər, suölçənlər, vakuumetrlər, vaporimetrlər, voltmetrlər, hündürlükölçənlər, qalvonometrlər, geodeziya cihazları, hiqroskoplar, indikatorlar, kompaslar, manometrlər, xronometrlər, xüsusi tərəzilər, kassa aparatları və başqa ölçü cihazları,

tənzimləyici cihazlar və qurğular, o cümlədən oksigenli tənəffüs cihazları, elektrik, pnevmatik və hidravlik tənzimləyən cihazlar, avtomatik idarəetmə pultları, dispetçer nəzarəti üçün xətti qurğular və bu kimi digər tənzimləyici cihazlar və qurğular, laboratoriya avadanlıqları, o cümlədən pirometrlər, nizamlayıcılar, kalorimetrlər, nəmliyi müəyyən edən cihazlar, distillə qazanları, sorucu şkaflar, mikroskoplar və bu qəbildən olan başqa laboratoriya avadanlıqları, hesablama texnikası, o cümlədən elektron hesablayıcılar, idarəçi və analoji maşınlar (kompüterlər, printerlər, skanerlər, surətçıxaran maşınlar, fakslar, telefon aparatları), rəqəmli hesablayıcı maşınlar və qurğular, bu kimi digər hesablama texnikası, tibbi avadanlıqlar, o cümlədən diş həkimləri üçün kreslolar, cərrahiyyə stolları, xüsusi avadanlıq bərkidilmiş çarpayılar, xüsusi dezinfeksiya avadanlıqları, qanköçürmə stansiyaları və bu kimi digər tibbi avadanlıqlar, elektrik mühərrikləri, dizel-qeneratorlar, metalkəsən dəzgahlar, körpülü kranlar, üzən nasos stansiyaları, səyyar akkumulyatorlar, qaynaq aqreqatları, qazma və təmir aqreqatları, emalatxanalarda, kabinetlərdə və otaqlarda quraşdırılacaq avadanlıqlar, kinoaparatlar, işıqlandırma aparatları, səhnə avadanlıqları, musiqi alətləri, televizorlar, radio-aparatlar, xüsusi elmi tədqiqat avadanlıqları, avtomatlaşdırılmış telefon stansiyalarının avadanlıqları, avtomobillərdə və ya digər nəqliyyat vasitələrində yerləşdirilən yanğınsöndürən maşınlar və avadanlıqlar, mexanikləşdirilmiş yanğın nəqliyyatları, paltaryuyan, paltartikən və qabyuyan maşınlar, soyuducular, kondisionerlər, tozsoranlar, dispenserlər, bu kimi digər maşın və avadanlıqlar, silah, döyüş sursatı, digər hərbi təyinatlı avadanlıq və sair maşın və avadanlıqların əsaslı təmiri və əsaslı təmir işləri ilə bağlı layihə-smeta sənədlərinin hazırlanması üzrə xərclər daxildir.

**312200. “Nəqliyyat vasitələrinin əsaslı təmiri”** paraqrafına bütün növ nəqliyyat vasitələrinin əsaslı təmiri və əsaslı təmir işləri ilə bağlı layihə-smeta sənədlərinin hazırlanması üzrə xərclər daxildir.

**312900. “Sair torpaq, tikili və avadanlıqların əsaslı təmiri”** paraqrafına iş vaxtı fəaliyyətin asan yerinə yetirilməsinə kömək etmək üçün nəzərdə tutulan ümumi və texniki təyinatlı predmetlər (mebel dəstləri, masalar, kreslolar, kürsülər, dolablar, şkaflar, stellajlar, dəmir seyflər, partalar, daşınan sədlər, asılqanlar, qarderoblar, divanlar, yanmayan şkaflar və yeşiklər, inventar taraları, daşınan çadırlar, çarpayılar, xalçalar, portyerlər, jalüzlər), əməyin mühafizəsi üçün uyğunlaşdırılmış xüsusi avadanlıqlar (hidropultlar, stenderlər, əl nərdivanları, maye və dənəvər məhsulların saxlanılması üçün xüsusiləşdirilmiş qablar), idman və digər xüsusi hərbi təyinatlı inventarların və bu kimi digər təsərrüfat inventarlarının, habelə “316000. Sair uzunmüddətli qeyri-maliyyə aktivləri” köməkçi bölməsində nəzərdə tutulmuş uzunmüddətli qeyri-maliyyə aktivlərinin əsaslı təmiri və əsaslı təmir işləri ilə bağlı layihə-smeta sənədlərinin hazırlanması üzrə xərclər daxildir.

**313000. “Əsaslı vəsait qoyuluşu (investisiya) xərci”** köməkçi bölməsinə hər il üzrə dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərci üçün nəzərdə tutulan vəsait daxildir.

**314000. “Qeyri-maddi aktivlər”** köməkçi bölməsində torpaq sahələrindən, təbii ehtiyatlardan (sərvətlərdən) istifadə üçün verilmiş uzunmüddətli hüquqların, patentlərin, lisenziyaların, ticarət markalarının, əmtəə nişanlarının alınması, proqram təminatlarının, kompüter proqramlarının, idarə əməkdaşlarına verilən elektron imza sertifikatlarının və digər qeyri-maddi aktivlərin alınması, quraşdırılması, sazlanması, habelə qeyri-maddi aktivlərin yaradılması və ya onların balans dəyərinin artırılması üzrə xərclər daxildir.

**315000. “Bioloji aktivlər”** köməkçi bölməsinə işçi və məhsuldar heyvanların, çoxillik əkmələrin və sair bioloji aktivlərin alınması və yetişdirilməsi ilə bağlı xərclər daxildir.

**316000. “Sair uzunmüddətli qeyri-maliyyə aktivləri”** köməkçi bölməsinə kitabxana fondu (elektron və kağız daşıyıcılarda bütün növ elmi, bədii, tədris və xüsusi növ ədəbiyyatlar

və bu kimi digər nəşrlər), muzey sərvətləri, qalereyalar üçün eksponatlar və rəsm əsərləri, məlumat daşıyıcıları (tədris kinofilmləri, maqnit lentləri, maqnit diskləri, kasetlər, proqram daşıyıcıları və bu kimi başqa məlumat daşıyıcıları), heyvanxanalarda olan dünya heyvanlarının eksponatları və bu kimi digər uzunmüddətli qeyri-maliyyə aktivlərinin alınması, quraşdırılması və istehsalı, habelə büst və heykəllərin layihələndirilməsi və hazırlanması ilə bağlı xərclər daxildir.

**317000. "Maddi-istehsal ehtiyatları"** köməkçi bölməsinə satış üçün nəzərdə tutulan mallar, dövlət orqanları tərəfindən fövqəladə, səfərbərlik və strateji mal ehtiyatlarının, o cümlədən taxıl ehtiyatlarının və ölkə üçün vacib olan digər malların, habelə dövlət material ehtiyatları yaradılması məqsədi ilə müxtəlif ehtiyatların və qiymətli metalların və daşların, habelə zərgərlik məmulatlarının alınması və yaradılması xərcləri daxildir.

**318000. "Qeyri-istehsal aktivləri"** köməkçi bölməsinə torpağın (onlarda yerləşən tikinti obyektləri və qurğulardan başqa), meşənin, yeraltı sərvətlərin və faydalı qazıntıların yerinin alınması ilə bağlı xərclər daxildir. Bu köməkçi bölmə "318100. Torpaq" və "318200. Yeraltı aktivlər və digər təbii aktivlər" paraqraflarından ibarətdir.

**318100. "Torpaq"** paraqrafına torpağın, meşələrin (onlarda yerləşən tikinti obyekti və qurğular istisna olmaqla) alınması ilə bağlı xərclər daxildir.

**318200. "Yeraltı aktivlər və digər təbii aktivlər"** paraqrafına yerin təkində olan faydalı qazıntıların və digər təbii aktivlərin alınması ilə bağlı xərclər daxildir.

**320000. "Maliyyə aktivləri üzrə əməliyyatlar"** bölməsinə ölkə daxilində dövlətə məxsus cari və tranzit hesablar, depozitlər, istiqrazlar, qiymətli kağızlar, daxili borclar üzrə əməliyyatlar, həmçinin valyuta, qiymətli kağızlar (səhmlər istisna olmaqla), ssudalar, səhm və digər kapital, törəmə maliyyə alətləri və sair maliyyə aktivləri üzrə əməliyyatlar daxildir. Bu bölmə "321000. Daxili", "322000. Xarici" və "323000. Qızıl və SDR" köməkçi bölmələrindən ibarətdir.

**321000. "Daxili"** köməkçi bölməsinə ölkə daxilində dövlətə məxsus cari və tranzit hesablar, depozitlər, istiqrazlar, qiymətli kağızlar, daxili borclar üzrə əməliyyatlar daxildir. Bu köməkçi bölmə "321100. Valyuta və depozitlər", "321200. Səhmlər istisna olmaqla qiymətli kağızlar", "321300. Ssudalar", "321400. Səhm və digər kapital", "321500. Törəmə maliyyə alətləri" və "321900. Digər maliyyə aktivləri" paraqraflarından ibarətdir.

**321100. "Valyuta və depozitlər"** paraqrafına ölkə daxilində dövlətə məxsus cari və tranzit hesablar üzrə əməliyyatlar, il ərzində valyutanın qiymətinin dəyişməsi, qoyulmuş depozitlərin faizinin dəyişməsi ilə bağlı əməliyyatlar daxildir.

**321200. "Səhmlər istisna olmaqla qiymətli kağızlar"** paraqrafına ölkə daxilində dövlət tərəfindən alınan qısamüddətli və uzunmüddətli qiymətli kağızlar üzrə əməliyyatlar daxildir. Bu paraqraf "321210. Qısamüddətli" və "321220. Uzunmüddətli" maddələrindən ibarətdir.

**321210. "Qısamüddətli"** maddəsinə səhmlər istisna olmaqla qısamüddətli qiymətli kağızlar üzrə əməliyyatlar daxildir. Bu maddə "321211. İl ərzində alınmış" və "321212. İl ərzində satılmış" yarımmaddələrindən ibarətdir.

**321211. "İl ərzində alınmış"** yarımmaddəsinə il ərzində alınmış qısamüddətli qiymətli kağızlar üzrə əməliyyatlar daxildir.

**321212. "İl ərzində satılmış"** yarımmaddəsinə il ərzində satılmış qısamüddətli qiymətli kağızlar üzrə əməliyyatlar daxildir.

**321220. "Uzunmüddətli"** maddəsinə səhmlər istisna olmaqla uzunmüddətli qiymətli kağızlar üzrə əməliyyatlar daxildir. Bu maddə "321221. İl ərzində alınmış" və "321222. İl ərzində satılmış" yarımmaddələrindən ibarətdir.

**321221. "İl ərzində alınmış"** yarımmaddəsinə il ərzində alınmış uzunmüddətli qiymətli kağızlar üzrə əməliyyatlar daxildir.

**321222. "İl ərzində satılmış"** yarımmaddəsinə il ərzində satılmış uzunmüddətli qiymətli kağızlar üzrə əməliyyatlar daxildir.

**321300. "Ssudalar"** paraqrafında dövlət tərəfindən verilən ssudalar üzrə əməliyyatlar əks etdirilir. Bu paraqraf "321310. Qısamüddətli" və "321320. Uzunmüddətli" maddələrindən ibarətdir.

